# TƏSVİRİ İNCƏSƏNƏT

## METODİK VƏSAİT

# 3







LAYİHƏ

YEGANƏ CƏLİLOVA, KƏMALƏ CƏFƏRZADƏ

# TƏSVİRİ İNCƏSƏNƏT

# 3

Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün Təsviri incəsənət fənni üzrə dərsliyin
METODİK VƏSAİTİ

©Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**bn@bakineshr.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

BAKI NƏŞR

LAYİHƏ

# MÜNDƏRİCAT

DƏRSLİK KOMPLEKTİ HAQQINDA........................................................ 3
III SİNİF ÜZRƏ MƏZMUN STANDARTLARI............................................ 6
DƏRSLİK KOMPLEKTİNİN MÖVZULAR
ÜZRƏ STRUKTURU ........................................................................ 7
ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏ
PRİNSİPLƏRİ VƏ ÜSULLARI ........................................................... 10
İSTİFADƏ OLUNAN ÜSULLAR ............................................................ 14

1. TƏBİƏTİN "EMALATXANASI"NDA.................................................... 19
2. İNSAN TƏBİƏTDƏN ÖYRƏNİR......................................................... 29
3. SƏNƏTKARIN EMALATXANASINDA .................................................. 37
4. ŞƏHƏRİMİZİN İNCƏSƏNƏTİ ......................................................... 57
KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏLƏRİ ............................ 67
ƏLAVƏ MATERİALLAR.......................................................................... 74
MƏNBƏLƏR ......................................................................................... 79



LAYİHƏ

# DƏRSLİK KOMPLEKTİ HAQQINDA

Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları) əsasında hazırlanmış 3-cü sinif üçün "Təsviri incəsənət" dərslik komplekti dərslik və müəllim üçün metodik vəsaitdən ibarətdir.

"Təsviri incəsənət" fənni şagirdlərin estetik dünyagörüşünü və hissiyyat aləmini inkişaf etdirmək, hadisələri bədii təsvir vasitələri ilə ifadə etmək bacarıqlarını formalaşdırır.

Dərslik komplekti şagirdin yalnız təsvir bacarıqlarına deyil, onun ümumi inkişafına istiqamətlənərək düşünməyə sövq edir, onlarda müstəqil tədqiqatçılıq, yaradıcılıq və vərdişlər aşılayaraq tənqidi təfəkkürü inkişaf etdirir. Məhz bu keyfiyyətlər şəxsiyyətin inkişafına yol açan amillərdir. Dərslikdə verilən biliklər müxtəlif həyat hadisələri ilə, fənlər ilə inteqrasiya olunaraq mövzunun, anlayışın daha dərindən başa düşülməsinə xidmət edir.

3-cü sinifdə şagirdlərin onları əhatə edən mühitdə təsviri incəsənətin yeri ilə bağlı təsəvvürləri və bilik dairəsi tədricən genişlənir. Məktəblilər gündəlik həyatda qarşılaşdıqları maddi mədəniyyət nümunələri ilə tanış olduqca 1 və 2-ci siniflərdə əldə etdikləri biliklərə əsaslanaraq bütün bunların varlığının incəsənətlə əlaqə olmadan mümkünsüzlüyünü dərk edirlər.

Tədris vahidləri üzrə təqdim edilən mövzular şəhər məktəblərində sınaqdan keçirilmişdir. Fənn üzrə mövzular dərslikdə həftədə bir dərs hesabı ilə nəzərə alınaraq təqdim olunur. Burada hər dərs idraki fəaliyyətə doğru atılmış yeni bir addımdır.

**Dərslik**də mövzular dörd vahid üzrə cəmlənmişdir. Bütün vahidlər öz aralarında qarşılıqlı əlaqədə olmaqla eyni məqsədə istiqamətlənmişdir. Vahidlər arasındakı qarşılıqlı əlaqə onların hər birində ümumi prinsipin – *müşahidə etmək, mənimsəmək, tətbiq və istifadə etməyi öyrənmənin* müxtəlif şəkildə təzahüründən ibarətdir. Bütün bunları insan təbiətdən öyrənir.

Mövzuların tərtibində ideologiyamız, materialların tərbiyəedici xarakteri, şagirdlərin yaş və bilik səviyyəsinə müvafiqlik, sistemlilik, sadədən mürəkkəbə, asandan çətinə, millilikdən ümumbəşəriliyə kimi prinsiplər nəzərdə tutulmuşdur.

«TƏBİƏTİN EMALATXANASINDA» adlanan birinci vahiddə başlıca vəzifə müşahidənin, həmçinin ətraf mühiti estetik baxımdan dərk etmək, təbiətdəki rəng çalarlarını, naxışların müxtəlifliyini, ritm və ahəngi müəyyənləşdirmək qabiliyyətlərinin, təbiət hadisələrindəki gözəlliklərə həssaslıqla yanaşma duyğusunun inkişaf etdirilməsindən ibarətdir.

İkinci vahiddə — «İNSAN TƏBİƏTDƏN ÖYRƏNİR» – əsas vəzifə şagirdə təbiətdəki, həmçinin evdəki hər şeyin incəsənətlə əlaqəsini başa düşməkdə, gündəlik həyatda gördüyü əşyaların gözəlliyinin mahiyyətini anlamaqda, ev üçün əşyaların – xalça, yaraşıqlı pərdələr, qab-qacaq və s. seçilməsinə maraq oyatmaqda kömək etməkdir. Dərsdə emosional mühit yaratmaq məqsədi ilə müəllim musiqidən, bədii ifadələrdən, həqiqi əşyalardan istifadə edir .

Üçüncü vahid «SƏNƏTKARIN EMALATXANASINDA» adlanır. Heç bir slayd, heç bir reproduksiya əşyanın əsli ilə təması əvəz edə bilməz. Sənətkarın emalatxanasına getmək, onunla söhbət etmək, mənzərə, qrafika, heykəltəraşlıq, memarlıq və dizayn işlərinin aparıldığı prosesləri izləmək, əlbəttə ki, uşaqlar üçün çox maraqlı olardı. Muzey və sərgilərin isə xüsusi əhəmiyyəti var.

Dördüncü vahiddə «ŞƏHƏRİMİZİN İNCƏSƏNƏTİ»nin öyrənilməsi şagirdlərin ətraf mühitdə incəsənətin yeri və rəssamın cəmiyyətdə yaradıcı rolu haqqındakı təsəvvürlərini genişləndirir. Bu vahid tədris edilən zaman uşaqların ətraf məkanı əyani olaraq öyrənmələri üçün onları küçəyə, parka, bağçaya aparmaq yaxşı olardı. Teatra, sirkə və konsertlərə getmək də vacibdir. Səhnə arxasında olmaq, oradakı hazırlıq proseslərini izləmək, teatr tamaşaları üçün kostyumların necə hazırlandığını görmək maraqlı və faydalı olardı. Şagird dərsdə tanış olduğu materialın məzmununu tələsmədən, emosiyalar əsasında, rahatlıqla mənimsəməlidir, çünki bu, ətraf mühitlə bağlı olan təcrübə, bilik, yaradıcılıq və dəyər hissi münasibətlərinin ötürülməsinin incəsənətə və uşaq təbiətinə uyğun olan yeganə yoludur.

Hər bir dərsdə şagirdlərin qavrayışına (bədii biliklərin formalaşdırılması, qiymətləndirici münasibət) və səmərəli yaradıcı fəaliyyətinə (praktik vərdişlərin yaranması, fantaziya və təxəyyülün inkişafı, yaradıcılıqda müstəqil işləmək bacarığının formalaşması) mükəmməl iş üçün şərait yaratmaq vacibdir.

LAYİHƏ

Dərslik müəllimə istənilən sinifdə öz yaradıcılığını üzə çıxarmaq, eyni zamanda, proqramın imkanlarını inkişaf etdirmək və genişləndirmək imkanı verir. Pedaqoji ustalığı olan müəllim proqramın strukturundakı vəhdəti və tamlığı nəzərə alaraq və ona əməl edərək tədris ilinin, dərsin tapşırıqlarını yerinə yetirəcək. Hər bir məşğələni planlaşdırarkən müəllim mütləq şagirdlərin müstəqil işləmələri üçün yer ayırmaq və vaxt müəyyənləşdirmək, beləliklə də müstəqil işə hansı yollarla maraq oyatmaq, uşağın öyrənmək istəyi və yaradıcı təşəbbüsünü üzə çıxarmasından ötrü öz izahlarını saxlamaq haqqında fikirləşməlidir. Müəllim unutmamalıdır ki, **şagirdi keçirilmiş materialı əzbər öyrənməyə məcbur etmək olmaz**. Onlar bütün yenilikləri və tanımadıqlarını böyük həvəs və maraqla qarşılayırlar. Bu zaman şagirdlərdə bunu necə və nədən istifadə etməklə bağlı müxtəlif fikir və fərziyyələr oyanır.

Beləliklə, diskussiya yaranır və əlbəttə ki, müəllimlə şagird arasında deyil, bundan da əhəmiyyətlisi – şagirdlərin öz aralarında. Bu, təsviri incəsənət haqqında söhbətlərdə uşaqların işlərinin müzakirəsində vacib olan amildir. Sinifdə hər hansı şagirdin işinin başqasından fərqinin dərəcəsi bədii formanın qurulmasının aşağıdakı əlamətləri üzrə müəyyənləşir:

- Rəsmin və ya məmulatın konstruksiyasında kompozisiyanın qurulmasının kiçik məktəbyaşlı uşaqlar üçün tipik olub-olmaması ilə;
- Təsvirin dinamikliyi, yaxud statikliyi, həmçinin qeyri-adiliyi, rənglərin uyarlığının (koloritə görə) təkrarlanması ilə;
- Təsvirin (hadisə, vəziyyət, mövzu, süjet) ifadə etdiyi fikirlə bənzərliyi və oxşamaması ilə.

Dərslikdə hər bir vahid ümumilikdə şagirdləri yaradıcılığa həvəsləndirir. Bu bacarıq iki elementi nəzərdə tutur: bəşəriyyətin yaratdığı bilikləri toplamaq və mənimsəmək, mövcud olan stereotipə əməl etməyərək, məlum olmayan tərəfə addım atmağa hazır olmaq.

**Müəllim üçün vəsait**də aşağıdakı materiallar öz əksini tapmışdır:

- İnklüziv təlim prinsipləri haqqında ümumi məlumat;
- 3-cü sinif üzrə məzmun standartları;
- Fənn üzrə məzmun standartlarının reallaşma cədvəli və illik iş planı;
- Fənlərarası inteqrasiya cədvəli;
- Şagird nailiyyətlərinin qiymətləndirilməsi (prinsiplər və formalar);
- Təlimin təşkilində istifadə olunan üsullar;
- Dərsin mərhələlər üzrə planlaşdırma nümunələri.

Dərsin planlaşdırma nümunələrində tövsiyə olunan materialların tədris prosesində istifadə olunması konkret situasiyalardan asılı olaraq müəllim tərəfindən müəyyən olunur. Dərslər aşağıdakı mərhələlərlə aparılır:

1. Motivasiya, problemin qoyulması;
2. Tədqiqatın aparılması;
3. Məlumat mübadiləsi;
4. Məlumatın müzakirəsi və təşkili;
5. Nəticələrin çıxarılması;
6. Yaradıcı tətbiqetmə;
7. Qiymətləndirmə.

Vəsaitdə ***xüsusi qayğıya ehtiyacı olan uşaqlar*** üçün metodik yanaşma açıqlanır və dərslər aşağıdakı məşğələ növü vasitəsilə təqdim edilir:

1) Naturadan rəsm;
2) Təsviri sənət haqqında söhbət;
3) Mövzu üzrə rəsm;
4) Dekorativ-tətbiqi fəaliyyət;
5) Yapma.

Məşğələlərdə verilən məlumatlar praktik şəkildə tətbiq edilərək müəyyən həyati bacarıqlar əldə edilir. Burada Blum taksonomiyasına əsaslanan, digər fənlərlə inteqrativ xarakterli, dərsin verdiyi informasiyadan əlavə başqa bilik və bacarıqların da istifadəsini nəzərdə tutan suallar verilmişdir.

LAYİHƏ

Əvvəllər olduğu kimi, yenə də müxtəlif materiallardan istifadə ilə (onları əvəz etməklə) müəyyən bacarıqlara və elementar vərdişlərə yiyələnməyin tələblərini yerinə yetirmək vacibdir.
Şagirdlərlə praktik iş aparmaq üçün material müəllim tərəfindən seçilir. Əsas odur ki, iş eyni materiallarla aparılmasın, şagirdlərin onların hər biri ilə işləmək bacarığını inkişaf etdirmək məqsədi ilə bu materiallar daim dəyişdirilsin. Müəllim üçün vəsaitdə bu məsələlər aydın ifadə olunmuşdur, onları, sadəcə, izləməyi bacarmaq lazımdır. Ümid edirik ki, bu dərslik komplekti müəllimlərə və valideynlərə uşaqların təsviri sənətlə ünsiyyəti prosesini daha səmərəli və sevindirici etməyə imkan verəcək, eyni zamanda, şagirdlərin yaradıcılıq imkanlarının inkişafına və onlarda incəsənətə maraq oyanmasına kömək edəcək.

## İNKLÜZİV TƏLİM PRİNSİPLƏRİ

Hər bir şagird fərdi keyfiyyətlərindən asılı olaraq tədris materiallarını müxtəlif cür qavrayır. Buna baxmayaraq, təhsilin əsas məqsədi bütün təhsil alanların müəyyən ictimai status qazanması və öz sosial əhəmiyyətini təsdiq etməsidir. ***İnklüziya*** müxtəlif inkişaf səviyyəli (həmçinin, sağlamlıq imkanları məhdud olan) uşaqlarda özünə inam yaratmaqla, onlara digər yaşıdları ilə eyni məktəbdə təhsil almaq şəraitinin yaradılmasıdır.
Xüsusi təlimə tələbatı olan bu cür uşaqların diqqət və yardıma böyük ehtiyacları var. Onların qabiliyyətlərinin və irəliləyişlərinin inkişaf etdirilməsi çox vacib amildir.
İnklüziya təkcə fərqli inkişaf xüsusiyyətləri olan uşaqlara deyil, həmçinin digər xüsusiyyətləri ilə yaşıdlarından fərqlənən uşaqların da yuxarıda sadalanan məqsədlərə çatmalarına yardım edir. Onlar başqa dildə danışan, başqa mədəniyyətə malik, fərqli həyat tərzi sürən, təhsilə müxtəlif maraq və qavrama qabiliyyəti göstərən uşaqlar da ola bilər. Belə uşaqlarla işləyərkən müəllim informasiyanı onlara müxtəlif forma və variantlarda çatdırmağa çalışmalıdır.
Yeni təlim prinsipləri imkanları məhdud olan uşaqların ümumi təhsil mühitinə inteqrasiya etmələrini və ümumi proqram əsasında təhsil almalarını tələb edir.
İnklüziv təlimin əsasını hər bir şagirdə fərdi yanaşılma ideyası təşkil edir. Belə ki, təlim hər bir uşağa məxsus tələbatların ödənilməsi zəminində təşkil olunmalıdır. Hər bir şagird təlimdə uğur qazanması üçün tələb olunan psixoloji yardım, diqqət və qayğı ilə əhatə olunmalıdır.
3-cü sinif təsviri incəsənət dərslərində inklüzivliyin aşağıdakı vasitələrlə təmin olunması nəzərdə tutulur:

- Bütün dərslərdə diskussiya, müsahibə və fərdi, cütlərlə və qrup işi formalarından istifadə etməklə interaktiv təlim vasitəsilə şagirdlərin aktivliyi təmin edilir;
- Uşaqları cütlərə və qruplara ayırarkən məqsəddən asılı olaraq orada təlim nəticələri müxtəlif olan şagirdlərin iştirak etməsi nəzərə alınır;
- Müəllim fərdi və cütlərdə aparılan tədqiqat işləri zamanı fərqli inkişaf xüsusiyyətlərinə malik uşaqlara xüsusi yardım göstərir;
- Müəllim qrup işlərində fərqli inkişaf xüsusiyyətlərinə malik uşaqların ümumi diskussiya və müzakirələrə aktiv qoşulmalarını təmin edir;
- Müəllim fərqli inkişafa malik uşaqlara tapşırıqlar verərkən çalışmaların işarələrinə diqqət yetirib diferensial yanaşma prinsipini gözləyir;
- Özünü qiymətləndirmə və formativ qiymətləndirmə zamanı meyarlar elə müəyyən edilir ki, şagirdlərdə qiymətləndirmə ilə bağlı stresslərin əmələ gəlməsinin qarşısı alınsın. Fərqli inkişaf xüsusiyyətlərinə malik uşaqların qiymətləndirilməsi prosesində müəllimin onlara xüsusi münasibətinin böyük əhəmiyyəti var.



LAYİHƏ

## III SİNİF ÜZRƏ MƏZMUN STANDARTLARI

**III sinfin sonunda şagird:**

- təsviri və dekorativ sənətin növ və janrlarını nümunələrə görə fərqləndirir;
- Azərbaycanın görkəmli təsviri və dekorativ sənət nümayəndələrini (Qəzənfər Xalıqov, Ələkbər Rzaquliyev, Tokay Məmmədov, Lətif Kərimov, Toğrul Nərimanbəyov) və onların ən məşhur əsərlərini fərqləndirir;
- rənglərdən və bədii ifadə vasitələrindən istifadə edərək sadə təsviri və dekorativ kompozisiyalar qurur;
- sadə dekorativ kompozisiyaları məişət predmetlərinə tətbiq edir;
- verilmiş sadə və mürəkkəb əşyaları, məzmun və formasına, rəsm əsərlərində rəngləri emosional məna çalarlarına görə şərh edir.

**1. Cəmiyyət və təsviri incəsənət / Şagird:**

***1.1. Təsviri və dekor sənətin əsas növlərini tanıdığını nümayiş etdirir.***

1.1.1. Təsviri incəsənətin növ və janrlarını (**portret, məişət**) nümunələr əsasında fərqləndirir

1.1.2. Dekorativ-tətbiqi sənətin əsas növlərini (**ağac üzərində oyma, keramika, metal üzərində döymə**) nümunələrə görə fərqləndirir.

1.1.3.Azərbaycanın görkəmli təsviri və dekorativ sənət nümayəndələrini (**Qəzənfər Xalıqov, Ələkbər Rzaquliyev, Tokay Məmmədov, Lətif Kərimov, Toğrul Nərimanbəyov**) və onların ən məşhur əsərlərini fərqləndirir.

**2. Təsviri və dekorativ yaradıcılıq / Şagird:**

***2.1.Təsviri sənət üzrə bədii ifadə vasitələrindən istifadə bacarıqları nümayiş etdi rir.***

2.1.1. Təsvir alətləri (**rəngli karandaşlar, flomaster və sulu boyalar**) vasitəsilə sadə təsvirlər yaradır.

2.1.2. Təsviri və dekorativ kompozisiyalarda bədii ifadə vasitələrindən (**kolorit, ton, siluet**) istifadə bacarıqları nümayiş etdirir.

2.1.3. Sadə üçölçülü əşyaları naturadan nisbi dəqiqliklə təsvir edir.

2.1.4. Rənglərdən istifadə edərək sadə kompozisiyalar qurur.

***2.2. Sadə tərtibat və dizayn bacarıqları nümayiş etdirir.***

2.2.1. Sadə dekor (bəzək) kompozisiyaları məişət predmetlərinə tətbiq edir.

**3. Estetik reaksiya / Şagird:**

***3.1. Təsviri və dekorativ sənət nümunələrinə münasibət bildirir.***

3.1.1. Verilmiş sadə və mürəkkəb əşyaları məzmun və forma baxımından şərh edir.

3.1.2. Verilmiş əsərlərdə rəngləri məna çalarlarına görə şərh edir.

LAYİHƏ

## DƏRSLİK KOMPLEKTİNİN MÖVZULAR ÜZRƏ STRUKTURU

| TƏDRİS VAHİDİ | MÖVZULAR | |
|---|---|---|
| **1. TƏBİƏTİN “EMALATXANASIN”DA** | 1. | Təbiətin rəng palitrası |
| | 2. | Ağ və qara rənglər |
| | 3. | Isti və soyuq kolorit |
| | 4. | Təbiətdə kontrast rənglər |
| | 5. | Təbiətdə rəngin əhvali-ruhiyyəsi |
| **2. İNSAN TƏBİƏTDƏN ÖYRƏNİR** | 6. | Insanın yaratdığı bəzək əşyaları |
| | 7. | Xalçaları bəzəyən naxışlar |
| | 8. | Dekorativ- tətbiqi sənət |
| | 9. | Evimizdəki qab-qacaq |
| **3. SƏNƏTKARIN EMALATXANASINDA** | 10. | Formanın müxtəlifliyi |
| | 11. | Yaxın və uzaq |
| | 12. | Təsviri sənətdə kompozisiya |
| | 13. | Rəngkarlıq |
| | 14. | Qrafika |
| | 15. | Rəssam əsərlərində qara rəngin gücü |
| | 16. | Siluet |
| | 17. | Rəssam-illüstrator |
| | 18. | Portret |
| | 19. | Məişət mövzuları |
| | 20. | Mis qablarla natürmort |
| **4. ŞƏHƏRİMİZİN İNCƏSƏNƏTİ** | 21. | Memarlıq inciləri |
| | 22. | Rəssam və teatr |
| | 23. | Küçələrimizin bəzəyi-fənərlər |
| | 24. | Küçədəki heykəllər |
| | 25. | Park, bağ, bulvar |
| | 26. | Muzeylər |

LAYİHƏ

**FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞMA CƏDVƏLİ VƏ İLLİK İŞ PLANI**

Cədvəldə verilən illik planlaşdırma nümunəsi həftədə 1 saat olmaqla ildə 33 həftəyə və ya 33 saata nəzərdə tutulmuşdur. Müəllim mövzulara şəxsi münasibətindən asılı olaraq tövsiyə edilən illik planlaşdırma nümunəsinə müəyyən dəyişikliklər edə bilər.

| Tədris vahidi və mövzular | | | Məşğələ növləri | Cəmiyyət və təsviri incəsənət | | | Təsviri və dekorativ yaradıcılıq | | | | | Estetik reaksiya | | Saat |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | 1.1. | | | 2.1. | | | | 2.2. | 3.1. | | |
| | | | | 1.1.1. | 1.1.2. | 1.1.3. | 2.1.1. | 2.1.2. | 2.1.3. | 2.1.4. | 2.2.1. | 3.1.1. | 3.1.2. | |
| 1. "TƏBİƏTİN EMALATXANASIN"DA | 1. | 1. Təbiətin rəng palitrası | N.r. | | | | + | | | + | | + | | 1 |
| | 2. | 2. Ağ və qara rənglər | N.r. | | | | + | | + | | | + | | 1 |
| | 3. | 3. İsti və soyuq kolorit | N.r. | | | | | + | + | | | | + | 1 |
| | 4. | 4. Təbiətdə kontrast rənglər | N.r. | | | | + | + | | | | + | | 1 |
| | 5. | 5. Təbiətdə rəngin əhvali-ruhiyyəsi | M.ü.r. | | | | | + | | + | | + | | 1 |
| | 6. | KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ № 1 | | | | | | | | | | | | 1 |
| 2.İNSAN TƏBİƏTDƏN ÖYRƏNİR | 7. | 6. İnsanın yaratdığı bəzək əşyaları | D-t. f. | | | | | + | | + | | + | | 1 |
| | 8. | 7. Xalçaları bəzəyən naxışlar | D-t. f. | | | + | + | + | | | | | | 1 |
| | 9. | 8. Dekorativ-tətbiqi sənət | D-t. f. | | + | | + | + | | | | | | 1 |
| | 10. | 9. Evimizdəki qab-qacaq | Yapma | | + | | | | | | + | + | | 1 |
| | 11. | KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ № 2 | | | | | | | | | | | | 1 |
| 3. SƏNƏTKARIN EMALATXANASINDA | 12. | 10. Formanın müxtəlifliyi | N.r. | + | | | + | | | | | + | + | 1 |
| | 13. | 11. Yaxın və uzaq | M.ü.r. | | | | + | | + | + | | | | 1 |
| | 14. | 12. Təsviri sənətdə kompozisiya | N.r. | | | | + | | + | | | + | | 1 |
| | 15. | 13. Rəngkarlıq | M.ü.r. | | | + | + | | | + | | | + | 1 |
| | 16. | KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ № 3 | | | | | | | | | | | | 1 |
| | 17. | 14. Qrafika | M.ü.r. | | | | + | + | | | | + | | 1 |
| | 18. | 15. Rəssam əsərlərində qara rəngin gücü | M.ü.r. | + | | + | + | + | | | | | | 1 |
| | 19. | 16. Siluet | D-t.f. / Apl. | | | | + | + | + | | | | | 1 |
| | 20. | 17. Rəssam-illüstrator | M.ü.r. | | | + | + | + | | + | | | | 1 |
| | 21. | KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ № 4 | | | | | | | | | | | | |
| | 22. | 18. Portret | N.r. | + | | | + | + | + | | | | | 1 |
| | 23. | 19. Məişət mövzuları | M.ü.r. | + | | | + | + | | | | | | 1 |
| | 24. | 20. Mis qablarla natürmort | N.r. | | | | + | + | + | | + | | | 1 |
| | 25. | KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ № 5 | | | | | | | | | | | | 1 |
| 4. ŞƏHƏRİMİZİN İNCƏSƏNƏTİ | 26. | 21. Memarlıq inciləri | D-t.f. / Kon. | | | | | + | | | + | + | | 1 |
| | 27. | 22. Rəssam və teatr | D-t. f. | | | | + | + | | | | + | | 1 |
| | 28. | 23. Küçələrimizin bəzəyi — fənərlər | M.ü.r. | | | | + | | | | + | + | | 1 |
| | 29. | 24. Küçədəki heykəllər | Yapma | + | | + | + | | | | | | | 1 |
| | 30. | 25. Park, bağ, bulvar | M.ü.r. | | | | + | | | + | | + | | 1 |
| | 31. | 26. Muzeylər | T.s.h.s. | + | | | | | | | | + | | 1 |
| | 32. | KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ № 6 | | | | | | | | | | | | 1 |
| | 33. | Ümumiləşdirici dərs | | | | | | | | | | | | 1 |

Təsviri incəsənət dərsləri aşağıdakı məşğələ növləri vasitəsilə təqdim edilir: *mövzu üzrə rəsm, naturadan rəsm, dekorativ-tətbiqi fəaliyyət, yapma, təsviri sənət haqqında söhbət.*

LAYİHƏ

M.ü.r. – Mövzu üzrə rəsm; T.s.h.s. – Təsviri sənət haqqında söhbət; D-t. f. – Dekorativ-tətbiqi fəaliyyət; N.r. – Naturadan rəsm, Apl. – Aplikasiya, Kon. – Konstruksiya.

***QEYD:*** *Müəllim illik planlaşdırma üzrə nəzərdə tutulmuş kiçik summativ qiymətləndirmələri "Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması barədə təlimat"ın 6.6 bəndinə uyğun olaraq özünün məqsədəuyğun hesab etdiyi vaxtda ayrıca dərs saatında, yaxud dərs saatının bir hissəsində apara bilər.*

## FƏNLƏRARASI İNTEQRASİYA CƏDVƏLİ

| TƏDRİS VAHİDİ VƏ MÖVZULAR | | | FƏNNİN ADI VƏ ALT STANDARTIN NÖMRƏSİ |
|---|---|---|---|
| 1. TƏBİƏTİN "EMALATXANASIN"DA | 1. | Təbiətin rəng palitrası | İnf.: 3.3.2.; 2.2.3.; A-d.:1.1.1.; Tex.: 4.1.1.; H-b.: 1.2.3. |
| | 2. | Ağ və qara rənglər | İnf.: 1.1.1.; 2.2.3.; 3.3.2.; H-b.: 1.2.3.; 3.1.1.; Tex.: 4.1.1.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5. |
| | 3. | Isti və soyuq kolorit | Tex.: 1.1.2.; 1.3.3.; A-d.: 1.1.2. |
| | 4. | Təbiətdə kontrast rənglər | İnf.: 1.1.1.; 3.3.2.; H-b.: 1.1.2. |
| | 5. | Təbiətdə rəngin əhvali-ruhiyyəsi | İnf.: 1.1.1.; H-b.: 1.1.2.; 3.1.1.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5. |
| 2. İNSAN TƏBİƏTDƏN ÖYRƏNİR | 6. | Insanın yaratdığı bəzək əşyaları | İnf.: 1.1.1.; 3.3.2.; H-b.: 1.1.2.; A-d.: 2.2.4. |
| | 7. | Xalçaları bəzəyən naxışlar | İnf.: 1.1.1.; H-b.: 1.1.2.; 3.1.1.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5. |
| | 8. | Dekorativ- tətbiqi sənət | H-b.: 2.1.2.; 2.1.3; Riy.:3.1.1.;4.1.1. |
| | 9. | Evimizdəki qab-qacaq | H-b.: 2.1.2.; 2.1.3.; Tex.: 1.3.3.; 4.1.1.; H-b.: 1.2.3.; İnf.: 2.2.3. ; Riy.:3.2.1.;3.2.3. |
| 3. SƏNƏTKARIN EMALATXANASINDA | 10. | Formanın müxtəlifliyi | Tex.: 4.1.1.; H-b.: 1.2.3.; İnf.: 2.2.3.; 3.3.2. ; Riy.:3.2.1.; 3.2.3. |
| | 11. | Yaxın və uzaq | İnf.: 1.1.1.; 3.3.2.; H-b.: 1.1.2; Riy.:3.1.2. |
| | 12. | Təsviri sənətdə kompozisiya | İnf.: 3.3.2.; H-b.: 3.1.1.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5. |
| | 13. | Rəngkarlıq | Tex.: 4.1.1.; H-b.: 1.2.3.; İnf.: 2.2.3. |
| | 14. | Qrafika | İnf.: 1.1.1.; 3.1.1.; H-b.: 1.1.2.; 2.1.2.; 2.1.3.; 3.1.1.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5. |
| | 15. | Rəssam əsərlərində qara rəngin | A-d.: 1.1.1.; 1.2.1.; 2.2.5. |
| | 16. | Siluet | Tex.: 4.1.1.; H-b.: 1.2.3.; İnf.: 2.2.3. |
| | 17. | Rəssam-illüstrator | Tex.: 4.1.1.; H-b.: 1.2.3.; 3.1.1.; İnf.: 2.2.3.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5. |
| | 18. | Portret | H-b.: 2.1.2.; 2.1.3.; 3.1.1.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5. |
| | 19. | Məişət mövzuları | İnf.: 3.3.2.; H-b.: 3.1.1.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5. |
| | 20. | Mis qablarla natürmort | A-d.: 1.1.1.; 1.2.1.; 2.2.5. |
| 4. ŞƏHƏRİMİZİN İNCƏSƏNƏTİ | 21. | Memarlıq inciləri | Tex.: 1.3.3.; H-b.: 3.1.1.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5.; Riy.:3.1.2. |
| | 22. | Rəssam və teatr | H-b.: 2.1.2.; 2.1.3.; 3.1.1.; İnf.: 3.3.2.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5. |
| | 23. | Küçələrimizin bəzəyi-fənərlər | İnf.: 1.1.1.; 2.2.3.; H-b.: 1.1.2.; 1.2.3.; 3.1.1.; Tex.: 4.1.1.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5. |
| | 24. | Küçədəki heykəllər | A-d.: 1.1.2.; Tex.: 1.3.4.; Riy.:3.1.2.; 4.2.2. |
| | 25. | Park, bağ, bulvar | H-b.: 2.1.2.; 2.1.3.; 3.1.1.; İnf.: 3.3.2.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.3. |
| | 26. | Muzeylər | İnf.: 1.1.1.; H-b.: 1.1.2. |

*A-d. – Azərbaycan dili, Riy. – Riyaziyyat, H-b. – Həyat bilgisi, Tex. – Texnologiya, Mus. – Musiqi, İnf. – İnformatika.*

LAYİHƏ

## ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏ PRİNSİPLƏRİ VƏ ÜSULLARI

Təlim prosesinin ən mühüm mərhələlərindən biri qiymətləndirmədir. Hər bir fənn üzrə təlim prosesinin müxtəlif mərhələlərində aparılan qiymətləndirmə şagirdlərdə mənfi emosiya doğurmamalıdır. O cümlədən təsviri incəsənət fənni üzrə əldə edilən bilik və bacarıqların qiymətləndirilməsində bir yaradıcılıq, şəffaflıq, yüksək estetik zövq və daimi yüksəlişə, ümumbəşəri dəyərlərə köklənmiş müsbət emosiya hiss olunmalıdır. Bu prosesdə müəllim şagirdin səhvlərini deyil, daha çox əldə etdiyi nailiyyətləri, keyfiyyət göstəricilərini və qazandığı dəyərləri vurğulamalıdır. Müəllim təlim prosesində müəyyənləşdirilmiş hər hansı bir səhvin ən asan həlli yollarını tapmaqda onlara dəstək verməklə, stimul yaratmalıdır.

Fənn kurikulumlarına görə, qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir, onu idarə edən vacib amil kimi meydana çıxır. Məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları müəyyənləşdirilmişdir. Məktəbdaxili qiymətləndirmə *diaqnostik*, *formativ* və *summativ* qiymətləndirmələrdən ibarətdir.

**Diaqnostik qiymətləndirmə** dərs ilinin və ya fənn üzrə tədris resurslarında nəzərdə tutulmuş hər bölmənin əvvəlində aparılmaqla şagirdlərin bilik və bacarıqlarının, o cümlədən maraq və motivasiyasının ilkin qiymətləndirilməsi məqsədi ilə aparılır. Diaqnostik qiymətləndirmədə tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur. Bu qiymətləndirmənin nəticəsi ilə bağlı müvafiq yazılı qeydlər (nəticələrin qısa təsviri) təhsilalanın fərdi qovluğunda saxlanılır.

Diaqnostik qiymətləndirmədə istifadə olunan metod və vasitələr: müsahibə; söhbət; müşahidə; tapşırıqlar; valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq.

**Formativ qiymətləndirmə** təhsilalanın hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsinə yönəlmiş fəaliyyətlərini izləmək, bu prosesdə onun qarşısına çıxan çətinlikləri müəyyən edib onları aradan qaldırmaq məqsədi ilə aparılır. Formativ qiymətləndirmə şagird nailiyyətlərinin monitorinqi vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsinə xidmət edir. Müəllim formativ qiymətləndirmə vasitəsilə tədris prosesini tənzimləyir, şagirdlər tərəfindən məzmunun mənimsənilməsinə kömək edir. Formativ qiymətləndirmə zamanı tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur.

Formativ qiymətləndirmədə istifadə olunan metod və vasitələr:

| Üsullar | Vasitələr |
|---|---|
| Müşahidə | Müşahidə vərəqləri |
| Şifahi sual-cavab | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi |
| Tapşırıqvermə | Çalışmalar |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Oxu | Dinləmə üzrə qeydiyyat vərəqi |
| | Oxu üzrə qeydiyyat vərəqi |
| Yazı | Yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli |
| Rubrik | Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası |
| Şifahi və yazılı təqdimat | Meyar cədvəli |
| Test | Test tapşırıqları |
| Özünüqiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri |

LAYİHƏ

## TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİ ÜZRƏ FORMATİV QİYMƏTLƏNDİRMƏ ZAMANI İSTİFADƏ OLUNAN ÜSUL VƏ VASİTƏLƏR

| FƏALİYYƏT NÖVLƏRİ | ÜSULLAR | VASİTƏLƏR |
|---|---|---|
| **Müşahidəetmə** | **Müşahidə** (müəllim şagirdlərin fəaliyyətini müşahidə edərək qiymətləndirir). | **Müşahidə vərəqi** (şagirdin təlim fəaliyyətindən gözlənilən nəticəni əks etdirən meyarların yazıldığı cədvəl):<br>natura, təbiət, interyer, meyvə, tərəvəz, məişət əşyaları və s.<br>Təsviri incəsənət əsərləri (rəsm və heykəltəraşlıq nümunələri).<br>Dekorativ-tətbiqi sənət nümunələri (ağac üzərində oyma, xalçaçılıq, bədii tikmə, parça, misgərlik, zərgərlik, keramika, milli geyimlər). |
| **Təsvirlərin təhlili** | **Tapşırıqvermə** | **Təsviri sənət əsərləri, rəsm işləri** |
| | Nəzəri tapşırıqlar | |
| | Sənət əsərlərinin izahı, müqayisəsi, şərhi, təhlili | Təsviri (reproduksiya, fotoşəkil və s.) və dekorativ sənət əsərlərinə (ağac üzərində oyma, xalçaçılıq, bədii tikmə, parça, misgərlik, zərgərlik, keramika, milli geyimlər) münasibət |
| | Praktiki tapşırıqlar: | |
| | ***Məzmun*** | ***İşləmə texnikası*** |
| | səth üzərində | rəsm, rəngkarlıq, aplikasiya |
| | həcmli (model) | kağız, karton, plastilin, gil, maket |
| | 1. rəsm çəkmək (naturadan rəsm, mövzu üzrə rəsm, dekorativ fəaliyyət və s.);<br>2. dekorativ-tətbiqi fəaliyyət (texnikalar: aplikasiya, panno, kollaj, dekupaj, vitraj, mozaika, batika, tikmə, hörmə, keramik məhsullar və s.);<br>3. yapma (relyefli və ya həcmli);<br>4. kompüter qrafikası | • karandaş, flomaster, diyircəkli və rəngli qələm, tuş, kömür, qrafit, pastel tabaşir, rəngli kağız, karton, qutu, parça, boya (quaş, akvarel, akril, yağlı boya və s.) və s.;<br>• təbiət materialları (düyü, buğda, şam qozası, ağac, budaq, toxum, yarpaq və s.);<br>• plastilin, gil, gips, duzlu xəmir;<br>• qrafik redaktor (Paint və s.) |
| **Sorğu** | Şifahi sual-cavab | Təsviri incəsənət əsərləri, ətraf aləm, qayda və anlayışlar üzrə sual-cavablar, təhlil, müzakirə üzrə ***qeydiyyat vərəqi*** |
| **Təqdimat** | Şifahi, yazılı, rəmzi, təsviri, kompüterdə təqdimatlar | Şifahi cavablar;<br>bədii əsərlərə esselərin yazılması;<br>rəmzi təsvirlər (işarələr);<br>bədii yaradıcılıq və əl işləri, slayd vasitəsilə təqdimat; layihələr |
| **Qiymətləndirmə** | Qrup işlərinin qiymətləndirilməsi, özünüqiymətləndirmə, rubrik üzrə qiymətləndirmə, qrafik, sxem, şkala, test və s. | Qiymətləndirmə vərəqləri, qiymətləndirmə sxemləri, meyarlar cədvəli, şkalalar, sxemlər, test tapşırıqları və s. |



LAYİHƏ

**Qrup diskussiyaları üçün qrupun özünüqiymətləndirməsi**

Şagirdlər qruplar şəklində işləyərkən dərsin sonunda müəllim tərəfindən onlara öz işlərini qiymətləndirmək üçün vaxt verilir. Müəllim şagirdlərə öz işlərini qiymətləndirmək üçün müəyyən istiqamətlər verə bilər.

| № | Meyarlar | Həmişə | Bəzən | Heç vaxt |
|---|---|---|---|---|
| 1 | Müzakirəyə başlamazdan əvvəl tapşırığı dəqiqləşdiririk. | | | |
| 2 | Tapşırıqdan kənara çıxmırıq. | | | |
| 3 | Hamı fikrini söyləyir. | | | |
| 4 | Bir rəyə gələ bilirik. | | | |
| 5 | Qrupda yerinə yetiriləcək işləri aramızda düzgün bölürük. | | | |
| 6 | İşi verilən vaxt ərzində yerinə yetiririk. | | | |

Şagirdlər qrup daxilində öz işlərini qiymətləndirdikdən sonra bu işin səmərəsini necə artırmaq barədə müəllimlə müzakirə apara bilərlər.

**Qrup fəaliyyətinin qiymətləndirilməsi**

Şagirdləri qiymətləndirmək üçün müəllim özü də şagirdlərlə birlikdə meyarlar üzrə qrup qiymətləndirməsini həyata keçirə bilər. Bunun üçün o, tədqiqat işinə başlamazdan əvvəl şagirdlərlə birlikdə qrupun fəaliyyətini qiymətləndirmək üçün meyarlar işləyib hazırlamalıdır. Qiymətləndirmə ballarını ulduzlardan, müxtəlif işarələrdən, simvollardan (smayliklərdən) istifadə etməklə göstərmək olar. Nəticədə isə hər qrupun topladığı ulduz, simvol (smayliklər) sayılır.

| QRUP | MEYARLAR | | | | | |
|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əməkdaşlıq | Tapşırıq tam və uyğun yerinə yetirilib | Əlavələr | Tərtibat | Vaxtında yerinə yetirilib |
| I | | | | | | |
| II | | | | | | |
| III | | | | | | |
| IV | | | | | | |

**Toplum halında qiymətləndirmə**

Toplum halında qiymətləndirmə şagirdlərin bilik və bacarıqlarını ən obyektiv şəkildə qiymətləndirməyə imkan verir. Lakin bu üsul digər qiymətləndirmə formalarına nisbətən mürəkkəb olduğu üçün daha çox səy tələb edir. Bunun üçün hər şagirdə bir qovluq ayrılır. Qiymətləndiriləcək işlər müəllim və ya şagirdin özü tərəfindən bu qovluğun içinə yığılır. Müəllim və şagirdlər qiymətləndiriləcək materialları müəyyən etdikdən sonra şagirdlərin qoyulmuş məqsədə çatmaq səviyyəsini müəyyən etmək üçün bu materiallar üzrə qiymətləndirmə meyarları barədə razılığa gəlirlər. Bu materiallar dərsin mövzuları üzrə çalışma və tapşırıqlardan, müxtəlif testlərdən, layihələrdən, tədqiqat işlərindən, ev tapşırıqlarından, özünüqiymətləndirmə formalarından, dərsdənkənar praktik tapşırıqlardan, şagirdlərin formalaşdırdığı suallar toplusundan və s. ibarət ola bilər. Bu, toplum vasitəsilə summativ qiymətləndirmə adlanır.

Müvafiq qiymətləndirmə vasitələrinə aid nümunələr vəsaitin arxasında verilmişdir.

Müəllim üçün metodik vəsaitdə bir sıra qiymətləndirmə üsullarından istifadə olunması tövsiyə edilir. Müəllim bu üsul və formalardan öz məqsədinə uyğun şəkildə istifadə edib, yenilərini yarada bilər.

Formativ qiymətləndirmənin nəticəsi ilə bağlı "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə və "Məktəbli kitabçası"nda müvafiq yazılı qeydlər aparılır. Müəllim dərs ilinin yarımillərinin sonunda "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndəki qeydlər əsasında təhsilalanın yarımillik fəaliyyətinin qısa təsvirini hazırlayır və həmin təsvir təhsilalanın ümumi təhsil müəssisəsindəki fərdi qovluğunda saxlanılır.

Formativ qiymətləndirmə fənnin məzmun standartları üzrə təlim məqsədləri əsasında müəyyənləşdirilmiş qiymətləndirmə meyarlarına görə aparılır. Tədris prosesində formativ qiymətləndirmə aparmaq üçün rubriklərdən istifadə oluna bilər.



LAYİHƏ

Formativ qiymətləndirmə aparmaq üçün rubriklərdən istifadə olunur. Rubrik xüsusi növ qiymətləndirmə şkalasıdır. O, iki əsas suala cavab verir:

- "Mən nəyi qiymətləndirməliyəm?" (obyekt, məzmun, aspektlər, tərəflər, xüsusiyyətlər);
- "Aşağı, orta, yuxarı nailiyyət səviyyələrinin xüsusiyyətlərini necə bilmək olar?"

Müəllim qiymətləndirmə meyarlarına uyğun dörd səviyyəli rubriklər (I-IV səviyyə) hazırlayır. Rubrik vasitəsilə qiymətləndirmə nəticəsində şagirdlərin keçilmiş materialı necə mənimsədiklərini, buraxdıqları xarakterik səhvləri müəyyən etmək, növbəti dərsdə qarşıya çıxa biləcək problemlər üzərində görüləcək işləri dəqiqləşdirmək olar.

Qiymətləndirmə şkalası nailiyyət səviyyələrinə qiymət (bal) verilməsi üçün mexanizmdir. Rubriklərin hazırlanması üçün əvvəlcə dərsin məqsədləri müəyyən olunmalıdır. Qiymətləndirmənin formalarından biri seçilməlidir (diaqnostik, formativ və ya summativ).

**Səviyyələr üzrə təsvirlərin hazırlanması üçün təlimat:**

1. Qısa və sadə tərzdə, şagirdin anlayacağı sadə dildən istifadə edilməlidir.
2. Müqayisəli və ya normativ dildən fərqli olaraq deskriptiv dildən istifadə edin. Pis, orta, kafi, yaxşı, əla kimi qeyri-müəyyən deskriptorlardan uzaq durulmalıdır.
3. Səviyyə deskriptorları müşahidə oluna bilən davranışlar və ya nəticənin xüsusiyyətləri baxımından mümkün dərəcədə ifadə edilməlidir.
4. Qiymətləndirmə səviyyələri arasında sərhəd aydın olmalıdır, üst-üstə düşməməlidir.
5. Şkala şagird nailiyyətləri intervalını tam əhatə etməlidir.
6. Təsvirlərin məzmunu nailiyyət səviyyələri üzrə eyni formalı tərtib edilməlidir.
7. Fəaliyyət səviyyələri bütün aspektlər üzrə uyğun olmalıdır (məsələn: bir aspekt üzrə "4" qiyməti digər aspekt üzrə "4" qiyməti ilə müqayisə oluna bilməlidir).
8. Əvvəlcə "ən yüksək", sonra "ən aşağı" səviyyələr, sonda "aralıq" səviyyələr təsvir edilməlidir.
9. Ən yüksək səviyyə: yüksək tələbkarlığa malik, bununla yanaşı, real olmalıdır.
10. Ən aşağı səviyyə: yalnız çatışmazlıqları deyil, həmçinin minimal nailiyyətin xüsusiyyətlərini əks etdirməlidir.

Vəsaitdə hər bir dərsin sonunda təlim nəticələrinə uyğun formativ qiymətləndirmə meyarları göstərilmişdir.

**Summativ qiymətləndirmə** hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsi ilə bağlı təhsilalanların əldə etdiyi nailiyyətlərin müəyyən olunması məqsədilə aparılır. Summativ qiymətləndirmədə tapşırıqvermə üsulundan istifadə olunur. III sinifdə böyük summativ qiymətləndirmə aparılmır.

Kiçik summativ qiymətləndirmə III sinifdə təsviri incəsənət fənni üzrə hər yarımildə 3 dəfədən az 6 dəfədən çox olmamaqla müəllim tərəfindən aparılır. Fənn üzrə kiçik summativ qiymətləndirmələrin aparılacağı tarix haqqında məlumat tədris ilinin birinci həftəsi ərzində fənn müəllimi tərəfindən sinifdə təhsilalanlara elan olunur. Kiçik summativ qiymətləndirmə həmin fənnin tədris olunduğu 1 (bir) dərs saatı ərzində aparılır.

Kiçik summativ qiymətləndirmə 100 ballıq şkala ilə ölçülür.

Summativ qiymətləndirmədə istifadə olunan qiymətləndirmə vasitələri (suallar) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 yanvar tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nın tələbləri nəzərə alınmaqla hazırlanır. Suallar hər bir sinif və fənn üzrə 4 səviyyədə tərtib edilir. 1-ci səviyyə ən aşağı, 4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir. Suallar müxtəlif mürəkkəblik səviyyəsində hazırlanır. 1-ci və 2-ci səviyyəyə təhsilalanların əksəriyyətinin cavablandıra biləcəyi suallar aid edilir. 3-cü və 4-cü səviyyəyə daha hazırlıqlı şagirdlərin cavablandıra biləcəyi suallar aid edilir. Səviyyələr üzrə sualların qiymətləndirmə ballarının 100 ballıq şkalada bölgüsü aşağıdakı kimi nəzərdə tutulur:

– 1-ci səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir;
– 2-ci səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 3-cü səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 4-cü səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir.



LAYİHƏ

Təhsilalanın summativ qiymətləndirmədə topladığı ballar və onların uyğunlaşdırıldığı qiymət summativ qiymətləndirmənin aparıldığı tarixdə sinif jurnalında və "Məktəbli kitabçası"nda yazılır.

Tədris vahidlərinin sonunda isə summativ qiymətləndirmə vasitələri verilmişdir. Qiymətləndirmə dərslərində müəllim vəsaitdəki vasitələrdən yararlana bilər və ya bu nümunələr əsasında yeni qiymətləndirmə vasitəsini özü tərtib edə bilər. Kiçik summativ qiymətləndirmə vasitələrinə aid nümunələr vəsaitin sonunda verilmişdir.

**Yarımillik və illik qiymətlərin hesablanması**

Təhsilalanların kiçik summativ qiymətləndirmədə topladığı ballar əsasında yarımillik ballar hesablanır. II sinifdə yarımillik bal kiçik summativ qiymətləndirmələrdə toplanmış ballar əsasında aşağıdakı kimi hesablanır:

$$Y= (ksq_1+ ksq_2+\ldots+ ksq_n ) / n$$

$Y$- təhsilalanın yarımillik üzrə balını;
$ksq_1$, $ksq_2$,... $ksq_n$ hər kiçik summativ qiymətləndirmədə toplanmış balların miqdarını;
$n$ – kiçik summativ qiymətləndirmələrin sayını bildirir.

## İSTİFADƏ OLUNAN ÜSULLAR

### BİBÖ cədvəlindən istifadə

BİBÖ cədvəlindən istifadə şagirdlərə əvvəlki bilik və təcrübə, yeni biliklər arasında əlaqə yaratmağa imkan verməklə şagirdin düşünməsini optimallaşdırır. Bu üsulu tətbiq etmək üçün müəllim şagirdlərlə birlikdə yazı lövhəsində aşağıdakı qaydada cədvəl çəkir.

| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
|---|---|---|
| • | ? | • |
| • | ? | • |
| • | ? | • |

Mövzuya uyğun olaraq şagirdlər "Bilirik" qrafasında ümumi razılıqla əldə olunan fikirləri yazırlar. Suallar isə vahid razılıq əldə olunmayan detallardan, dəqiq müəyyənləşməmiş mövqelərdən və fikir ayrılığından irəli gəlir. Həmin sualları "İstəyirik bilək" qrafasında yerləşdirirlər.

Mövzunu oxuyan zaman həmin sualları yaddaşlarında möhkəm saxlayırlar. Şagirdlər mətni oxuyub qurtardıqdan sonra onların diqqəti "İstəyirik bilək" qrafasında sadalanan sualların üzərinə qaytarılır. Oxu zamanı sualların hansına cavab tapdıqlarını aydınlaşdırırlar və bu cavabları "Öyrəndik" qrafasına yazırlar. Cavabsız qalan sualları isə müəllimin göstərişi ilə şagirdlər müxtəlif yollarla cavablandırırlar.

Təsviri incəsənət dərsinin məqsədindən asılı olaraq, BİBÖ cədvəlinin "Öyrəndik" hissəsini dolduran zaman oraya sözlər, ifadələr deyil, öyrəndiklərini əks etdirən rəsm çəkmək olar.

### ZİQZAQ üsulu

Ziqzaq üsulu qısa vaxt ərzində mövzunu əhatəli keçməyə imkan verir. Bu üsulu tətbiq etmək üçün şagirdlər doğma qruplara bölünürlər. Sonra qrupdakı hər bir şagirdə təklif olunur ki, hərəsi bir rəqəm söyləməklə saysınlar. Öyrəniləcək mətnin həcmindən asılı olaraq, o, müəyyən hissələrə ayrılır (məsələn, 4 hissəlidirsə, 1-dən 4-ə kimi sayırlar). Beləliklə, hər bir şagirdin söylədiyi rəqəm onun nömrəsi olacaqdır.

Sonra şagirdlərin diqqəti öyrəniləcək mətnə yönəldilir. Qısa şəkildə mövzunun adı və məzmunu müzakirə edilir. Müəllim izah edir ki, əsas vəzifə mətni araşdırmaq, məğzinə varmaqdır.

Məşğələnin sonunda hər bir qrup mətni tam başa düşməlidir. Şagirdlərin diqqətinə çatdırılır ki, mətn dörd hissəyə bölünmüşdür. Hər bir qrupdakı 1 nömrəli iştirakçı birinci hissə, 2 nömrəli iştirakçı ikinci hissə (3 və 4 nömrəli iştirakçılar da bu qayda ilə) üçün cavabdeh olacaqlar. Sonra eyni nömrəli oyunçular bir yerə toplaşırlar. İzah olunur ki, 1, 2, 3, 4 nömrəli şagirdlərdən ibarət olan



LAYİHƏ

qruplar indi **ekspert qruplar** adlanır.

"ZİQZAQ" sxemi




Onların vəzifəsi mətndən öhdələrinə düşən hissənin məzmununu diqqətlə öyrənməkdən ibarətdir. Onlar həmin hissəni oxumalı, tərəfdaşlar kimi onun məzmununu müzakirə etməli və materialı lazımınca qavradıqlarına əmin olmalıdırlar. Sonra onlar "doğma" qruplarına qayıdan zaman mətnin tədqiq etdikləri hissəsini həmin qrupun üzvlərinə hansı qaydada təqdim edəcəklərini qərarlaşdırmalıdırlar. "Ekspert" qrupların işi başa çatdıqdan sonra onlar öz "doğma" qruplarına qayıdaraq öyrəndiklərini, materialın məzmununu həmkarlarına izah edirlər. Nəticədə bütün qrup üzvləri mətnin məzmununu tam mənimsəməlidirlər.

## ESSE

Esse hər hansı problem haqqında şagirdlərin müstəqil düşüncələrini əks etdirən sərbəst yazı formasıdır və dərsin istənilən mərhələsində aparıla bilər. Bu yazı qısa vaxt ərzində yerinə yetirilir. Şagird lakonik və intensiv şəkildə mövzu üzrə öz mülahizələrini sərbəst yazır. Əgər biri nə yazmaq haqqında bilmirsə, yaza bilər: "Bilmirəm nə haqqında yazım". Əsas odur ki, dayanmadan, yazdığını oxumadan, düzəliş etmədən yazsınlar. Esse öyrənilən mövzuya dair biliklərin yekunlaşdırılmasına və şagirdlərin beynində nə baş verdiyi haqqında müəllimin xəbərdar olmasına kömək edir. Onun müddəti beş və on dəqiqəlikdir. Sonra müəllim yazılardan bəzilərini oxuda bilər və yaxud onları toplayıb başqa vaxt tanış ola bilər.

## VENN diaqramı

Venn diaqramı cisim və ya hadisələri müqayisə etmək və onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirməyə kömək edir. Bu diaqram nisbətən üst-üstə düşən iki və ya daha artıq çevrə üzərində qurulur. Ondan ümumi və fərqli cəhətləri olan iki aspektin müqayisəsi zamanı istifadə olunur. Çevrələrin üst-üstə düşdüyü hissədə nə isə yazmaq üçün kifayət qədər yer olmalıdır. Həmin yerdə ideyaların ümumi cəhətləri qeyd olunur. Sol və sağ tərəfdəki dairənin hissələrində isə yalnız onlara xarakterik olan cəhətlər göstərilir.

**Nümunə:** Bayramları müqayisə etmək: – Yeni il və Novruz bayramı.




## ŞAXƏLƏNDİRMƏ

Şaxələndirmə şagirdləri mövzu haqqında açıq və sərbəst düşünməyə sövq edən, əvvəlki təcrübəni nəzərdən keçirən pedaqoji üsuldur. O, yalnız fikirlərarası əlaqələr barədə düşünməyə təkan verən birləşmələr yaradır. Bu, təfəkkürün beynimizin necə fəaliyyət göstərməsi ilə daha sıx



LAYİHƏ

əlaqədə olan, qeyri-xətti formasıdır. Şaxələndirmədən mövzu ətraflı öyrənilməmişdən əvvəl, təfəkkürə təkan vermək üçün istifadə edilir. O həmçinin öyrənilənləri yekunlaşdırma vasitəsi, yeni assosiasiyaların meydana gəlməsinin stimullaşdırılması üsulu və ya yeni təsəvvürlərin qrafik təsviri metodu kimi istifadə oluna bilər. Şaxələndirmə mərhələləri asan, yaddaqalan və sadədir.

- Mərkəzi sözü və ya ifadəni vərəqin, yazı taxtasının mərkəzinə yazın.
- Seçilmiş mövzu ilə əlaqəli ağlınıza gələn söz və ya ifadələri yazmağa başlayın.
- Fikirlər yada düşüb yazıldıqca, onların arasında əlaqəli görünənləri xətlərlə birləşdirməyə başlayın.
- Vaxt bitənə və ya bütün fikirləriniz tükənənə qədər ağlınıza gələn mümkün qədər çox fikir yazın.

## T–sxemlər

Bu təsvirdən eyni bir konsepsiyanın iki aspektini müqayisə etmək üçün istifadə olunur. Məsələn, orta məktəblərin şagirdləri nədənsə Esse yazmağa başlayarkən əvvəlcə aşağıda göstərilən qaydada müsbət və mənfi aspektlərinin siyahısını tərtib edə bilərlər.

| **T–sxem** | |
|---|---|
| Müsbət aspektlər | Mənfi aspektlər |
| | |

## BEYİN HƏMLƏSİ

Şagirdlər fərdi şəkildə və yaxud cüt-cüt olmaqla mövzu üzrə onlara məlum olanların hamısını sadalayırlar. Bu zaman fikirlərin düzgün olub-olmamasının o qədər də əhəmiyyəti yoxdur. Əsas məqsəd odur ki, şagird mövzu haqqında düşünməyə başlasın. Bu üsul problemin həlli yollarının araşdırılmasını öyrədir və müstəqil düşüncəni inkişaf etdirir.

## KONSEPTUAL CƏDVƏL

Konseptual cədvəl üç və ya daha çox məsələ, yaxud cəhətin müqayisəsini nəzərdə tutur. Cədvəlin tərtibi: şaquli qrafada müqayisə ediləcək obyektlər, üfüqi qrafalarda isə onların müqayisə olunacaq xüsusiyyətləri və özəllikləri qeyd edilir. Nümunə:

| **Rəssamın adı** | **Yaradıcılıq dövrü** | **Əsərləri** | **Əsərləri əsasən təsviri incəsənətin hansı növünə aiddir?** |
|---|---|---|---|
| Ə.Hacıyev | | | |
| M.Mirqasımov | | | |
| N.İsmayılov | | | |
| B.Mirzəzadə | | | |

## AÇAR SÖZLƏR

Bu üsul yeni anlayışların müstəqil olaraq çıxarılmasına xidmət edir. Əvvəlcə mövzuya aid olan dörd və ya beş söz verilir. Həmin sözlərə uyğun olaraq, onlardan “doğan” söz tapılır. Bu, şagirdlərin mövzu haqqında düşünmələrinə kömək edir.

## QRUP MÜZAKİRƏSİ

Müəyyən mövzu verilir. Onun haqqında müxtəlif mülahizələri ortaya çıxarmaq məqsədilə mövzu ətrafında bütün qrup müzakirə aparır və hər bir qrup üzvünün fikrinə hörmətlə yanaşılır.

## İNTERAKTİV QEYDETMƏ SİSTEMİ – İQS (İNSERT)

Şagirdlərin davamlı məşğuliyyətini təmin edən bir çox tədris üsulu vardır. İQS (İNSERT) oxu zamanı şagirdlərin öz qavrayışını yoxlamasına imkan verən güclü vasitədir. Bu, səmərəli mütaliə və təfəkkür üçün İnteraktiv Qeydetmə Sistemi olub, işarələr sistemindən istifadə edib mətni başa

LAYİHƏ

düşmək üçün biliyini yoxlamaqla düzgün cavab axtarmaq üsuludur. Bəzən bir səhifə materialı oxuyub qurtarırsan və məlum olur ki, yadında heç nə qalmayıb. Bu, fəal surətdə dərk etmək, anlamaq, qavradığını yoxlamaq üçün oxumağın ən yaxşı nümunəsidir. Bir çoxları mahiyyəti dərk etmədən oxu və digər öyrənmə proseslərini mənimsəmək istəyirlər. Öyrənmə prosesində mahiyyətin dərk edilməsi zəruridir. Lakin öyrənən şəxs proseslə məşğul deyilsə, öyrənmə imkanları hədər gedəcəkdir.
İnteraktiv Qeydetmə Sistemi vasitəsilə mətn xüsusi işarələrlə oxunur:

"+" – yeni informasiyadır, "-" – bildiyimə ziddir,
"?" – qarışıq informasiyadır, "V" – əvvəl bilirdim.

Şagirdlərin yaş və hazırlıq səviyyəsindən asılı olaraq, işlədilən işarələr də müxtəlif olur. Aşağı siniflərdə iki işarədən istifadə edilsə yaxşıdır: "+" – yeni informasiyadır və "V" – əvvəl bilirdim. Oxunun məqsədindən və şagirdlərin işarə sistemi ilə işləmək təcrübəsindən asılı olaraq, işarələr fərqli də ola bilər.

## KUBLAŞDIRMA

Kublaşdırma mövzuya müxtəlif cəhətlərdən nəzər salmağı asanlaşdıran tədris üsuludur. Bu üsul hər tərəfində təfəkkür və yazı üçün müxtəlif qısa göstərişlər olan kubdan istifadə olunmasını nəzərdə tutur. Kub (kiçik, yaxşı olar ki, tili 15–20 *sm* olsun) kağızdan hazırlanır. Kubun hər üzünə verilən altı qısa göstərişdən birini yazın:

**1. Təsvir et;**
**2. Müqayisə et;**
**3. Əlaqələndir;**
**4. Təhlil et;**
**5. Tətbiq et;**
**6. Lehinə, yaxud əleyhinə müqayisə et.**




Müəllim şagirdlərə verilən mövzu üzrə qısamüddətli sərbəst yazı tapşırmaqla, onları kublaşdırma prosesi daxilində istiqamətləndirir.

**1. Təsvir edin:** Əşyaya yaxından nəzər salın (ola bilər ki, yalnız fikrən) və gördüklərinizi rənglər, formalar, ölçülər və s. də daxil olmaqla təsvir edin.
**2. Müqayisə edin:** O, nəyə oxşayır? O, nədən fərqlidir?
**3. Əlaqələndirin:** O, sizi nə barədə düşünməyə vadar edir? Nəyi xatırladır?
**4. Təhlil edin:** Onun necə düzəldiyini söyləyin. Dəqiq bilməyiniz vacib deyil, özünüzdən uydura bilərsiniz.
5. **Tətbiq edin:** O, necə istifadə oluna bilər?
**6. Lehinə, yaxud əleyhinə müqayisə edin:** Əvvəlcədən öz mövqeyinizi müəyyən edin. İstədiyiniz

LAYİHƏ

kimi məntiqli, mənasız və ya ikisinin arasında olan dəlillərdən istifadə edin.

Yazı müddəti bitdikdən sonra şagirdlər kubun hər üzünə dair öz fikirlərini bölüşürlər.
Şagirdlərin yaş səviyyəsini nəzərə alaraq göstərişlərin sayını azaltmaq olar. Bu məqsədlə kubu digər həndəsi fiqurlarla (piramida, üçbucaq və s.) əvəz etmək olar.

**FASİLƏLƏRLƏ OXU**

Fasilələrlə oxu üsulu məqsədli şəkildə şagirdləri fəal oxu prosesinə cəlb etmək üçün nəzərdə tutulur. Bu üsulu tətbiq edən zaman mətn hissələrə bölünür. Şagirdlər mətnin hissələrini fasilələrlə oxuduqca tənqidi təhlil və tənqidi mühakiməyə sövq edilir. Onlar birinci fasiləyə qədər oxuyurlar. Müəllim düşünməyə cəlb etmək üçün şagirdlərə oxuduqları barədə suallar verir. Birinci mütaliəyə aid suallardan sonra şagirdlərə sonrakı hissədə baş verəcək səhnənin təsvirini yaratmaq təklif olunur.
Yeni hissəni oxumazdan əvvəl onlar verilən suallarla nəyin baş verəcəyini qabaqcadan təxmin etməyə həvəsləndirilir. Sonra növbəti hissəni oxuyurlar və şagird tənqidi təhlilə cəlb olunur və s. Bu cür mütaliə zamanı təşkil edilən müzakirələr şagirdlərin mövzuya marağının artdığını göstərir.

**METAFORİK DÜŞÜNMƏ**

Metaforik düşünmə üsulu zamanı şagird obrazlarla düşünür. Özündə olan xüsusiyyətləri müşahidə obyekti olan digər varlıqların xüsusiyyətlərilə müqayisə edir və oxşar cəhətləri müəyyənləşdirir.

**TƏRİFLƏR, SUALLAR, TƏKLİFLƏR**

Təriflər, suallar, təkliflər üsulu tətbiq edilərkən şagird təqdimat zamanı başa düşmədiyi, onun üçün anlaşıqlı olmayan məsələlərə aid suallar verir. Çıxış zamanı məzmunla, nitqlə əlaqədar və s. xoşuna gələn cəhətlərin nədən ibarət olmasını şərh edir. Problemin həllinə aid öz təkliflərini irəli sürür. Bu üsul şagirdlərdə təhlil etmək bacarıqları formalaşdırır.



LAYİHƏ



# 1. TƏBİƏTİN «EMALATXANASI»NDA

## 1. TƏBİƏTİN RƏNG PALİTRASI

**Məşğələ növü:** Naturadan rəsm (təsəvvürə əsasən)
**Alt-standart:** 2.1.1.; 2.1.4.; 3.1.1.
**Təlim nəticələri:**

- rəngli karandaşlar, flomaster və ya sulu boyalar vasitəsilə yay fəslinin təsvirini yaradır;
- rənglərdən istifadə edərək yay fəslinə aid kompozisiyalar qurur;
- təbiət varlıqlarını forma baxımından şərh edir.

**Fənlərarası inteqrasiya:** İnf.: 3.3.2.; 2.2.3.; A-d.: 1.1.1.; Tex.: 4.1.1.; H-b.: 1.2.3.
**İstifadə olunan iş formaları:** Qrup işi, fərdi iş
**İstifadə olunan üsullar:** Müzakirə, açar sözlər, esse
**Təchizat:** Sulu boyalar, pastel tabaşirlər, rəngli karandaşlar, flomasterlər, müxtəlif təbiət şəkilləri

### Dərsin gedişi / MOTİVASİYA

Müəllim şagirdləri surəti çıxarılmış, ağ-qara rəngdə olan mənzərə şəkilləri ilə 4 qrupa ayırır.

***Qeyd:*** *Müəllim bunun üçün 4 müxtəlif mənzərə şəklini seçir. Onların ağ-qara rəngdə surətini çıxardır. Şagirdlərin sayını nəzərə almaqla şəkillərin üzərində karandaş vasitəsilə aşağıda göstərilən qaydada müxtəlif xətlər çəkir. Həmin xətlər mənzərə şəklini hissələrə ayırır. Xətlərin üzərindən kəsərək, hər mənzərə şəklini 5–6 hissəyə bölür. Təsvirlərin hər hissəsini bir şagirdə verir. Onlara hissələri birləşdirib mənzərə şəklini tərtib etmək təklif olunur. Birlikdə eyni mənzərə şəklini tərtib edən şagirdlər bir qrupda əyləşirlər.*

Nümunə:





LAYİHƏ

Hər qrupa bir tapmaca verilir:

**1-ci qrup**
Özü ala,
Yeri tala,
Para-para
Qəlbi qara. *(lalə)*

**2-ci qrup**
Göydə tüstü göründü,
Əriyib suya döndü.
(bulud)

**3-cü qrup**
Yağış yağanda
Çimər, yuyunar.
Yayda geyinər,
Qışda soyunar. *(ağac)*

**4-cü qrup**
Gün çıxanda yox olur,
Gün batanda çox olur.
*(ulduzlar)*

Müəllim tapşırıq verir: – Hər qrup onlara verilən tapmacanı oxusun və fikirləşib cavabını desin.

Qrup cavabı düzgün tapmadıqda digər qruplardakı şagirdlər kömək edir. Qruplar tapmacanın düzgün cavabını söylədikcə müəllim yazı lövhəsində onların ağ-qara təsvirlərini asır və soruşur:

– Yazı lövhəsində lalə gülü, bulud, ağac, ulduzların şəkillərini görürsünüz. Onları birlikdə necə adlandırmaq olar? (Təbiətin varlıqları).

– Təsvirlərdəki varlıqların təbiətdə gördüyünüzdən fərqi nədir? (Rəngsizdir).

– Təbiətdə lalə gülünün, buludun, ağacın və ulduzun rəngi haqqında nə deyə bilərsiniz? (fərziyyələr)

– Hər qrup onda olan ağ-qara təbiət təsvirinin şəklindəki rənglər haqqında nə deyə bilər? (fərziyyələr)

– Bu gün mövzumuz təbiətin rəng palitrası haqqındadır.

Tədqiqat sualı: ***Təbiətdə rənglərin rolu nədən ibarətdir? Yay fəslini necə çəkmək olar?***
Şagirdlərin fərziyyələri dinlənilir.

### TƏDQİQATIN APARILMASI

Şagirdlər dərslikdə olan materiallarla tanış olurlar.

Qruplar müzakirə edərək yay fəslində təbiətdə olan varlıqları və daha çox rast gəldikləri rəngləri müəyyən edirlər. Sonra rəngli karandaşlar, flomasterlər, pastel tabaşirlər və ya sulu boyalarla yay fəslinin rəngli təsvirini yaradırlar. Təsvir materialı qruplar tərəfindən sərbəst seçilir.

Bu dərs 1-ci olduğu üçün diaqnostik xarakter daşıyır. Müəllim şagirdlərin təsvirlərinə görə onların hazırlıq səviyyəsini, materiallarla işləmə bacarıqlarını müəyyənləşdirir.

Çətinlik çəkən (xüsusi qayğıya ehtiyacı olan) şagirdlərə qrupda işin bölünməsi zamanı sadə fəaliyyət yerinə yetirməyi tapşırmaq olar.

Müəllim vərəq üzərində işləyən qruplara yaxınlaşıb kompozisiya qaydalarına diqqət yetirməyi xatırladır. Təsvirin gözəl görünməsi üçün onların əhəmiyyətini xüsusi vurğulayır.

### MƏLUMAT MÜBADİLƏSİ

Qruplar işlərini təqdim edirlər. Müəllim suallar verir: Təsvir etdiyiniz obyekt haqqında nə deyə bilərsiniz? Onları forma baxımından necə şərh edərsiniz? Yay fəslini təsvir edəndə daha hansı rənglərdən istifadə etmək olar?

### MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

Müəllim suallar verir: – Təsvirinizin gözəl görünməsi üçün nə etdiniz? Təbiətin rəng çalarları haqqında nə deyə bilərsiniz? Təbiətdəki obyektlərin rəngi olmasaydı, necə olardı?

### ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

Müəllim deyir: – "Azərbaycan təbiətinin rəngi" mövzusunda fərdi şəkildə 5 dəqiqə esse yazın.
Sonra bəzi şagirdlərin essesi oxunur. Digərləri isə portfolioya qoyulmaq üçün yığılır.

LAYİHƏ

**YARADICI TƏTBİQETMƏ**

a) Evin və ya məktəbin ətrafında olan obyektlərin rəsmini naturadan çəkmək.
b) Təbiətin rənglərini əks etdirən rəsm çəkmək.

**QİYMƏTLƏNDİRMƏ**

*Qiymətləndirmə meyarları:*

- Yaratma;
- Qurma;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Yay fəslinin təsvirini yalnız rəngli karandaşlar, flomaster vasitəsilə yaradır. | Rəngli karandaşlar, flomaster və ya sulu boyalar vasitəsilə yay fəslinin səliqəsiz təsvirini yaradır. | Rəngli karandaşlar, flomaster və ya sulu boyalar vasitəsilə yay fəslinin təsvirini kiçik səhvlərə yol verərək yaradır. | Rəngli karandaşlar, flomaster və ya sulu boyalar vasitəsilə yay fəslinin təsvirini qaydalara uyğun yaradır. |
| Rənglərdən istifadə edərək yay fəslinə aid kompozisiyalar qurmaqda çətinlik çəkir. | Rənglərdən istifadə edərək yay fəslinə aid kompozisiyaları müəllimin köməyi ilə qurur. | Rənglərdən istifadə edərək yay fəslinə aid bəsit kompozisiyalar qurur. | Rənglərdən istifadə edərək yay fəslinə aid dolğun kompozisiyalar qurur. |
| Təbiət varlıqlarını forma baxımından səhvlərlə şərh edir. | Təbiət varlıqlarını forma baxımından yönəldici suallar vasitəilə şərh edir. | Təbiət varlıqlarını forma baxımından lakonik şərh edir. | Təbiət varlıqlarını forma baxımından geniş şərh edir. |

## 2. AĞ VƏ QARA RƏNGLƏR

**Məşğələ növü:** Naturadan rəsm (təsəvvürə əsasən)
**Alt-standart:**
**Təlim nəticələri:** 2.1.1.; 2.1.3.; 3.1.1.

- rəngli karandaşlar, flomaster və quaş boyası vasitəsilə təbiətdə ağ-qara rəngdə olan varlıqları yaradır;
- təbiətdə ağ-qara rəngdə olan varlıqları təsəvvürə əsasən naturadan nisbi dəqiqliklə təsvir edir;
- ağ-qara rəngdə olan varlıqları məzmun və forma baxımından şərh edir.

**Fənlərarası inteqrasiya:** İnf.: 1.1.1.; 2.2.3.; 3.3.2.; H-b.: 1.2.3.; 3.1.1.; Tex.: 4.1.1.; A-d.:1.1.1.; 1.1.2.; 1.2.5.
**İstifadə olunan iş formaları:** Cütlərlə iş, kollektiv iş
**İstifadə olunan üsullar:** Müzakirə, qalereya gəzintisi
**Təchizat:** Rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, quaş

**Dərsin gedişi / MOTİVASİYA**

Müəllim yazı lövhəsindən ağ və qara rəngdə kağız asır və soruşur: – Yazı lövhəsində nə asılıb? (Ağ və qara rəngdə kağız). Gördükləriniz haqqında nə deyə bilərsiniz? (fərziyyələr)

Tədqiqat sualı: ***Təbiətdə olan ağ və qara rənglərin təsvir zamanı əhəmiyyəti nədir? Ağ və qara rəngdə olan varlıqları təsvir edəndə nəyi nəzərə almaq lazımdır?***

Şagirdlərin fərziyyələri dinlənilir.

**TƏDQİQATIN APARILMASI**

Şagirdlər dərslikdə olan materiallarla tanış olurlar. Cütlükdə (yanında oturan yoldaşı ilə) təbiətdə ağ və qara rəngdə olan varlıqları sadalayaraq onlardan birini seçirlər (dərslikdə verilən nümunədən istifadə edə bilərlər). Varlığın formasını müzakirə edərək, hissələri arasında nisbi dəqiqliyi nəzərə alaraq, birlikdə təsvir edirlər və onu quaşla (şagirdin istəyindən asılı olaraq rəngli karandaş, flomaster



LAYİHƏ

və ya pastel təbaşirlərdən də istifadə edilə bilər) rəngləyirlər. Sonra cütlər bu rənglərin təsvir zamanı əhəmiyyətini (2-ci sinifdə bu barədə məlumat toplayıblar) yadlarına salırlar. “Rəsm zamanı”nda verilən varlıqların mərhələlərlə təsvirindən istifadə etmək olar. Vərəqdə 1-lər (eyni masada əyləşən şagirdlərdən biri 1, digəri isə 2 olur) istədikləri boyanı ağ rəng vasitəsilə “yüngül” və zərif rəngə, 2-lər isə qara rəng vasitəsilə “ağır” və tünd rəngə çevirirlər.

Çətinlik çəkən (xüsusi qayğıya ehtiyacı olan) şagirdə daha sadə fəaliyyət yerinə yetirməyi tapşırmaq olar.

## MƏLUMAT MÜBADİLƏSİ

Hər cütlük çəkdiyi təbiətdə olan ağ və qara rəngli varlığın rəsmini, hər hansı boyanı açıq və tünd rəngə çevirməsinə aid nümunəsini yazı lövhəsindən yapışqan kağız ilə (skoç vasitəsilə) bərkidir. Qalereya gəzintisi üsulu ilə rəsmlərə baxırlar.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

Müəllim yazı lövhəsindən asılan təsvirləri bir-bir göstərərək şagirdlərdən soruşur: – Təsvir ağ-qara rəngdə olan varlığa uyğundurmu? Rəsm vərəqdə necə yerləşdirilib? Varlıqların forması və nisbi ölçüləri necə verilib? Boya zərif, tünd rəngə necə çevrilib? Təsvir tapşırılan vaxt ərzində yerinə yetirilib? Rəsm səliqəlidirmi? Hər cütlüyün müzakirə vasitəsilə aldığı nəticəsini aşağıda göstərilən qiymətləndirmə cədvəlinə yazır.

## ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

– Təsvirlərə bir daha diqqətlə baxın. Seçdiyiniz ağ və qara rəngdə olan varlıqların əksəriyyəti bitkilərə, yoxsa heyvanlara aiddir? Rəsmi işləyərkən ağ-qara rənglər daha nə məqsədlə istifadə olunur? Onlar hisslərimizə necə təsir edirlər? Mövzu üzrə rəsm zamanı (məsələn, nağıllara illüstrasiya çəkən zaman) hansı personajları ağ, hansını qara rəngdə təsvir edirik? Nə üçün?

## YARADICI TƏTBİQETMƏ

Naturadan məişət əşyaları çəkmək və açıq-tünd rənglərin verilməsində ağ-qara rənglərdən istifadə etmək.

## QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Yaratma;
- Təsviretmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təbiətdə ağ-qara rəngdə olan varlıqları yalnız rəngli karandaşlar, flomasterlər vasitəsilə yaradır. | Rəngli karandaşlar, flomaster və quaş boyası vasitəsilə təbiətdə ağ-qara rəngdə olan varlıqları səliqəsiz yaradır. | Rəngli karandaşlar, flomaster və quaş boyası vasitəsilə təbiətdə ağ-qara rəngdə olan varlıqları kiçik səhvlərə yol verərək yaradır. | Rəngli karandaşlar, flomaster və quaş boyası vasitəsilə təbiətdə ağ-qara rəngdə olan varlıqları təsvir qaydalarına əməl edərək yaradır. |
| Təbiətdə ağ-qara rəngdə olan varlıqları təsəvvürə əsasən naturadan nisbi ölçüləri nəzərə almadan təsvir edir. | Təbiətdə ağ-qara rəngdə olan varlıqları təsəvvürə əsasən naturadan nisbi dəqiqliklə təsvir edir. | Təbiətdə ağ-qara rəngdə olan varlıqları təsəvvürə əsasən naturadan nisbi ölçülərində kiçik səhvlərə yol verərək təsvir edir. | Təbiətdə ağ-qara rəngdə olan varlıqları təsəvvürə əsasən naturadan nisbi dəqiqliklə düzgün təsvir edir. |
| Ağ-qara rəngdə olan varlıqları məzmun və forma baxımından çətinliklə şərh edir. | Ağ-qara rəngdə olan varlıqları məzmun və forma baxımından müəllimin yönəldici sualları əsasında şərh edir. | Ağ-qara rəngdə olan varlıqları məzmun və forma baxımından qısa şərh edir. | Ağ-qara rəngdə olan varlıqları məzmun və forma baxımından ətraflı şərh edir. |



LAYİHƏ

# 3. İSTİ VƏ SOYUQ KOLORİT

**Məşğələ növü:** Naturadan rəsm
**Alt-standart:** 2.1.2.; 2.1.3.; 3.1.2.
**Təlim nəticələri:**

- payız meyvə və tərəvəzlərindən ibarət olan natürmortun təsvirində koloritdən istifadə bacarıqları nümayiş etdirir;
- isti və ya soyuq koloritdə olan natürmortu naturadan nisbi dəqiqliklə təsvir edir;
- rəssam əsərlərində rəngləri məna çalarlarına görə şərh edir.

**Fənlərarası inteqrasiya:** İnf.: 1.1.1.; 3.3.2; H-b. :1.1.2.
**İstifadə olunan iş formaları:** Qrup işi, kollektiv iş
**İstifadə olunan üsullar:** Müzakirə
**Təchizat:** Quaş, pastel tabaşirlər

**Dərsin gedişi / MOTİVASİYA**

Müəllim şagirdləri qərənfil, bənövşə gülü, yarpaq, günəbaxan, portağal, dəniz şəkilləri (şagirdlərin sayından asılı olaraq hər şəkildən 4-6 nümunə) vasitəsilə 6 qrupa ayırır.




Qruplardan varlıqların adlarını soruşaraq yazı lövhəsinə yazır və deyir:

– Bu varlıqların rəngləri haqqında nə deyə bilərsiniz? Onları iki qrupa necə ayırmaq olar? (fərziyyələr)
– Rənglərin içərisində isti rənglər hansılardır? (Qırmızı, sarı, narıncı).
– Soyuq rənglər hansılardır? (Yaşıl, göy, bənövşəyi).
– Bu gün 2-ci sinifdə isti və soyuq rənglər haqqında öyrəndiklərimizi daha da zənginləşdirəcəyik.

Tədqiqat sualı: ***Təbiətdə soyuq rəngin isti rəngə və ya əksinə keçməsini müşahidə etmisinizmi? İsti və soyuq koloritdə payız meyvə və tərəvəzlərdən ibarət natürmortu necə çəkmək olar?*** Şagirdlər öz fikirlərini söyləyirlər.

**TƏDQİQATIN APARILMASI**

Şagirdlər dərslikdə olan məlumatla tanış olurlar. Müəllim sinifdə isti və soyuq koloritdə payız meyvə və tərəvəzlərindən ibarət iki natürmort qura bilər. 1, 2 və 3-cü qruplara isti, 4, 5 və 6-cı qruplara isə soyuq koloritdə olan natürmortu naturadan çəkməyi tapşırır. Öncə onlara kompozisiya və qurma qaydalarını, sonra isə rəngdə işıq-kölgəni necə verməyi xatırladır. Şagirdlərin səviyyəsindən asılı olaraq müəllim natürmortun təsvir mərhələlərini izah edə bilər. 1 və 2-ci qruplar səmada, 3 və 4-cü qruplar heyvanlarda, 5 və 6-cı qruplar bitkilərdə soyuq rəngin isti rəngə və ya əksinə keçməsinin səbəbini müzakirə edirlər.

<u>*Nümunə*</u>: *Ağ buludlu mavi* rəngli səma günəş çıxanda və ya batanda narıncı, sarı rənglərə bürünür (1 və 2-ci qruplar). *Buqələmun* dərisinin rəngini ətraf mühitdən asılı olaraq dəyişir (3 və 4-cü qruplar). *Yarpaq* fəsillərdən asılı olaraq yaşıldan sarı və ya narıncı rəngə keçir (5 və 6-cı qruplar) və s. Müəllim kömək etmək məqsədilə qruplara yaxınlaşıb istiqamətləndirici suallar verir.

LAYİHƏ

***Qeyd:*** *Müəllim izah etməlidir ki, qrupda olan şagirdlər düzgün iş bölgüsü aparsınlar. Əks halda onlar verilən vaxt ərzində işlərini bitirə bilməyəcəklər. Ona görə də öncə natürmortun qurulma mərhələləri müzakirə edilməli, rəng həlli və işıq-kölgənin verilməsi qrup tərəfindən qərara alınmalıdır. Sonra qrupda iş bölünməlidir. Müəllim şagirdlərdə lazımi bacarıq və vərdişləri formalaşdırmaq üçün hər qrup işində bunu xüsusi qeyd etməlidir.*

Şagirdlər dərslikdə verilən rəssam əsərlərindəki rəngləri məna çalarlarına görə şərh edirlər. Sinfin səviyyəsindən asılı olaraq, şagirdlər çətinlik çəkdikdə onlara sərbəstlik vermək lazımdır.

## MƏLUMAT MÜBADİLƏSİ

Qruplar natürmort təsvirlərini təqdim edirlər. Qruplar rəsmlərini təqdim etdikdən sonra digər qruplar da rəsmlərə öz münasibətini bildirirlər. Sonra meyarlar əsasında işlər qiymətləndirilir.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

Müəllim şagirdlərə suallarla müraciət edir: – Natürmortu hansı mərhələlərlə çəkdiniz? Kolorit nədir? Təbiətdə isti rənglərdə olan hansı varlıqları tanıyırsınız? Soyuq rənglərdə olan hansı varlıqları tanıyırsınız? İsti və soyuq rənglər bizə nəyi xatırladır? Nə üçün?

## ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

Hansı peşələrdə rənglər əsas rol oynayır? Soyuq rəngin isti rəngə və ya əksinə keçməsi nə zaman baş verir? (Şagirdlərin gəldiyi nəticələr: “Varlıqların mövcud olduğu mühit (quraqlıq-yaşıllıq və s.), hava, fəsillər dəyişdikcə soyuq rəngin isti rəngə və ya əksinə keçməsi baş verir”).

## YARADICI TƏTBİQETMƏ

Müşahidə edilən təbiət hadisəsinin təsvirini çəkmək.

## QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Nümayişetdirmə;
- Təsviretmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Payız meyvə və tərəvəzlərindən ibarət olan natürmortun təsvirində koloritdən istifadə bacarıqlarını çətinliklə nümayiş etdirir. | Payız meyvə və tərəvəzlərindən ibarət olan natürmortun təsvirində koloritdən istifadə bacarıqlarını müəllimin köməyi ilə nümayiş etdirir. | Payız meyvə və tərəvəzlərindən ibarət olan natürmortun təsvirində koloritdən istifadə bacarıqları nümayiş etdirəndə kiçik səhvlərə yol verir. | Payız meyvə və tərəvəzlərindən ibarət olan natürmortun təsvirində koloritdən düzgün istifadə bacarıqları nümayiş etdirir. |
| İsti və ya soyuq koloritdə olan natürmortu naturadan nisbi ölçülərdə səhvlərə yol verərək təsvir edir. | İsti və ya soyuq koloritdə olan natürmortu naturadan nisbi dəqiqliklə müəllimin köməyi ilə təsvir edir. | İsti və ya soyuq koloritdə olan natürmortu naturadan nisbi dəqiqliklə nümunələr əsasında təsvir edir. | İsti və ya soyuq koloritdə olan natürmortu naturadan nisbi dəqiqliklə, təsvir qaydalarına əməl edərək təsvir edir. |
| Rəssam əsərlərində rəngləri məna çalarlarına görə qarışdıraraq şərh edir. | Rəssam əsərlərində rəngləri məna çalarlarına görə suallar əsasında şərh edir. | Rəssam əsərlərində rəngləri məna çalarlarına görə lakonik şərh edir. | Rəssam əsərlərində rəngləri məna çalarlarına görə ətraflı şərh edir. |



LAYİHƏ

# 4. TƏBİƏTDƏ KONTRAST RƏNGLƏR

**Məşğələ növü:** Naturadan rəsm (təsəvvürə əsasən)
**Alt-standart:** 2.1.1.; 2.1.2.; 3.1.1.
**Təlim nəticələri:**
- rəngli karandaşlar, flomaster və sulu boyalar vasitəsilə quş təsvirləri yaradır;
- təsvirlərdə kolorit və tondan istifadə bacarıqları nümayiş etdirir;
- verilmiş əsərləri məzmun və forma baxımından şərh edir.

**Fənlərarası inteqrasiya:** İnf.: 1.1.1.; H-b.: 1.1.2.; 3.1.1.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5.
**İstifadə olunan iş formaları:** Qrup işi, kollektiv iş
**İstifadə olunan üsullar:** Müzakirə
**Təchizat:** Akvarel, quaş, rəngli karandaşlar, pastel tabaşirlər, mənzərə şəkilləri

### Dərsin gedişi / MOTİVASİYA

Müəllim müxtəlif meyvələr – portağal, nar, ərikdən ibarət natürmort şəklinin kənarlarını qayçı ilə kəsir. Yazı lövhəsindən müxtəlif rəngli kağızlar asır. Meyvələri 1-ci qırmızı, 2-ci sarı, sonra göy və yaşıl rəngdə olan vərəqin üzərinə qoyur və soruşur:

Hansı halda natürmort daha yaxşı görünür? Nə üçün? (fərziyyələr)
Bir-birilə münasibətdə kəskin fərqlənən rənglər necə adlanır? (Kontrast rənglər).



Tədqiqat sualı: ***Təbiətdə müşahidə etdiyiniz kontrastlığın əhəmiyyəti nədən ibarətdir? Rəng və yaxud ton kontrastını nəzərə alaraq quşları hansı ardıcıllıqla təsvir etmək olar?***
Şagirdlərin fərziyyələri dinlənilir.

### TƏDQİQATIN APARILMASI

Müəllim müxtəlif rənglərlə şagirdləri 4 qrupa ayırır. Onlar dərslikdə olan rəng və ton kontrastları haqqında məlumatla tanış olurlar. Sonra şagirdlərə müxtəlif rəngli rəsmlər — natürmort, mənzərə, portret, süjetli rəsm nümayiş etdirilir və orada əks olunan məzmun, forma, rəng, ton kontrastları müzakirə edilir. Bu zaman hər qrup verilən təsvirdə üç rəng və üç ton kontrastı tapa bilər. Müzakirədən sonra qruplar quşun rəsmini çəkirlər. 1 və 2-ci qruplar tutuşunu, 3 və 4-cü qruplar isə şanapipiyini təsvir edirlər. Rəng həllini tapan zaman rəng və ya yaxud ton kontrastını nəzərə alırlar. Şagirdlərin istəyindən asılı olaraq, onlar sulu boyalardan və ya rəngli karandaş, yaxud pastel təbaşirlərdən istifadə edə bilərlər. Məsləhətdir ki, onlar sulu boyadan istifadə etməyə həvəsləndirilsin. Adətən, müəllimlər stolların üzərinin səliqəli qalması üçün şagirdləri sulu boya ilə işdən yayındırırlar. Amma nəzərə almaq lazımdır ki, rəng keçidlərinin və tonlarının verilməsi boyalarla daha rahat olur. Müəllim çətinlik çəkən (xüsusi qayğıya ehtiyacı olan) şagirdlərə istənilən quş rəsmini çəkməyi tapşıra bilər. Qruplar sərbəst işləyirlər, müəllim isə hərdən yaxınlaşıb istiqamət verir.

### MƏLUMAT MÜBADİLƏSİ

Qruplar çəkdikləri rəsmləri təqdim edirlər. Onlar orada əks edilən məzmun, forma, rəng və ton kontrastları haqqında danışırlar. Digər qruplar təqdimata öz əlavələrini edirlər. Rəsmlərə baxıb səsləndirilməyən rəng və ton kontrastlarını söyləyirlər.



LAYİHƏ

### MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

Müəllim suallar verir: – Rənglər necə olur? Əsas və qarışıq rənglər hansılardır? Onların fərqi nədir? Təbiətdə kontrast rənglərin əhəmiyyəti nədir? Sizin çəkdiyiniz rəsmlərin koloriti haqqında nə deyə bilərsiniz?

### ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

– Təbiətdə harada rəng və ton kontrastlarına rast gəlmisiniz?
– Rəng və ton kontrastının fərqli cəhətləri nədir?

### YARADICI TƏTBİQETMƏ

Kontrastlığı əks etdirən mənzərə çəkmək.

### QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Yaratma;
- Nümayişetdirmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Yalnız rəngli karandaşlar və flomaster vasitəsilə quş təsvirləri yaradır. | Rəngli karandaşlar, flomaster və sulu boyalar vasitəsilə quş təsvirlərini müəllimin köməyi ilə yaradır. | Rəngli karandaşlar, flomaster və sulu boyalar vasitəsilə quş təsvirlərini kiçik səhvlərlə yaradır. | Rəngli karandaşlar, flomaster və sulu boyalar vasitəsilə quş təsvirlərini təsvir qaydalarına uyğun yaradır. |
| Təsvirlərdə kolorit və tondan istifadə bacarıqlarını çətinliklə nümayiş etdirir. | Təsvirlərdə kolorit və tondan nümunələr əsasında istifadə bacarıqları nümayiş etdirir. | Təsvirlərdə kolorit və tondan qismən istifadə bacarıqları nümayiş etdirir. | Təsvirlərdə kolorit və tondan geniş istifadə bacarıqları nümayiş etdirir. |
| Verilmiş əsərləri yalnız forma baxımından şərh edir. | Verilmiş əsərləri məzmun və forma baxımından kobud səhvlərə yol verərək şərh edir. | Verilmiş əsərləri məzmun və forma baxımından lakonik şərh edir. | Verilmiş əsərləri məzmun və forma baxımından ətraflı şərh edir. |

## 5. TƏBİƏTDƏ RƏNGİN ƏHVALİ-RUHİYYƏSİ

**Məşğələ növü:** Mövzu üzrə rəsm
**Alt-standart:** 2.1.2.; 2.1.4.; 3.1.1.
**Təlim nəticələri:**

- payız mənzərəsinin təsvirində bədii ifadə vasitələrindən kolorit və tondan istifadə bacarıqları nümayiş etdirir;
- rənglərdən istifadə edərək payıza aid kompozisiyalar qurur;
- verilmiş sadə və mürəkkəb əşyaları məzmun və forma baxımından şərh edir.

**Fənlərarası inteqrasiya:** İnf.: 1.1.1.; 3.3.2.; H-b.: 1.1.2.; A-d.: 2.2.4.
**İstifadə olunan iş formaları:** Qrup işi
**İstifadə olunan üsullar:** Müzakirə, açar sözlər
**Təchizat:** Akvarel, quaş, pastel tabaşirlər

### Dərsin gedişi / MOTİVASİYA

Müəllim təqdim olunan motivasiya nümunələrindən yalnız birini seçə bilər.



LAYİHƏ

**1.** Dərslikdə verilən şəkillər nümayiş edilir və müəllim soruşur:
– Bunlar nədir? (Təbiət təsvirləri, rəssam əsərləri).
–Təbiət təsvirlərində, rəssam əsərlərində müşahidə etdiyiniz rənglər haqqında nə deyə bilərsiniz? (fərziyyələr)
– Şəkillərdə nəyə görə eyni obyektin (məsələn, səmanın) təsviri müxtəlif rənglərlə və tonlarla verilmişdir? (Havanın dəyişməsinə görə. 1-ci şəkildə hava sakitdir və səma mavi, buludlar ağ rəngdədir. 2-ci şəkildə isə qasırğa gözlənildiyi üçün səma qara və tünd göy, buludlar isə narıncı rəngdədir.)
– Deməli, insanın əhvali-ruhiyyəsi kimi, təbiətin də əhvali-ruhiyyəsi müxtəlifdir.
– Gördüyünüz mənzərələrdəki təbiətin əhvali-ruhiyyəsi haqqında nə deyə bilərsiniz? (fərziyyələr)
– Süjetli əsərlərdə təbiətin əhvali-ruhiyyəsi haqqında nə deyə bilərsiniz? (fərziyyələr)

**2.** Müəllim şagirdləri 1, 2, 3, 4 saymaqla qruplara ayırır.
1-lər – **I**, 2-lər – **II**, 3-lər – **III**, 4-lər isə **IV** qrupda toplaşırlar. Hər qrupa bir tapmaca verilir:

| ***1-ci qrup*** | ***2-ci qrup*** | ***3-cü qrup*** | ***4-cü qrup*** |
|---|---|---|---|
| Göydən gələ-gələ,<br>Düşür gilə-gilə.<br>Bunun adı nədir,<br>Gərək hamı bilə.<br>*(yağış)* | Əl ilə tutmaq olmaz,<br>Göz ilə görmək olmaz.<br>*(külək)* | Nə əli var, nə ayağı,<br>Gəzir çölü, gəzir bağı.<br>*(külək)* | Burdan vurur qılıncı,<br>Göydə oynayır ucu.<br>*(şimşək)* |

Müəllim deyir: – Hər qrup onlara verilən tapmacanı oxusun və fikirləşib cavabını desin. Qruplar tapmacanın cavabını dedikcə müəllim yazı lövhəsində qeyd edir və yenidən onları oxuyaraq soruşur:
– Yağış, külək, şimşək sözlərini birlikdə necə adlandırmaq olar? (Təbiət hadisələri).
– Ətraf aləm gah buluda bürünür, yağış yağır, şimşək çaxır, gah da külək başlayır. Ətrafda baş verən belə hadisələr təbiətin əhvali-ruhiyyəsidir.
Müəllim yazı lövhəsindən müxtəlif təbiət hadisələrinin şəkillərini asır və soruşur:
– Rəssam əsərləri haqqında nə deyə bilərsiniz? Gördüyünüz təbiət hadisələrindən hansını həyatınızda müşahidə etmisiniz? (fərziyyələr)

Tədqiqat sualı: ***Təsvir zamanı təbiətin əhvali-ruhiyyəsini necə göstərmək olar?***
Şagirdlər öz fikirlərini söyləyirlər**.**

## TƏDQİQATIN APARILMASI

Şagirdlər dərslikdə olan materiallarla tanış olurlar. Sonra müəllim qruplara payiz mənzərəsini müxtəlif "əhvali-ruhiyyədə" təsvir etməyi tapşırır. 1-ci qrupa - şən, günəşli, 2-ci qrupa - mülayim küləkli, 3-cü qrupa - kədərli və yağışlı, 4-cü qrupa - vahimə dolu qasırğalı "əhvali-ruhiyyədə" payız mənzərəsi çəkməyi tapşırır. Bu zaman isti və soyuq, kontrast rənglərdən istifadə etmək olar. Müəllim mənzərənin rəng həllini verən zaman rəsmi koloritə salmaq, ton fərqini göstərmək üçün lazımi istiqamətlər verir.

Müəllim çətinlik çəkən (xüsusi qayğıya ehtiyacı olan) şagirdlərə qrup tərəfindən çəkilmiş rəsmin rənglənməsində iştirak etməyi tapşıra bilər. Qruplar sərbəst işləyirlər, müəllim isə hərdən yaxınlaşıb istiqamət verir. Şagirdə lazım gəldikdə yalnız işlədiyi vərəqin kənarında və ya digər vərəqdə metodik göstərişləri nümayiş etdirmək olar.

## MƏLUMAT MÜBADİLƏSİ

Qruplar mənzərələrini təqdim edirlər. Hər qrup təsvir etdiyi mənzərədə əks olunan məzmun və forma, kolorit və ton, rəngin əhvali-ruhiyyəsi haqqında məlumat verir və meyarlar əsasında işlər qiymətləndirilir.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

Qrupların təqdimatından sonra müəllim şagirdlərə müraciət edir:



LAYİHƏ

– Külək, şimşək, yağış, duman kimi təbiət hadisələrinə ilin hansı fəslində rast gəlmisiniz?
– Sakit gündən fərqli olaraq küləkli, yağışlı, şimşək çaxan, dumanlı vaxtlarda təbiətdə hansı dəyişiklikləri müşahidə etmisiniz?
– Təbiətin əhvali-ruhiyyəsini təsvir edərkən rəngin rolu haqqında nə deyə bilərsiniz?

## ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

– Şəkillərdə gördüyünüz və özünüzün çəkdiyiniz təbiət təsvirlərində təbiətin əhvali-ruhiyyəsini vermək üçün nə etdiniz? (Təbiətin əhvali-ruhiyyəsini forma, rəng vasitəsilə əks etdirdik. Məsələn, küləkli gündə ağaclar, otlar, kollar küləyin əsdiyi istiqamətə əyilir. Evlərə isə külək təsir etmir. Təbiətin rəngi qara rəngdən istifadə edilərək tutqun verilir və s.)

## YARADICI TƏTBİQETMƏ

Müşahidə edilən təbiət hadisəsinin təsvirini sulu boya ilə çəkmək.

## QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Nümayişetdirmə;
- Qurma;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Payız mənzərəsinin təsvirində bədii ifadə vasitələrindən yalnızkoloritdən istifadə bacarıqları nümayiş etdirir. | Payız mənzərəsinin təsvirində bədii ifadə vasitələrindən kolorit və tondan istifadə bacarıqlarını suallar əsasında nümayiş etdirir. | Payız mənzərəsinin təsvirində bədii ifadə vasitələrindən kolorit və tondan istifadə bacarıqlarını kiçik səhvlərlə nümayiş etdirir. | Payız mənzərəsinin təsvirində bədii ifadə vasitələrindən kolorit və tondan sərbəst istifadə bacarıqları nümayiş etdirir. |
| Payıza aid kompozisiyaları kontrast rənglərdən istifadə etmədən qurur. | Rənglərdən istifadə edərək payıza aid kompozisiyaları müəllimin köməyi ilə qurur. | Rənglərdən istifadə edərək payıza aid kompozisiyaları təsvir qaydalarında kiçik səhvlərə yol verərək qurur. | Rənglərdən istifadə edərək payıza aid kompozisiyaları düzgün qurur. |
| Verilmiş sadə və mürəkkəb əşyaları ancaq məzmun baxımından şərh edir. | Verilmiş sadə və mürəkkəb əşyaları məzmun və forma baxımından səhvlərlə şərh edir. | Verilmiş sadə və mürəkkəb əşyaları məzmun və forma baxımından qısa şərh edir. | Verilmiş sadə və mürəkkəb əşyaları məzmun və forma baxımından geniş şərh edir. |



LAYİHƏ



# 2. İNSAN TƏBİƏTDƏN ÖYRƏNİR

## 6. İNSANIN YARATDIĞI BƏZƏK ƏŞYALARI

**Məşğələ növü:** Dekorativ-tətbiqi fəaliyyət
**Alt-standart:** 2.1.2.; 2.1.4.; 3.1.1.
**Təlim nəticələri:**

- dekorativ kompozisiyalarda siluetdən istifadə bacarıqları nümayiş etdirir;
- rənglərdən istifadə edərək sadə bəzək əşyaları qurur;
- bəzək əşyalarını məzmun və forma baxımından şərh edir.

**Fənlərarası inteqrasiya:** İnf.: 1.1.1.; H-b.: 1.1.2.; 3.1.1.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5.
**İstifadə olunan iş formaları:** Qrup işi
**İstifadə olunan üsullar:** Müzakirə; kublaşdırma; təriflər, suallar, təkliflər
**Təchizat:** A4 formatlı rəsm vərəqi, rəngli kağızlar, karton, qayçı,PVA yapışqanı,
muncuqlar, rəngli karandaşlar, flomasterlər, plastilin

### Dərsin gedişi / MOTİVASİYA

Müəllim yazı lövhəsindən parabüzən, nar, cırcırama və tovuzquşunun bəzək məqsədilə metal və qiymətli daşlardan yaradılmış obrazlarının şəkillərini asır və soruşur: – Şəkillərdə nə görürsünüz? (Parabüzən, nar, tovuzquşu, cırcırama). Bunlara təbiətin bəzəkləri demək olar? (Bunlar insan üçün nəzərdə tutulmuş bəzək əşyalarıdır). Onların təbiətlə nə əlaqəsi var? (Bu bəzəklər təbiətdən götürülüb).

Müəllim *bəzək, əşyaları, yaratdığı, insanın* sözləri yazılmış kiçik vərəqlər vasitəsilə şagirdləri 4 qrupa ayırır. Qruplardan sözləri soruşub yazı lövhəsində yazır və deyir: – Bu sözlərdən hansı cümləni qurmaq olar? (İnsanın yaratdığı bəzək əşyaları).

Kublaşdırma üsulundan istifadə edərək qrupların qarşısına şəkillər qoyur. 1-ci qrupa kəpənək, 2-ci qrupa cırcırama, 3-cü qrupa qılınc və 4-cü qrupa qalxan şəkilləri (*və ya 1-ci qrupa parabüzən, 2-ci qrupa nar, 3-cü qrupa cırcırama, 4-cü qrupa tovuzquşu şəkilləri*) və piramida verir.

***Qeyd:*** *Kublaşdırma üsulunu tətbiq edərkən şagirdlərin yaş səviyyəsini nəzərə alaraq kubdan deyil, piramidadan istifadə edilir.*




Piramidanın tərəflərində olan suallara şəkildəki əşyaya baxaraq cavab yazırlar. Suallar aşağıda verilmişdir:
1) Əşyanın forması, ölçüləri, hissələri, rəngi, bəzəkləri haqqında nə deyə bilərsiniz? (Təsvir edin).
2) Onun digər əşyalardan oxşar və fərqli cəhətləri hansılardır? (Müqayisə edin).
3) Bu, sizi nə haqqında düşünməyə vadar edir? Nəyi xatırladır? (Əlaqələndirin, assosiasiya yaradın).
4) O, nədən və necə hazırlanmışdır? (Təhlil edin).
5) Siz onunla nə edə bilərsiniz? Siz ondan necə istifadə edə bilərsiniz? (Tətbiq edin).

<u>Nümunə:</u> ***Nar*** formasında olan bəzək əşyası haqqında:
**1. Təsvir edin.** Dairəvi formadadır, nara oxşayır. İki (əsası və tacı) hissədən ibarətdir. Boz və tünd qırmızı rənglərdədir. Üzərində dairəvi, spiral və hörmə naxışlardan istifadə edilmişdir.

LAYİHƏ

**2. Müqayisə edin.** O, fənərə, taca oxşayır, yumru olsa da, almadan fərqlənir.
**3. Əlaqələndirin.** O, nar, üzərindəki daşlar isə su damcıları haqqında düşünməyə vadar edir.
**4. Təhlil edin.** Metaldan və qırmızı rəngdə olan şəffaf daşdan düzəldilib. Şəffaf daşların ətrafı nazik metalla əhatəyə alınaraq, damcı təəssüratı yaradır. Daşların möhkəmliliyini təmin etmək üçün ara hissələrdə metaldan hörmə naxışlar verilib. Narın tacını düzəltmək üçün isə nazik metal parçaları dairəvi formada yuxarıdan bərkidilib və s.
**5. Tətbiq edin.** Ondan yaxa və saç sancağı, kulon kimi istifadə etmək olar.
Şəklə baxıb cavab yazdıqdan sonra təqdimat edirlər.



***Qeyd:*** *Müəllim vaxta qənaət etmək üçün hər qrupa yalnız bir suala cavab verməyi tapşıra bilər.*

Tədqiqat sualı: ***Təbiətin obrazlarını bəzəyə necə çevirmək olar?***
Fərziyyələr söylənilir.

## TƏDQİQATIN APARILMASI

**1-ci qrup** kəpənəyin, **2-ci qrup** cırcıramanın yeni formasını, **3-cü qrup** qılıncın və **4-cü qrup** qalxanın bəzəkli təsvirlərini yaratmaq üçün müzakirələr edirlər. Müəyyənləşdirdikləri formanı və bəzəyi vərəqdə təsvir edirlər. Təsviri gətirdikləri qalın kağızın üzərinə qoyub siluetini kəsir və rəngli karandaş və flomasterlərlə rəngləyirlər. Sonra üzərini muncuqlarla və ya plastilinlə bəzəyirlər. Müəllim qruplara dərslikdə həmin mövzuda verilən nümunələri təsvir etməyi də tapşıra bilər. Çətinlik çəkən (xüsusi qayğıya ehtiyacı olan) şagirdlər üçün əvvəldən dərslikdə verilən bəzək nümunələrindən birinin kənarı çəkilir, şagirdlər isə onu istədiyi ləvazimatlardan istifadə edərək bəzəyirlər. Şagirdlərə dərsin sonunda *qruplardakı fəaliyyətlərinə əsasən* özlərini qiymətləndirəcəkləri bildirilir. Meyarlar isə yazı lövhəsindən asılır.

## MƏLUMAT MÜBADİLƏSİ

Qruplar təsvirlərini təqdim edirlər. Yaratdıqları bəzək əşyalarını məzmun və forma cəhətdən şərh edirlər.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

Təqdimatdan sonra şagirdlər qruplara təriflər, suallar, təkliflər verərək, onların təsvirlərinə öz münasibətlərini bildirirlər.

## ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

– Təbiətin obrazlarını bəzəyə hansı yolla çevirdiniz?
– Onlara baxan zaman hansı hissləri keçirirsiniz?
– Təbiət və insanın bəzəyinin oxşar və fərqli cəhətləri nədədir?

## YARADICI TƏTBİQETMƏ

Sevimli varlığın obrazına uyğun bəzək əşyası yapmaq və üzərini istənilən qaydada bəzəmək.

## QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*
- Nümayişetdirmə;
- Qurma;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dekorativ kompozisiyalarda siluetin formasında kobud səhvlərə yol verərək istifadə bacarıqları nümayiş etdirir. | Dekorativ kompozisiyalarda siluetdən müəllimin köməyi ilə istifadə bacarıqları nümayiş etdirir. | Dekorativ kompozisiyalarda siluetdən nümunələr əsasında istifadə bacarıqları nümayiş etdirir. | Dekorativ kompozisiyalarda siluetdən sərbəst istifadə bacarıqları nümayiş etdirir. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Sadə bəzək əşyalarının qurulmasında rənglər-dən yetərincə istifadə edə bilmir. | Rənglərdən istifadə edərək sadə bəzək əş-yalarını yönəldici suallar əsasında qurur. | Sadə bəzək əşyalarını quran zaman yaxın rənglərdən daha çox istifadə edir. | Rənglərdən istifadə edərək sadə bəzək əşya-larını sərbəst qurur. |
| Bəzək əşyalarını yalnız forma baxımından şərh edir. | Bəzək əşyalarını məz-mun və forma baxımın-dan müəllimin köməyi ilə şərh edir. | Bəzək əşyalarını məz-mun və forma baxımından lakonik şərh edir. | Bəzək əşyalarını məz-mun və forma baxımın-dan ətraflı şərh edir. |

## 7. XALÇALARI BƏZƏYƏN NAXIŞLAR

**Məşğələ növü:** Dekorativ-tətbiqi fəaliyyət
**Alt-standart:** 1.1.3.; 2.1.1.; 2.1.2.
**Təlim nəticələri:**

- Azərbaycanın görkəmli dekorativ sənət nümayəndələrindən Lətif Kərimov və onun ən məşhur əsərlərini digərlərindən fərqləndirir;
- rəngli karandaşlar, flomaster vasitəsilə naxış və ornament təsvirləri yaradır;
- naxışlardan olan dekorativ kompozisiyalarda siluetdən istifadə bacarıqları nümayiş etdirir.

**Fənlərarası inteqrasiya:** H-b.:2.1.2; 2.1.3.; Riy.:3.1.1.;4.1.1.
**İstifadə olunan iş formaları:** Kollektiv, qrup işi
**İstifadə olunan üsullar:** Müzakirə, beyin həmləsi
**Təchizat:** Müxtəlif ornament şəkilləri, A4 formatlı rəsm vərəqi, damalı dəftər vərəqi, rəngli karandaşlar, qələmlər, flomasterlər

### Dərsin gedişi / MOTİVASİYA

Müəllim yazı lövhəsindən xalça şəkillərini asır və soruşur:

– Bu, nədir? (Xalça). Xalçanın gözəlliyi haqqında nə deyə bilərsiniz? (O, müxtəlif naxışlarla bəzədilib).

– Dərsimiz xalçaları bəzəyən naxışlar haqqındadır.

Tədqiqat sualı: ***Dünya şöhrətli rəssam Lətif Kərimov haqqında nə bilirsiniz? Naxışı və ornamenti necə çəkmək olar?***

Şagirdlərin dedikləri yazı lövhəsinə yazılır.

### TƏDQİQATIN APARILMASI

Şagirdlər dərslikdə olan materiallarla, Lətif Kərimovun yaradıcılığı ilə tanış olurlar. Müəllim müzakirə üçün suallar verir:

- Mövzunu oxuyan zaman tanış olduğunuz naxış və ornamentlər Lətif Kərimovun “Əsirlərin nəğməsi” xalçasında necə yerləşdirilib?
- Xalçadakı naxışlar təbiətdə olan formalardan nə ilə fərqlənir?

Sonra müəllim onları dörd müxtəlif ornament şəkilləri ilə qruplara ayırır. 1-ci qrup formanın ritmini, 2 və 3-cü qruplar rəngin ritmini, 4-cü qrup rəng kontrastını verməklə naxış və ornament çəkirlər. Rəsm zamanı dərslikdə verilən elementlərin nümunələrindən istifadə edirlər. Qruplar öz naxışlarını də yarada bilərlər. Çətinlik çəkən (xüsusi qayğıya ehtiyacı olan) şagirdlərə müəllim tərəfindən çəkilmiş naxışı rəngləməyi tapşırmaq olar.

Müəllim qruplara yaxınlaşaraq onları istiqamətləndirir. O, dərsin sonunda *qrupun özünüqiymətləndirməsindən* istifadə ediləcəyini xatırladır və meyarları yazı lövhəsindən asır.

### MƏLUMAT MÜBADİLƏSİ

Qruplar çəkdikləri naxış nümunəsini nümayiş etdirirlər. Çəkdikləri naxışlarda 1-ci qrup formanın ritmini, 2 və 3-cü qruplar rəngin ritmini, 4-cü qrup rəng kontrastını necə verdiklərini izah edirlər.



LAYİHƏ

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

Müəllim şagirdlərə suallar verir: – Naxışları hansı ardıcıllıqla çəkdiniz? – Xalçalar hansı məqsədlə toxunur? – Lətif Kərimovun hansı əsərləri var?

***Qeyd:*** *Xalçalar xovlu və xovsuz olur. Xovlu xalçalar üzərindəki iplər müəyyən qədər saxlanıldıqdan sonra kəsilir. Nəticədə onun üzəri xırda kəsilmiş iplərlə örtülərək xalçaya yumşaqlıq verir. Xovsuz xalçalarda isə ilmələr xalçanın üzərinə çıxarılaraq kəsilmir və zəncirvari şəkildə toxunur. Nəticədə xalçanın üzərində kəsilmiş iplər olmur. Məsələn, palaz, kilim və s.*

## ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

– Xalçaçı rəssamlardan kimi tanıyırsınız?
– Xalçanın üzərini bəzəyən naxışlar hansı üsulla həkk olunur?
– Hansı milli naxışları tanıyırsınız və onlara daha çox harada rast gəlmisiniz?

## YARADICI TƏTBİQETMƏ

Xalça üzərində rast gəlinən naxışları rəngli karandaş, qələm, flomasterlərlə qab üzərində çəkmək.

## QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Fərqləndirmə;
- Yaratma;
- Nümayişetdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycanın görkəmli dekorativ sənət nümayəndələrindən Lətif Kərimov və onun ən məşhur əsərlərini digərlərindən çətinliklə fərqləndirir. | Azərbaycanın görkəmli dekorativ sənət nümayəndələrindən Lətif Kərimov və onun ən məşhur əsərlərini digərlərindən suallar əsasında fərqləndirir. | Azərbaycanın görkəmli dekorativ sənət nümayəndələrindən Lətif Kərimov və onun ən məşhur əsərlərini digərlərindən fərqləndirəndə kiçik səhvlərə yol verir. | Azərbaycanın görkəmli dekorativ sənət nümayəndələrindən Lətif Kərimov və onun ən məşhur əsərlərini digərlərindən sərbəst fərqləndirir. |
| Rəngli karandaşlar, flomaster vasitəsilə na-xış və ornament təsvirlərini kobud səhvlərlə yaradır. | Rəngli karandaşlar, flomaster vasitəsilə naxış və ornament təsvirlərini səliqəsiz yaradır. | Rəngli karandaşlar, flomaster vasitəsilə naxış və ornament təsvirlərini nümunələr əsasında yaradır. | Rəngli karandaşlar, flomaster vasitəsilə naxış və ornament təsvirlərini sərbəst yaradır. |
| Naxışlardan olan dekorativ kompozisiyalarda siluetdən istifadə bacarıqları nümayiş etdirən zaman formaları kobud şəkildə qarışdırır. | Naxışlardan olan dekorativ kompozisiyalarda siluetdən müəllimin köməyi ilə istifadə bacarıqları nümayiş etdirir. | Naxışlardan olan dekorativ kompozisiyalarda siluetdən kiçik səhvlərə yol verərək istifadə bacarıqları nümayiş etdirir. | Naxışlardan olan dekorativ kompozisiyalarda siluetdən sərbəst istifadə bacarıqları nümayiş etdirir. |

LAYİHƏ

# 8. DEKORATİV-TƏTBİQİ SƏNƏT

**Məşğələ növü:** Dekorativ-tətbiqi fəaliyyət
**Alt-standart:** 1.1.2.; 2.1.1.; 2.1.2.
**Təlim nəticələri:**

- dekorativ-tətbiqi sənətin əsas növlərini nümunələrə görə fərqləndirir;
- təsvir alətlərindən rəngli karandaşlar, flomaster və quaş vasitəsilə sadə təsvirlər yaradır;
- dekorativ kompozisiyalarda siluetdən istifadə bacarıqları nümayiş etdirir.

**Fənlərarası inteqrasiya:** H-b.: 2.1.2.; 2.1.3.; 3.1.1.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5.
**İstifadə olunan iş formaları:** Cütlərlə iş, kollektiv iş
**İstifadə olunan üsullar:** Müzakirə, qalereya gəzintisi
**Təchizat:** Quaş, rəngli qələmlər, flomasterlər

.

**Dərsin gedişi / MOTİVASİYA**

Müəllim şagirdlərə bəzəksiz fincan, adi formada üzük, güldan, bir rəngdə parça şəkilləri nümayiş etdirir və deyir: – Şəkillərdə nə görürsünüz? (Gündəlik istifadə etdiyimiz əşyaları). Əşyaların görünüşü haqqında nə deyə bilərsiniz? (fərziyyələr – adi məişət əşyalarıdır). Bu məişət əşyalarının qəşəng olması üçün nə etmək lazımdır? (Onları naxışlarla və müxtəlif vasitələrlə bəzəmək). Bu gün təsviri sənətin növlərindən biri olan dekorativ-tətbiqi sənət haqqında məlumat toplayacaqsınız. Dekorativ-tətbiqi sənət məişətdə istifadə edilən əşyaların insan tərəfindən gözəl tərtib edilməsidir.
Müəllim bu dəfə gözəl tərtib edilmiş dekorativ-tətbiqi sənət nümunələrinin şəkillərini göstərir və soruşur: Bu məişət əşyaları haqqında nə deyə bilərsiniz? Onlar nə üçün nəzərdə tutulub? (fərziyyələr)
Əşyaların gözəlliyi haqqında nə deyə bilərsiniz? Hansı üsullarla bəzədilib? (fərziyyələr)

Tədqiqat sualı*:* ***Dekorativ-tətbiqi sənətin təsviri incəsənətin digər növlərindən fərqi nədədir? Dekorativ-tətbiqi sənətin hər hansı bir növünü necə çəkmək olar?***

**TƏDQİQATIN APARILMASI**

Şagirdlər dərslikdə olan məlumatla tanış olurlar. Bu zaman müəllim onların diqqətini dekorativ tətbiqi sənətin növlərini fərqləndirməyə yönəldir. Müzakirə üçün sual verir: - Dekorativ-tətbiqi sənətin əsas növlərindən olan mozaika və vitrajın fərqi nədədir? –Oyma və şəbəkəni necə fərqləndirmək olar? Onlardan düzgün cavabı alana kimi yönəldici suallar verə bilər. Lazım olduqda özü dərketməyə kömək edən misallar söyləyə bilər. Sonra şagirdlər cütlükdə dekorativ-tətbiqi sənətin növlərindən birinə nümunə çəkirlər. Bu zaman onlara sərbəstlik verilir. Sadəcə istədikləri dekorativ rəsmi təsvir edən zaman kompozisiya qaydalarana əməl etməyi xatırlatmaq lazımdır. Rəsm zamanı siluetlərdən istifadə edirlər.
Xüsusi qayğıya ehtiyacı olan, çətinlik çəkən şagirdlər sadə tapşırığı yerinə yetirirlər.

**MƏLUMAT MÜBADİLƏSİ**

Cütlərlə işləyən şagirdlər rəsmlərini yazı lövhəsinin qarşısından düzürlər. "Qalereya gəzintisi" üsulu vasitəsilə onlar bir-birilərinin təsvirlərinə münasibətini bildirirlər.

**MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ**

– Dekorativ-tətbiqi sənətin insanlar üçün əhəmiyyəti nədir?
– Əşyaları bəzəmək üçün əsasən hansı üsullardan istifadə edilir?
-Dekorativ rəsmi hansı ardıcıllıqla çəkdiniz?

**ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ**

– Dekorativ-tətbiqi sənətlə heykəltəraşlığın fərqi nədir?
– Dekorativ-tətbiqi sənət ilə rəngkarlığın oxşar xüsusiyyətləri haqqında nə deyə bilərsiniz?

**YARADICI TƏTBİQETMƏ**

Qab çəkib, üzərini quaş, rəngli qələmlər, flomasterlərlə müxtəlif növlü naxışlarla bəzəmək.



LAYİHƏ

## QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Fərqləndirmə;
- Yaratma;
- Nümayişetdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dekorativ-tətbiqi sənətin əsas növlərini nümunələrə görə səbəbləri düzgün göstərmədən fərqləndirir. | Dekorativ-tətbiqi sənətin əsas növlərini nümunələrə görə istiqamətləndirici suallarla fərqləndirir. | Dekorativ-tətbiqi sənətin əsas növlərini nümunələrə görə fərqləndiriəndə kiçik səhvlər edir. | Dekorativ-tətbiqi sənətin əsas növlərini nümunələrə görə düzgün səbəblər göstərərək fərqləndirir. |
| Təsvir alətlərindən yalnız rəngli karandaşlar, flomaster vasitəsilə sadə təsvirlər yaradır. | Təsvir alətlərindən rəngli karandaşlar, flomaster və quaş vasitəsilə sadə təsvirləri müəllimin köməyilə yaradır. | Təsvir alətlərindən rəngli karandaşlar, flomaster və quaş vasitəsilə sadə təsvirləri tərəddüdlə yaradır. | Təsvir alətlərindən rəngli karandaşlar, flomaster və quaş vasitəsilə sadə təsvirləri sərbəst yaradır. |
| Dekorativ kompozisiyalarda siluetdən istifadə bacarıqlarını çətinliklə nümayiş etdirir. | Dekorativ kompozisiyalarda siluetdən istifadə bacarıqlarını nümunələr əsasında nümayiş etdirir. | Dekorativ kompozisiyalarda siluetdən istifadə bacarıqlarını tərəddüdlə nümayiş etdirir. | Dekorativ kompozisiyalarda siluetdən sərbəst istifadə bacarıqları nümayiş etdirir. |

## 9. EVİMİZDƏKİ QAB-QACAQ

**Məşğələ növü:** Yapma
**Alt-standart:** 1.1.2.; 2.2.1.; 3.1.1.
**Təlim nəticələri:**

- dekorativ-tətbiqi sənətin əsas növləri olan ağac üzərində oyma, keramika, metal üzərində döymə nümunələrini fərqləndirir;
- sadə bəzək kompozisiyaları qabların üzərinə tətbiq edir;
- bəzəkli qabları məzmun və forma baxımından şərh edir.

**Fənlərarası inteqrasiya:** H-b.: 2.1.2.; 2.1.3.; Tex.: 1.3.3.; 4.1.1.; H-b.: 1.2.3.; İnf.: 2.2.3.
**İstifadə olunan iş formaları:** Qrup işi, fərdi iş
**İstifadə olunan üsullar:** Kublaşdırma (piramida), müzakirə**,** qalereya gəzintisi
**Təchizat:** Əşyaların fotoları, kağızdan düzəldilmiş piramida, plastilin.

**Dərsin gedişi / MOTİVASİYA**

Müəllim şagirdləri 4 qrupa ayırmaq üçün müxtəlif naxışlarla bəzənmiş əşya – cam, fincan, güldan və kuzə şəkillərindən (şəkillər dərslikdən də seçilə bilər) istifadə edir.






LAYİHƏ

Şəkillərin hərəsindən şagirdlərin sayına görə 5–6 nümunə hazırlayaraq onlara paylayır. Qrupun hərəsinin qarşısına şəkillərində əks olunan əşyanı (və ya onun şəklini) və piramida qoyur.

***Qeyd:*** *Müəllim kublaşdırma üsulunu tətbiq edir. Şagirdlərin yaş səviyyəsini nəzərə alaraq kubdan deyil, piramidadan istifadə edilir.*




Piramidanın tərəflərində yazılan suallar aşağıda verilmişdir:
1) Əşyanın forması, ölçüləri, hissələri, rəngi, bəzəkləri haqqında nə deyə bilərsiniz? (Təsvir edin).
2) Onun digər əşyalardan oxşar və fərqli cəhətləri hansılardır? (Müqayisə edin).
3) Bu sizi nə haqqında düşünməyə vadar edir? Nəyi xatırladır? (Əlaqələndirin, assosiasiya yaradın).
4) O nədən və necə hazırlanmışdır? (Təhlil edin).
5) Sən onunla nə edə bilərsən? Sən ondan necə istifadə edə bilərsən? (Tətbiq edin).
Qruplara A format (vatman) verilir və onlar qarşılarında olan əşyanı müşahidə edərək, piramidanın tərəflərində yazılan suallara cavab verirlər.



Nümunə: *Kuzə* haqqında:
1. **Təsvir edin.** Dairəvi formada olub iki hissədən ibarətdir. Hissələrdən ikincisi daha böyükdür. Yaşıl rəngə çalır. Üzərində həndəsi naxışlar var.
2. **Müqayisə edin.** Onun birinci hissəsi üçbucağa, ikinci hissəsi isə dairəyə oxşayır.
3. **Əlaqələndirin.** Onun naxışları xalça haqqında düşünməyə vadar edir.
4. **Təhlil edin.** Metaldan düzəldilib və möhkəmdir. Üzərinə naxışları döymə üsulu vasitəsilə həkk ediblər.
5. **Tətbiq edin.** Su tökmək üçün yeri və qulpu olduğundan əşyadan su saxlamaq üçün istifadə edilir. Şəklə baxıb cavab yazdıqdan sonra təqdim edirlər.

***Qeyd:*** *Müəllim vaxta qənaət etmək üçün hər qrupa yalnız bir suala cavab verməyi tapşıra bilər. Yuxarıda göstərilən motivasiya nümunəsi sinifdə şagirdlərin səviyyəsindən asılı olaraq vaxt problemi yaratsa, daha sadə fəaliyyəti tətbiq etmək olar.*

Müxtəlif bəzəkli məişət əşyalarının şəkilləri yazı lövhəsindən asılır. Müəllim soruşur: – Gördükləriniz nədir? (Əşyalar). Onların oxşar cəhətləri haqqında nə deyə bilərsiniz? (Hamısı bəzəklidir və onlardan gündəlik həyatda istifadə edirik). Fərqli cəhətləri haqqında nə deyə bilərsiniz? (Formasına, rənginə, materialına, istifadəedilmə məqsədinə görə fərqlənir).
Müəllim şagirdləri qruplara ayırmaq üçün kiçik vərəqlərdə cam, fincan, güldan və dolça sözlərinin hərəsindən 5–6 nümunə yazır və onlara paylayır. Şagirdlər əllərində olan kiçik vərəqdə yazılmış sözə uyğun olaraq, həmin əşyanın adının böyük vərəqə yazılıb qoyulduğu masanın ətrafında toplaşırlar. Beləliklə, 4 qrup yaranır.

Tədqiqat sualı: ***Ağac, şüşə və ya keramikadan hazırlanan qabı təbiət formalarına bənzər necə yapmaq və bəzəmək lazımdır?***

Qruplar müzakirə edirlər və onların cavabları dinlənilir.



LAYİHƏ

## TƏDQİQATIN APARILMASI

Şagirdlər dərslikdə olan məlumatla tanış olurlar. Müəllim şagirdlərin qarşısına müxtəlif şüşə, taxta, saxsı, mis qabların şəklini qoyur. Onların materialı, üzərindəki naxışlar, məzmun və forması, plastilinlə yapılması ardıcıllığı müzakirə edilir. 1-ci qrup şüşə, 2-ci qrup mis, 3- cü qrup saxsı, 4-cü qrup isə taxta qabları (üç hissədən çox olmamaq şərtilə) müəllimin verdiyi şəklə və ya yaddaşa əsasən yapır, naxışlarla bəzəyir. Çətinlik çəkən şagirdlərə sadə tapşırığı yerinə yetirmək tapşırılır.

## MƏLUMAT MÜBADİLƏSİ

Müəllim yazı lövhəsində qrupların işlərini düzür və "Qalereya gəzintisi" təşkil edir. Bu üsul vasitəsilə onlar yoldaşlarının yapma işlərinə münasibətlərini bildirirlər.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

–Qabı yapmaq üçün hansı ardıcıllığa əməl etdiniz? – Onları məzmun və forma cəhətdən necə izah edərdiz? Müəllim meyarları bir-bir sadalayır. Qrupların meyarlara nə dərəcədə əməl etdiyini onlarla birlikdə müzakirə edir.

## ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

– Evimizdəki qab-qacaqlar hansı məqsədlərlə istifadə edilir?
– Onları hansı üsullarla bəzəyirlər? Nə üçün?
– Qabların üzərindəki naxışların ritmi haqqında nə deyə bilərsiniz?

## YARADICI TƏTBİQETMƏ

Evdəki sevimli qabı naturadan plastilin vasitəsilə yapmaq və üzərini müxtəlif üsullardan istifadə etməklə (qabartma, döymə, cızma) naxışlarla bəzəmək.

## QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Fərqləndirmə;
- Tətbiqetmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dekorativ-tətbiqi sənətin əsas növləri olan ağac üzərində oyma, keramikanı fərqləndirir, metal üzərində döymə nümunələrini isə ayıra bilmir. | Dekorativ-tətbiqi sənətin əsas növləri olan ağac üzərində oyma, keramika, metal üzərində döymə nümunələrini müəllimin köməyi ilə fərqləndirir. | Dekorativ-tətbiqi sənətin əsas növləri olan ağac üzərində oyma, keramika, metal üzərində döymə nümunələrini kiçik dəlillərlə fərqləndirir. | Dekorativ-tətbiqi sənətin əsas növləri olan ağac üzərində oyma, keramika, metal üzərində döymə nümunələrini düzgün dəlillərlə fərqləndirir. |
| Sadə bəzək kompozisiyaları qabların üzərinə çətinliklə tətbiq edir. | Sadə bəzək kompozisiyaları qabların üzərinə nümunələr əsasında tətbiq edir. | Sadə bəzək kompozisiyaları qabların üzərinə tərəddüdlə tətbiq edir. | Sadə bəzək kompozisiyaları qabların üzərinə sərbəst tətbiq edir. |
| Bəzəkli qabları yalnız forma baxımından şərh edir. | Bəzəkli qabları məzmun və forma baxımından səhvlərlə şərh edir. | Bəzəkli qabları məzmun və forma baxımından lakonik şərh edir. | Bəzəkli qabları məzmun və forma baxımından geniş şərh edir. |

LAYİHƏ

# 3. SƏNƏTKARIN EMALATXANASINDA

## 10. FORMANIN MÜXTƏLİFLİYİ

**Məşğələ növü:** Naturadan rəsm (təsəvvürə əsasən)
**Alt-standart:** 1.1.1.; 2.1.1.; 3.1.1.; 3.1.2.
**Təlim nəticələri:**

- təsviri incəsənətin növ və janrlarını nümunələr əsasında fərqləndirir;
- rəngli karandaşlar, flomaster vasitəsilə əsasını həndəsi fiqurlar təşkil edən kompozisiya yaradır;
- verilmiş kompozisiyaları məzmun və həndəsi formalar baxımından şərh edir;
- verilmiş əsərlərdə rəngləri məna çalarlarına görə şərh edir.

**Fənlərarası inteqrasiya:** Tex.: 4.1.1.; H-b.: 1.2.3.; İnf.: 2.2.3.; 3.3.2. ; Riy.:3.2.1.; 3.2.3.
**İstifadə olunan iş formaları:** Qrup işi
**İstifadə olunan üsullar:** Anlayışın çıxarılması, müzakirə
**Təchizat:** Rəngli karandaşlar, flomasterlər

### Dərsin gedişi / MOTİVASİYA

Müəllim yazı lövhəsindən avtobusun (üzərinə rəsmin ölçülərinə uyğun olan düzbucaqlı formasında kağız kəsib qoyur), narınginin (üzərinə rəsmin ölçülərinə uyğun olan dairə formasında kağız kəsib qoyur), Novruz qəhrəmanlarından Kosanın papağının (üzərinə rəsmin ölçülərinə uyğun olan üçbucaqlı formasında kağız kəsib qoyur), xiyarın (üzərinə rəsmin ölçülərinə uyğun olan oval formasında kağız kəsib qoyur), qarpız diliminin (üzərinə rəsmin ölçülərinə uyğun olan yarımdairə formasında kağız kəsib qoyur), televizorun (üzərinə rəsmin ölçülərinə uyğun olan kvadrat formasında kağız kəsib qoyur) şəkillərini asır. Onları bir-bir şagirdlərə nümayiş etdirir və soruşur:
– Bu nədir? (Həndəsi fiqur, düzbucaqlı).
– Onun altında düzbucaqlının ölçülərinə (kənar xətlərinə) uyğun əşya şəkli var. Sizin fikrinizcə, bu, hansı həcmli əşya ola bilər? (fərziyyələr)
– İndi düzbucaqlını rəsmin üzərindən götürək və orada hansı həcmli əşyanın şəklinin olduğuna baxaq.
Müəllim rəsmin üzərindən düzbucaqlı fiqurunu götürür və soruşur:
– Şəkildə nə təsvir olunub? (Avtobus).
– Deməli, avtobus hansı həndəsi fiqura oxşayır? (Düzbucaqlıya).
Bu qaydada müzakirə apararaq müəllim digər şəkilləri də nümayiş etdirir.

Tədqiqat sualı: ***Rəsmin çəkilməsində həndəsi fiqurların rolu nədədir? Əsasını müxtəlif həndəsi fiqurlar təşkil edən rəsmi necə çəkmək olar?***
Şagirdlərin fərziyyələri dinlənilir.

### TƏDQİQATIN APARILMASI

Müəllim şagirdləri 4 həndəsi fiqurla (kvadrat, üçbucaqlı, dairə, düzbucaqlı) qruplara ayırır. Şagirdlər dərslikdə olan materiallarla tanış olurlar. Sonra müəllim hər qrupun qarşısına istənilən rəssam əsərinin surətini qoyur. Qruplar əsərdəki təsvirlərin əsasının hansı həndəsi fiqurlardan ibarət olması üzərində düşünürlər. Sadə karandaşla təsvirlərin üzərində onun əsasını təşkil edən həndəsi formaları çəkirlər. Bundan başqa, əsərlərin təsviri incəsənətin hansı növ və janrına aid olmasını, onların məzmunu, rənglərin məna çalarlarını da təyin edirlər. Sonra qruplar əsasını həndəsi fiqurlar təşkil edən kompozisiya yaradırlar.

*Xüsusi qayğıya ehtiyacı olan*, çətinlik çəkən şagirdlərə müəllim əvvəlcədən kəsib hazırladığı müxtəlif həndəsi fiqurları verə bilər. Onlar isə həmin həndəsi fiqurları vərəq üzərində müxtəlif vəziyyətlərdə tutaraq hər hansı fiqur yaradırlar və yapışqandan istifadə edərək hissələri alboma yapışdırırlar.

Müəllim qruplara yaxınlaşıb müşahidələr aparır və lazımi məsləhətlər verir. Sonra müəllim dərsin sonunda *qrupun özünü qiymətləndirəcəyini* xatırladır və meyarlar yazı lövhəsindən asılır.

LAYİHƏ

### MƏLUMAT MÜBADİLƏSİ

Qruplar rəssam əsərlərində və öz çəkdikləri rəsmlərdə hansı həndəsi fiqurlardan istifadə edildiyi, məna çalarları haqqında məlumat verirlər. Digər qruplar isə onların təqdimatına əlavələrini edirlər.

### MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

– Konstruksiya nədir? Yastı və həcmli fiqurlar arasında fərq nədədir? Əsasını müxtəlif həndəsi fiqurlar təşkil edən rəsmi hansı ardıcıllıqla çəkdiniz?

### ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

– Həndəsi fiqurun təsviretmə zamanı əhəmiyyəti nədədir? – Təsviri incəsənətin hansı növ və janrlarını tanıyırsız?

### YARADICI TƏTBİQETMƏ

Əsasını həndəsi fiqur təşkil edən təbiət obyektlərini mənzərədə çəkmək.

### QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Fərqləndirmə;
- Yaratma;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri incəsənətin növl ə r i n i nümunələr əsasında fərqləndirir. | Təsviri incəsənətin növ və janrlarını nümunələr əsasında müəllimin köməyi ilə fərqləndirir. | Təsviri incəsənətin növ və janrlarını nümunələr əsasında əsasən fərqləndirir. | Təsviri incəsənətin növ və janrlarını nümunələr əsasında düzgün fərqləndirir. |
| Rəngli karandaşlar, flomaster vasitəsilə əsasını həndəsi fiqurlar təşkil edən kompozisiyanı çətinliklə yaradır. | Rəngli karandaşlar, flomaster vasitəsilə nümunələr əsasında əsasını həndəsi fiqurlar təşkil edən kompozisiya yaradır. | Rəngli karandaşlar,flomaster vasitəsilə əsasını həndəsi fiqurlar təşkil edən bəsit məzmunlu kompozisiya yaradır. | Rəngli karandaşlar, flomaster vasitəsilə əsasını həndəsi fiqurlar təşkil edən dolğun məzmunlu kompozisiya yaradır. |
| Verilmiş kompozisiyaları məzmun və həndəsi formalar baxımından səhvlərlə şərh edir. | Verilmiş kompozisiyaları məzmun və həndəsi formalar baxımından suallar əsasında şərh edir. | Verilmiş kompozisiyaları məzmun və həndəsi formalar baxımından qısa şərh edir. | Verilmiş kompozisiyaları məzmun və həndəsi formalar baxımından geniş şərh edir. |
| Verilmiş əsərlərdə rəngləri məna çalarlarına görə qarışıq şərh edir. | Verilmiş əsərlərdə rəngləri məna çalarlarına görə şərh edən zaman müəyyən səhvlərə yol verir. | Verilmiş əsərlərdə rəngləri məna çalarlarına görə lakonik şərh edir. | Verilmiş əsərlərdə rəngləri məna çalarlarına görə ətraflı şərh edir. |

## 11. YAXIN VƏ UZAQ

**Məşğələ növü:** Mövzu üzrə rəsm
**Alt-standart:** 2.1.1.; 2.1.3.; 2.1.4.
**Təlim nəticələri:**

- rəngli karandaşlar, flomaster və quaş vasitəsilə mənzərə təsvirləri yaradır;
- təbiətdə olan obyektləri naturadan nisbi dəqiqliklə təsvir edir;
- rənglərdən istifadə edərək mənzərədən ibarət kompozisiyalar qurur.

**Fənlərarası inteqrasiya:** İnf.: 1.1.1.; 3.3.2.; H-b.: 1.1.2.; Riy.:3.1.2.
**İstifadə olunan iş formaları:** Qrup işi
**İstifadə olunan üsullar:** Müzakirə
**Təchizat:** Quaş, flomasterlər, pastel tabaşirlər

LAYİHƏ

**Dərsin gedişi / MOTİVASİYA**

Motivasiyalardan biri tətbiq olunur.

1. Müəllim yazı lövhəsindən şəkil asır. Şəkildə aerodrom təsvir olunur. Təyyarələrdən biri yaxında, digəri göydə təsvir olunur (və ya mənzərə təsvirində ağacın biri yaxında – böyük, digəri isə uzaqda – kiçik təsvir olunur). Müəllim soruşur: – Aerodromun təsvirində iki təyyarə görürsünüz. Onlar arasında fərq nədir? (Biri böyükdür, digəri kiçik). Nəyə görə rəssam eyni ölçüdə olan təyyarələrin birini kiçik, digərini isə böyük ölçüdə çəkib? (fərziyyələr)

**2.** Müəllim yazı lövhəsindən dərslikdə olan şəkilləri asır və soruşur: – Şəkillərdə iki eyni olan obyektlər hansıdır? (Ağaclar, insanlar). Onlar arasında fərq nədir? (Biri böyükdür, digəri kiçik). Nəyə görə rəssam eyni ölçüdə olan obyektlərin birini kiçik, digərini isə böyük ölçüdə çəkib? (fərziyyələr)

Tədqiqat sualı: ***Təsvir zamanı obyektin yaxında və uzaqda olmasını əks etdirmək üçün nə etmək lazımdır?*** Şagirdlərin fikirləri dinlənilir.

**TƏDQİQATIN APARILMASI**

Müəllim şagirdləri ev, ağac, kol, yol şəkilləri ilə dörd qrupa ayırır. Şagirdlər dərslikdə olan məlumatı oxuyurlar. Müəllim qruplardan soruşur:

– Şəkillərinizdə nə təsvir olunub? (Ev, ağac, kol, yol).

– Onlar birlikdə sizə nəyi xatırladır? (Mənzərəni).

– Hər qrup bir mənzərə çəksin və orada yaxın və uzaq cisimləri nəzərə alsın.

--Siz pəncərədən məktəbyanı sahəyə baxıb yaxında və uzaqda olan obyektləri nəzərə alaraq mənzərə də çəkə bilərsiz. Bundan başqa istədiyiniz mənzərəni çəkən zaman məktəbyani sahədə olan obyektlərdən natura kimi istifadə edə bilərsiz. Rəngləri isə kompozisiyanıza uyğun istifadə edin.

*Xüsusi qayğıya ehtiyacı olan şagird*lərdən perspektivin qanunlarına əməl etməyi tələb etmək vacib deyil. Müəllim qrupda işin bölünməsi zamanı nəzarət etməlidir ki, onlara sadə vəzifələr tapşırılsın. Məsələn, güllərin, otların çəkilməsi, rəsmin rəngli karandaşla rənglənməsi və s.

Müəllim dərsin sonunda *qrupun özünü qiymətləndirəcəyini* xatırladır və meyarlar yazı lövhəsindən asılır.

**MƏLUMAT MÜBADİLƏSİ**

Qruplar təsvir etdikləri mənzərələri nümayiş etdirirlər. Bu zaman yaratdıqları rəsmlərdə ifadə olunmuş fikir və ideyalarını izah edirlər.

**MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ**

– Yaxın və uzaq obyektlər arasında fərqi həyatda harada müşahidə etmisən?

**ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ**

– Yaxın və uzağı göstərmək üçün hansı təsvir qaydasından istifadə edilir?

**YARADICI TƏTBİQETMƏ**

Yaxın və uzağı nəzərə alaraq süjetli rəsm çəkmək.

**QİYMƏTLƏNDİRMƏ**

*Qiymətləndirmə meyarları:*

- Yaratma;
- Təsviretmə;
- Qurma.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Yalnız rəngli karandaşlar, flomaster vasitəsilə mənzərə təsvirləri yaradır. | Rəngli karandaşlar, flomaster və quaş vasitəsilə səliqəsiz mənzərə təsvirləri yaradır. | Rəngli karandaşlar, flomaster və quaş vasitəsilə bəsit mənzərə təsvirləri yaradır. | Rəngli karandaşlar, flomaster və quaş vasitəsilə dolğun mənzərə təsvirləri yaradır. |
| Təbiətdə olan obyektləri naturadan nisbi | Təbiətdə olan obyektləri müəllimin köməyi ilə | Təbiətdə olan obyektləri naturadan nisbi də- | Təbiətdə olan obyektləri naturadan |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| dəqiqliyi tam nəzərə almadan təsvir edir. | naturadan nisbi dəqiqliklə təsvir edir. | qiqlikdə kiçik səhvlərə yol verərək təsvir edir. | nisbi dəqiqliklə düzgün təsvir edir. |
| Rənglərdən istifadə edərək mənzərədən ibarət kompozisiyaları çətinliklə qurur. | Rənglərdən istifadə edərək mənzərədən ibarət kompozisiyaları kobud səhvlərlə qurur. | Rənglərdən istifadə edərək mənzərədən ibarət kompozisiyaları kiçik səhvlərlə qurur. | Rənglərdən istifadə edərək təsvir qaydalarına uyğun mənzərədən ibarət kompozisiyalar qurur. |

# 12. TƏSVİRİ SƏNƏTDƏ KOMPOZİSİYA

**Məşğələ növü:** Naturadan rəsm
**Alt-standart:** 2.1.1.; 2.1.3.; 3.1.1.
**Təlim nəticələri:**

- rəngli karandaşlar, flomaster, pastel təbaşirlər vasitəsilə naturadan təsvirlər yaradır;
- eskiz və etyüdləri naturadan nisbi dəqiqliklə təsvir edir;
- kompozisiyanı məzmun və forma baxımından şərh edir.

**Fənlərarası inteqrasiya:** İnf.: 3.3.2.; H-b.: 3.1.1.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5.
**İstifadə olunan iş formaları:** Cütlükdə iş
**İstifadə olunan üsullar:** Müzakirə, qalereya gəzintisi
**Təchizat:** Flomasterlər, rəngli karandaşlar, pastel təbaşirlər

**Dərsin gedişi / MOTİVASİYA**

Motivasiya nümunələrindən yalnız biri tətbiq edilə bilər.

1. Müəllim yazı lövhəsindən dərslikdə verilən natürmortun eyni ölçülü vərəqlərdə müxtəlif tərtib edilmiş formalarının surətini asır və soruşur:

– Natürmort vərəqlərin hansında daha yaxşı görünür? Nəyə görə? (fərziyyələr)
– Əgər natürmortda öndə qoyulan əşyalar qabdan arxada olsa idi, natürmort necə görünərdi? Nəyə görə? (Böyük qab onların qarşısını kəsərdi və kiçik əşyaların yaxşı görünməsinə mane olardı).
– Deməli, natürmortu quran zaman elə etmək lazımdır ki, seyr edən onun gözəlliyini “görə” bilsin. Bu, düzgün kompozisiya deməkdir.

2. Müəllim yazı lövhəsindən eyni obyektlərdən (həyət, ağaclar, ev, hasar, toyuqlar və s.) ibarət iki rəsm asır. Hər iki rəsmdə ev, həyət, ağaclar, hasar, toyuqlar və s. təsvir edilib. Birinci rəsmdə hasar 1-ci planda, ev ikinci planda, 3-cü planda həyət, toyuqlar, 4-cü planda isə ağaclar və s. verilir. Rəsmdə hasar və ev digər planları görməyə mane olur. Vərəqin yarısını onlar tutur. İkinci rəsmdə isə 1-ci planda həyət və toyuqlar, 2-ci planda ev, 3-cü planda ağaclar, 4-cü planda hasar və s. təsvir edilib. Rəsmdə bütün obyektlər rahat görünür. Müəllim sual verir:

– Şəkillər haqqında nə deyə bilərsiniz? (fərziyyələr)
– Hansı rəsmdə obyektlər daha uyğun yerləşdirilib? (İkinci rəsmdə - ona görə ki, nisbətən böyük ölçüdə olan obyektlər arxada yerləşdirilib. Rəsm daha gözəl görünür. Birincidə isə böyük obyektlər qabaqda olduğu üçün nisbətən daha kiçiklər yaxşı görünmür.)
–Bu düzgün kompozisiya adlanır. İkinci rəsmdə elementlərin bir-birilə əlaqəsi daha uğurludur.

Tədqiqat sualı: ***Rəssam əsər yaradan zaman nələrə diqqət etməlidir?*** Şagirdlər fərziyyələrini söyləyirlər.

**TƏDQİQATIN APARILMASI**

Şagirdlər dərslikdə olan məlumatla tanış olurlar. Müəllim hər sıraya cütlükdə işləməklə naturadan rəsm çəkməyi tapşırır. 1-ci və 3-cü sıralarda oturan şagirdlər yanındakı yoldaşı ilə “Pəncərədən görünüş” mövzusunda eskiz çəkir və orada kompozisiya qaydalarını nəzərə alırlar. Şagirdlər pəncərənin qarşısında durub naturadan çəkə bilərlər. Sonra yerlərində oturub rəsmlərini yekunlaşdırırlar.

**Qeyd:** *Təbiətin naturadan eskizi zamanı ibtidai siniflərin çətinlik çəkdikləri sahələrdən biri*



LAYİHƏ

*kompozisiya həllindədir. Bu problemi aradan qaldırmaq üçün nişanlayıcıdan istifadə etmək olar. O, möhkəm kağızdan və ya kartondan təqribən uzunluğu 11 sm, eni 8 sm ölçüdə (11x8) hazırlanır. Düzbucaqlı deşik-göz rəsmin yerinə yetiriləcəyi kağızın ölçülərinə uyğun olur. Deşiyin ölçüsü təqribən 8x5 sm-dir. Şagirdlər üçün nişanlayıcı ilə iş bir növ "foto ilə şəklini çəkmə" oyununu xatırladır. Həmçinin bu tədrisin başlanğıcıdır. Şagirdlər pəncərədən müxtəlif ağaclara, kollara, havaya, otlara baxırlar. Vərəqdə gözəl çəkmək və yerləşdirmək üçün isə öz "fotoapparat" larından istifadə edirlər.Çəkmək istədikləri yerə deşikdən bir gözlərini yumaraq baxırlar. Ən maraqlı hissəni tapana kimi fotoapparatı yuxarı , aşağı, sağa, sola hərəkət etdirirlər. Onu gözlərinə uzaqlaşdırıb və ya yaxınlaşdıranda deşikdən bir halda çox, digər halda isə az cisim görürlər. Şagirdlərin özləri üçün ən maraqlı görünən təbiət guşəsini və baxış nöqtəsini seçmələrinə bu üsul kömək edir. Belə seçmə onları bir çox səhvə yol verməkdən qoruyur. Yəni nişanlayıcı vasitəsilə hər təbiət cismini vərəqdə harada yerləşdirməyi müəyyənləşdirirlər. Bu isə onları düzgün kompozisiya həllini tapana kimi işlərini dönö-dönə pozmaqdan qoruyur. Bəzən kompozisiya elə qurulur ki, ön planda şagird iri əşyaları təsvir edir, sonra fəza gəlir, vərəqin yuxarısında isə kiçik əşyalar yerləşdirilir. Nişanlayıcının köməyi ilə uşaqlar görürlər ki, belə kompozisiya həllində böyük cisimlər o biri əşyaların qarşısını tutur və ondan başqa digər cisimlər yaxşı görünmür. Rəsmin ifadəliliyi seçilən vərəqin üfüqi və ya şaquli vəziyyətindən də çox asılıdır.*

2-ci sırada oturan şagirdlər isə cütlükdə məktəb ləvazimatlarına dair etyüd çəkirlər. Müəllim məktəb ləvazimatlarından ibarət natura qurur.

Öncə, dərslikdə göstərildiyi kimi karandaşla çəkirlər. Sonra rəng həllinə keçid alırlar. Çətinlik çəkən (xüsusi qayğıya ehtiyacı olan) şagirdlərə sadə tapşırığı yerinə yetirməyi tapşırmaq olar. Müəllim izah edir ki, rəsm zamanı yaxın və uzaqlığı, kontrastlığı nəzərə alsınlar. Cütlərin özlərini dərəcələrə görə qiymətləndirəcəyini onlara xatırladır və cədvəli yazı lövhəsindən asır.

## MƏLUMAT MÜBADİLƏSİ

Cütlükdə işlənən rəsmlər yazı taxtasının qarşısına düzülür. Şagirdlər qalereya gəzintisi üsulu vasitəsilə yoldaşlarının rəsmlərinə baxır və fikirlərini söyləyirlər.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

– Kompozisiya nədir? Əsəri yaradan zaman hansı təsvir ardıcıllığına əməl etmək lazımdır?

## ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

Müəllim şagirdlərə müxtəlif əsərlər – natürmort, süjetli əsər, mənzərə şəkillərini ardıcıllıqla göstərir. Onlar rəsmlərdə verilən kompozisiya qaydalarına əsaslanaraq mövzunu təyin edirlər. Əsərin koloriti, əhvali-ruhiyyəsi, obyektlərin forması, kontrastlığın verilməsi haqqında fikirlərini söyləyirlər.

## YARADICI TƏTBİQETMƏ

Süjetli kompozisiya təsvir etmək.

## QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Yaratma;
- Təsviretmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Rəngli karandaşlar, flomaster, pastel təbaşirlər vasitəsilə naturadan kənar xətlərini itirərək təsvirlər yaradır. | Rəngli karandaşlar, flomaster, pastel təbaşirlər vasitəsilə naturaya əsasən uyğun təsvirlər yaradır. | Rəngli karandaşlar, flomaster, pastel təbaşirlər vasitəsilə naturadan kiçik səhvlərə yol verərək təsvirlər yaradır. | Rəngli karandaşlar, flomaster, pastel təbaşirlər vasitəsilə naturadan düzgün rəng həlli olan təsvirlər yaradır. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Eskiz və etyüdləri naturadan nisbi dəqiqliklə təsvir edir. | Eskiz və etyüdləri naturadan nisbi dəqiqliklə kobud səhvlərə yol verərək təsvir edir. | Eskiz və etyüdləri naturadan nisbi dəqiqliklə nümunələr əsasında təsvir edir. | Eskiz və etyüdləri naturadan nisbi dəqiqliklə sərbəst təsvir edir. |
| Kompozisiyanı yalnız məzmun baxımından şərh edir. | Kompozisiyanı məzmun və forma baxımından səhvlərlə şərh edir. | Kompozisiyanı məzmun və forma baxımından qısa şərh edir. | Kompozisiyanı məzmun və forma baxımından ətraflı şərh edir. |

# 13. RƏNGKARLIQ

**Məşğələ növü:** Mövzu üzrə rəsm
**Alt-standart:** 1.1.3.; 2.1.1.; 2.1.4.; 3.1.2.
**Təlim nəticələri:**
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Toğrul Nərimanbəyov və onun ən məşhur əsərlərini fərqləndirir;
- akvarel və quaş vasitəsilə sadə təsvirlər yaradır;
- rənglərdən istifadə edərək süjetli rəsmlərdən ibarət kompozisiyalar qurur;
- əsərlərdə verilən rəngləri məna çalarlarına görə şərh edir.

**Fənlərarası inteqrasiya:** Tex.: 4.1.1.; H-b.: 1.2.3.; İnf.: 2.2.3.
**İstifadə olunan iş formaları:** Fərdi, qrup və cütlükdə iş
**İstifadə olunan üsullar:** Açar sözlər, müzakirə
**Təchizat:** flomasterlə boyaların adı yazılmış A4 formatlı vərəqlər, akvarel, quaş

### Dərsin gedişi / MOTİVASİYA

Müəllim akvarel, quaş, yağlı boya, fırça sözlərinin hərəsini müxtəlif rəngdə olan flomasterlə A4 formatda olan vərəqə yazır. Sonra həmin rəngli sözlər yazılmış vərəqləri şagirdlərin sayına uyğun 4–6 hissəyə bölür.




*Məsələn: 1-ci qrupu yaratmaq üçün nümunədə göstərilən qaydada vərəqə rəngli flomasterlə "akvarel" sözü yazılır. Sonra vərəq göstərilən xətlərin üzərindən kəsilərək hissələrə ayrılır. Bu qaydada digər sözləri də yazıb, sonra vərəqi qrupun üzvlərinin sayına görə (6-dan çox olmamalıdır) hissələrə bölmək lazımdır.*

Hissələri qarışdırır və hər şagirdə birini verərək deyir:
– Sizə hər hansı bir söz yazılan vərəqin bir hissəsi verilib. Yoldaşlarınızla eyni rəngdə olan hissələri birləşdirib həmin sözün nədən ibarət olmasını tapın.

Şagirdlər eyni rəngdə olan vərəqləri birləşdirərək hansı sözün yazılmasını aydınlaşdırırlar.

***Qeyd:** Müəllim sinfin səviyyəsini nəzərə alaraq vaxt problemi yaratmamaq üçün həmin sözləri hərəsindən kiçik vərəqlərdə 5–6 nümunə yazmaqla da şagirdləri qrupa ayıra bilər.*

Müəllim qruplardan hansı sözün alınmasını soruşur və onları yazı lövhəsinə yazır. Təkrar həmin sözləri oxuyaraq deyir:
– Akvarel, quaş, yağlı boya, fırça – bu materiallardan harada istifadə edilir? (fərziyyələr – rəngkarlıq)

Tədqiqat sualı: ***Toğrul Nərimanbəyov yaradıcılığının fərqli cəhətləri nədir? Nar mövzusunda rəsmi necə təsvir etmək olar?*** Şagirdlərin fikri dinlənilir.

### TƏDQİQATIN APARILMASI

Şagirdlər dərslikdə olan mətnlə tanış olurlar. Oxuduqdan sonra müəllim müzakirə üçün suallar verir:
- Akvarel və quaşın fərqi nədədir?
- Toğrul Nərimanbəyov haqqında nə deyə bilərsiz?
- Onun əsərləri hansı koloritdədir?
- Rəssamın əsərlərinin əksəriyyətində verilən obyekt nədir? və s.



LAYİHƏ

Sonra onlar cütlükdə mətndə verilən sual və tapşırıqları müzakirə edirlər.Bəzi cütlüklərin fikirləri dinlənilir. Onların anlamadığı fikirləri müəllim müzakirə vasitəsilə izah edir. Sonra şagirdlər yenidən qruplarda quaş və ya akvarel boyalarından istifadə edərək "Nar" mövzusunda rəsm çəkirlər (müəllim mövzunu dəyişə də bilər). Bu zaman şagirdlərə akvarel və quaşla işləmə texnikası xatırlanmalıdır. Müəllim dərsin sonunda *qrup fəaliyyətinin qiymətləndirilməsindən* istifadə ediləcəyini xatırladır və meyarları yazı lövhəsindən asır. Çətinlik çəkən (xüsusi qayğıya ehtiyacı olan) şagirdlərə sadə tapşırığı yerinə yetirməyi tapşırmaq olar.

**MƏLUMAT MÜBADİLƏSİ**

Qruplar rəsmlərini nümayiş etdirir. Digər qruplar işlərə öz münasibətini bildirir.

**MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ**

Müəllim şagirdlərin diqqətini quaş və akvarellə çəkdikləri rəsmlərə yönəldir və soruşur: Rəngləri məna çalarlarına görə necə izah edə bilərsiz? Akvarel və quaş boyaları arasında fərq nədir? Rəssam əsərlərində rəngin rolu nədədir?

**ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ**

– Təsviri incəsənətin növü ilə janrı arasında fərq nədir?
-Təsviri incəsənətin rəngkarlıq növündə işləyən hansı rəssamları tanıyırsız?
– Quaşla yağlı boya arasında fərq nədir?

**YARADICI TƏTBİQETMƏ**

Sevimli çiçəyin rəsmini həm akvarel, həm də quaş boyaları ilə çəkmək və onların görünüşündə olan fərqi müqayisə etmək.

**QİYMƏTLƏNDİRMƏ**

*Qiymətləndirmə meyarları:*

- Fərqləndirmə;
- Yaratma;
- Qurma;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Toğrul Nərimanbəyov və onun ən məşhur əsərlərini düzgün əsaslandırmadan fərqləndirir. | Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Toğrul Nərimanbəyov və onun ən məşhur əsərlərini suallar əsasında fərqləndirir. | Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Toğrul Nərimanbəyov və onun ən məşhur əsərlərini kiçik nöqsanlarla fərqləndirir. | Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Toğrul Nərimanbəyov və onun ən məşhur əsərlərini əsaslı fərqləndirir. |
| Yalnız quaş vasitəsilə sadə təsvirlər yaradır. | Akvarel və quaş vasitəsilə sadə təsvirləri müəllimin köməyilə yaradır. | Akvarel və quaş vasitəsilə sadə təsvirləri nümunələr əsasında yaradır. | Akvarel və quaş vasitəsilə sadə təsvirləri sərbəst yaradır. |
| Rənglərdən istifadə edərək süjetli rəsmlərdən ibarət kompozisiyaları çətinliklə qurur. | Rənglərdən istifadə edərək süjetli rəsmlərdən ibarət kompozisiyaları suallar əsasında qurur. | Rənglərdən istifadə edərək süjetli rəsmlərdən ibarət bəsit kompozisiyalar qurur. | Rənglərdən istifadə edərək süjetli rəsmlərdən ibarət dolğun kompozisiyalar qurur. |
| Əsərlərdə verilən rəngləri məna çalarlarına görə qarışdıraraq şərh edir. | Əsərlərdə verilən rəngləri məna çalarlarına görə səhvlərlə şərh edir. | Əsərlərdə verilən rəngləri məna çalarlarına görə qısa şərh edir. | Əsərlərdə verilən rəngləri məna çalarlarına görə ətraflı şərh edir. |

LAYİHƏ

# 14. QRAFİKA

**Məşğələ növü:** Mövzu üzrə rəsm
**Alt-standart:** 2.1.1.; 2.1.2.; 3.1.1.
**Təlim nəticələri:**
- rəngli karandaşlar, pastel tabaşirlər və s. vasitəsilə sadə təsvirlər yaradır;
- kompozisiyada bədii ifadə vasitələrindən olan tondan istifadə bacarıqları nümayiş etdirir;
- əsərləri məzmun və forma baxımından şərh edir.

**Fənlərarası inteqrasiya:** Tex.: 4.1.1.; H-b.: 1.2.3.; 3.1.1.; İnf.: 2.2.3.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5.
**İstifadə olunan iş formaları:** Cütlükdə iş
**İstifadə olunan üsullar:** Müzakirə, beyin həmləsi, İQS (İnsert)
**Təchizat və resurs:** Qrafik əsərlərin surəti, sadə karandaşlar – HB, 2HB, qara tuş qələm, pastel tabaşirlər

## Dərsin gedişi / MOTİVASİYA

Yazı lövhəsindən qrafik – ağ və qara rəsmlər asılır və müəllim soruşur:
– Şəkillərdə nə təsvir olunub? (fərziyyələr)
– Onları rəssam hansı materiallarla çəkib? (Qara rəngdə olan müxtəlif materiallarla – qara karandaş, sadə karandaş, kömür və s.).
– Rəssam onları yalnız bir rənglə işləyibsə, əsərlər təsviri incəsənətin hansı növünə aiddir? (Qrafika).
-Əsərlərdəki məzmun və forma haqında nə deyə bilərsiniz?

Tədqiqat sualı: ***Qrafik əsərlər təsviri incəsənətin digər növlərindən nə ilə fərqlənir? Onları necə təsvir etmək olar?***
Şagirdlərin dedikləri bütün fikirlər yazı lövhəsinə yazılır.

## TƏDQİQATIN APARILMASI

Şagirdlərə dərslikdə olan mətnin surəti paylanır. Onlar mətni İnteraktiv Qeydetmə Sistemindən istifadə edərək oxuyurlar.

İşarələr yazı lövhəsindən asılır ("v" – bilirəm, "+" – yeni informasiyadır, "?" – anlamadım). Oxuduqdan sonra müəllim deyir: – İndi işarələmə cədvəli tutun. Bildikləriniz, yeni və anlamadığınız informasiyaları cədvəldə sistemləşdirin.

| **"v"– bilirəm** | **"+"– yeni informasiyadır** | **"?"– anlamadım** |
|---|---|---|
| 1 | 1 | 1 |
| 2 | 2 | 2 |
| 3 | 3 | 3 |
| 4 | 4 | 4 |

Oxuduqdan sonra şagirdlər cütlükdə — yanında oturanla mətni müzakirə edirlər. Bəzi cütlüklərin fikirləri dinlənildikdən sonra onların anlamadığı fikirləri müəllim müzakirə vasitəsilə izah edir. Bu zaman anlayışları – xətt, ştrix, tonu xüsusilə vurğulayıb, ona aid nümunələr göstərə bilər.
Mətn mənimsənildikdən sonra şagirdlər yenidən cütlərdə hər hansı rəsmi fikirləşib çəkir və onu qrafik (qara və ya sadə karandaşla, qara tuş qələmlə, pastel tabaşirlələ) üslubda göstərilən üsullardan biri ilə ştrixləyirlər. Çətinlik çəkən (xüsusi qayğıya ehtiyacı olan) şagirdlər sadə tapşırığı yerinə yetirirlər.

## MƏLUMAT MÜBADİLƏSİ

Rəsmlər yazı lövhəsindən və ya divardan asılır. Cütlər işlərini təqdim edir və digər şagirdlər onlara suallar verirlər.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

– Qrafika nədir? Qrafika və rəngkarlığın fərqi nədir? Natürmortu qrafik üslubda rəsm edərkən rəng fərqini (məsələn, qab – qəhvəyi, fincan isə sarı rəngdədir) necə vermək lazımdır? Xətt, ştrix, ton nə deməkdir?



LAYİHƏ

### ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

– Hansı qrafik rəssamları tanıyırsınız?
-İlk rəsm nümunələrinə harada rast gəlmisiniz?

### YARADICI TƏTBİQETMƏ

Qara rəngli pastel tabaşirlə təsəvvürə əsasən portret çəkmək.

### QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Yaratma;
- Nümayişetdirmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Rəngli karandaşlar, pastel tabaşirlər və s. vasitəsilə sadə təsvirləri çox səliqəsiz yaradır. | Rəngli karandaşlar, pastel tabaşirlər və s. vasitəsilə sadə təsvirləri müəllimin köməyi ilə yaradır. | Rəngli karandaşlar, pastel tabaşirlər və s. vasitəsilə sadə təsvirləri tərəddüdlə yaradır. | Rəngli karandaşlar, pastel tabaşirlər və s. vasitəsilə sadə təsvirləri sərbəst yaradır. |
| Kompozisiyada bədii ifadə vasitələrindən olan tondan çətinliklə istifadə bacarıqları nümayiş etdirir. | Kompozisiyada bədii ifadə vasitələrindən olan tondan suallar əsasında istifadə bacarıqları nümayiş etdirir. | Kompozisiyada bədii ifadə vasitələrindən olan tondan nümunələr əsasında istifadə bacarıqları nümayiş etdirir. | Kompozisiyada bədii ifadə vasitələrindən olan tondan sərbəst istifadə bacarıqları nümayiş etdirir. |
| Əsərləri yalnız məzmun baxımından şərh edir. | Əsərləri məzmun və forma baxımından səhvlərlə şərh edir. | Əsərləri məzmun və forma baxımından qısa şərh edir. | Əsərləri məzmun və forma baxımından geniş şərh edir. |

## 15. RƏSSAM ƏSƏRİNDƏ QARA RƏNGİN GÜCÜ

**Məşğələ növü:** Mövzu üzrə rəsm
**Alt-standart:**. 1.1.1.: 1.1.3.; 2.1.1.; 2.1.2.
**Təlim nəticələri:**

- təsviri incəsənətin növlərindən biri olan qrafikanı nümunələr əsasında fərqləndirir;
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Ələkbər Rzaquliyev və onun ən məşhur əsərlərini fərqləndirir;
- təsvir alətləri qara flomaster, qara pastel təbaşir, qara karandaş vasitəsilə sadə təsvirlər yaradır;
- təsviri kompozisiyalarda tondan istifadə bacarıqları nümayiş etdirir.

**Fənlərarası inteqrasiya:** H-b.:2.1.2; 2.1.3.; Riy.:3.1.1.;4.1.1.
**İstifadə olunan iş formaları:** Qrup işi
**İstifadə olunan üsullar:** Müzakirə, qalereya gəzintisi
**Təchizat:** Qara flomaster, qara pastel təbaşir, qara karandaş

### Dərsin gedişi / MOTİVASİYA

Müəllim soruşur:
- Qrafika nədir? (14-cü mövzuda öyrəndiyini deyir)
- Qrafik rəssamlardan kimi tanıyırsınız? (fərziyyələr)
- Bu gün qrafik rəssamlardan birinin də yaradıcılığı ilə tanış olacağıq. Onun adını aşağıdakı krassvord vasitəsilə tapırıq.

Müəllim aşağıdakı sualları verir:



LAYİHƏ

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | 8.S | | | |
| | | | | | | | İ | | | |
| | | 3.K | 4.K | | | 7.A | M | | 10.O | |
| | | O | O | 5.S | | N | M | | R | |
| | | M | N | O | | İ | E | | N | |
| | 2.Q | P | T | Y | | M | T | 9.H | A | 11.L |
| 1.B | A | O | R | U | 6.Q | A | R | E | M | U |
| **Ə.** | **R** | **Z** | **A** | **Q** | **U** | **L** | **İ** | **Y** | **E** | **V** |
| N | I | İ | S | | A | İ | Y | K | N | R |
| Ö | Ş | S | T | | Ş | S | A | Ə | T | |
| V | I | İ | | | | T | | L | | |
| Ş | Q | Y | | | | | | T | | |
| Ə | | A | | | | | | Ə | | |
| Y | | | | | | | | R | | |
| İ | | | | | | | | A | | |
| | | | | | | | | Ş | | |

1. Soyuq rənglərdən hansı ola bilər?
2. Bənövşəyi, yaşıl və narıncə rənglər necə adlanır?
3. Təsvirlərdəki elementlərin bir-birilə əlaqəsi necə adlanır?
4. Bir-birindən kəskin fərqlənən rənglər necə adlanır?
5. Bizə şaxta-sazağı, qarı, buzu,dənizi xatırladan rənglər necə adlanır?
6. Hansı sulu boyaları tanıyırsız?
7. Heyvanları təsvir edən rəssamı necə adlandırırlar?
8. Cisimlərin mərkəzindən keçən qatlanma xətti necə adlanır?
9. Cəlal Qaryağdı kimdir?
10. Təkrarlanan naxış necə adlanır?
11. Fransada, Parisin mərkəzində hansı muzey yerləşir?

- Goy rəngdə olan hərifləri oxuyanda hansı rəssam alınır? (Ə.Rzaquliyev- Ələkbər Rzaquliyev)

Tədqiqat sualı: ***Ələkbər Rzaquliyev haqqında nə bilirsiniz? "Qədim Bakı" mövzusunda qrafik rəsmi necə çəkmək olar?***

Şagirdlərin dedikləri dinlənilir.

## TƏDQİQATIN APARILMASI

Şagirdlər dərslikdə olan materiallarla, Ələkbər Rzaquliyevin yaradıcılığı ilə tanış olurlar. Müəllim müzakirə üçün suallar verir:

- Ələkbər Rzaquliyevin əsərlərində hansı tikililəri müşahidə edirsiniz?
- Onlar haqqında nə bilirsiniz?
- Əsərlərdə ağ və qara rəngin rolu nədən ibarətdir?

Sonra müəllim onları qədim Bakıya aid dörd müxtəif mənzərə şəkilləri ilə qruplara ayırır. Qruplar "Qədim Bakı" mövzusunda qrafik rəsm çəkirlər. Rəsmi xətt, ştrix, ton və ya cizgilərlə yerinə yetirirlər. Çətinlik çəkən (xüsusi qayğıya ehtiyacı olan) şagirdlərə müəllim tərəfindən çəkilmiş Bakı şəhərinin qədim mənzərəsini xətləməyi tapşırmaq olar.

Müəllim qruplara yaxınlaşaraq onları istiqamətləndirir. O, dərsin sonunda *qrupun özünüqiymətləndirməsindən* istifadə ediləcəyini xatırladır və meyarları yazı lövhəsindən asır.

## MƏLUMAT MÜBADİLƏSİ

Qruplar çəkdikləri mənzərələri nümayiş etdirirlər. Şagirdlər qalereya gəzintisi üsulu vasitəsilə yoldaşlarının rəsmlərinə baxır və fikirlərini söyləyirlər.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

Müəllim şagirdlərə suallar verir: – Ələkbər Rzaquliyevin hansı əsərləri var? -"Qədim Bakı" mövzusunda qrafik rəsmi hansı ardıcıllıqla çəkdiniz?

LAYİHƏ

### ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

- Qrafik rəssamlardan kimi tanıyırsınız?- Qrafika və rəngkarlıq növlərinin fərqi nədədir?
- Onların yaradılmasında hansı bədii ifadəli vasitələrdən istifadə edilir?

### YARADICI TƏTBİQETMƏ

"Natürmort" mövzusunda qrafik rəsm çəkmək.

### QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Fərqləndirmə;
- Yaratma;
- Nümayişetdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri incəsənətin növlərindən biri olan qrafikanı nümunələr əsasında çətinliklə fərqləndirir. | Təsviri incəsənətin növlərindən biri olan qrafikanı nümunələr əsasında sualların köməyi ilə fərqləndirir. | Təsviri incəsənətin növlərindən biri olan qrafikanı nümunələr əsasında əsasən fərqləndirir. | Təsviri incəsənətin növlərindən biri olan qrafikanı nümunələr əsasında əsaslı fərqləndirir. |
| Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Ələkbər Rzaquliyev və onun ən məşhur əsərlərini əsaslandırmadan fərqləndirir. | Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Ələkbər Rzaquliyev və onun ən məşhur əsərlərini müəllimin köməyi ilə fərqləndirir. | Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Ələkbər Rzaquliyev və onun ən məşhur əsərlərini nisbətən fərqləndirir. | Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Ələkbər Rzaquliyev və onun ən məşhur əsərlərini tam fərqləndirir. |
| Təsvir alətlərindən yalnız qara karandaş vasitəsilə sadə təsvirlər yaradır. | Təsvir alətləri qara flomaster, qara pastel təbaşir, qara karandaş vasitəsilə sadə təsvirləri nümunələr əsasında yaradır. | Təsvir alətləri qara flomaster, qara pastel təbaşir, qara karandaş vasitəsilə sadə təsvirləri kiçik səhvlərlə yaradır. | Təsvir alətləri qara flomaster, qara pastel təbaşir, qara karandaş vasitəsilə sadə təsvirləri sərbəst yaradır. |
| Təsviri kompozisiyalarda tondan zəif istifadə bacarıqları nümayiş etdirir. | Təsviri kompozisiyalarda tondan müəllimin köməyi ilə istifadə bacarıqları nümayiş etdirir. | Təsviri kompozisiyalarda tondan əsasən istifadə bacarıqları nümayiş etdirir. | Təsviri kompozisiyalarda tondan sərbəst istifadə bacarıqları nümayiş etdirir. |

## 16. SİLUET

**Məşğələ növü:** Dekorativ-tətbiqi fəaliyyət/Aplikasiya
**Alt-standart:** 2.1.1.; 2.1.2.; 2.1.3.
**Təlim nəticələri:**

- karandaş vasitəsilə sadə təsvirlər yaradır;
- dekorativ kompozisiyalarda bədii ifadə vasitəsi siluetdən istifadə bacarıqları nümayiş etdirir;
- varlıqları təsəvvürə əsasən naturadan nisbi dəqiqliklə təsvir edir.

**Fənlərarası inteqrasiya:** Tex.: 1.1.2.; 1.3.3.; A-d.: 1.1.2.
**İstifadə olunan iş formaları:** Qrup
**İstifadə olunan üsullar:** Müzakirə, beyin həmləsi
**Təchizat:** A4 formatlı ağ və qara vərəq, karandaş, pozan, qayçı

### Dərsin gedişi / MOTİVASİYA

Təklif olunan iki variantdan biri tətbiq edilə bilər.
**I variant:** Müəllim şagirdlərə tapmaca oxuyur.



LAYİHƏ

| |
|---|
| Yerisəm, izlər məni,<br>Dayansam, gözlər məni. |

– Bu, nədir? (Kölgə, siluet).
– Siluet əşyaların, fiqurların birrəngli təsviridir.

**II variant:** Müəllim əllərini dərslikdə göstərildiyi kimi – işığın qarşısına tutaraq yazı lövhəsinə onun kölgəsini salır və nəticədə heyvanların siluetləri alınır. Sonra soruşur:
– Divardakı təsvirləri aydın görmək olur? (Xeyr).
– Bu, nədir? (İz, kölgə).
– Kölgə nə vaxt yaranır? (fərziyyələr)
– Həmin kölgələrə siluet deyilir.

Tədqiqat sualı: ***Silueti kağızdan necə kəsmək olar?***
Tədqiqat sualı əsasında şagirdlərin fərziyyələri dinlənilir və yazı lövhəsinə yazılır.

## TƏDQİQATIN APARILMASI

Şagirdlər dərslikdə olan materiallarla tanış olurlar. Onlar 5-6 nəfərdən ibarət 5 qrupa (it, göyərçin, balıq, qayıq, çaydan) bölünürlər. Siluetə harada rast gəldiklərini və onun aplikasiyası üçün nəyin vacib olduğunu müzakirə edirlər. Hər qrup varlıqların adına uyğun təsvirini ağ və ya qara kağız üzərində çəkir. 1-ci qrup itin, 2-ci qrup göyərçinin, 3-cü qrup balığın, 4-cü qrup qayığın, 5-ci qrup çaydanın rəsmini rəngli kağız və karton üzərinə çəkdikdən sonra onun siluetini (kənarlarını) kəsib başqa bir vərəqə yapışdırırlar.

| |
|---|
| **ƏLAVƏ MATERİAL:** Siluet – əşyaların, fiqurların birrəngli təsvirinə deyilir. Onları varlıqların kənar xətlərini çəkməklə göstərmək olar. Onlar ağ kağız üzərində qara boya, karandaşla, qara kağız üzərində isə ağ boya ilə çəkilir. Onları rəngli kağız və parçadan da kəsmək olar. |

## MƏLUMAT MÜBADİLƏSİ

Qruplar işlərini təqdim edirlər. Digər qruplar fikirlərini bildirirlər.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

– Siluetə harada rast gəlmisiniz?

## ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

Müəllim şagirdlərin diqqətini tədqiqat sualına yönəldir və soruşur:
– Silueti necə çəkmək olar?
– Həyatda hər bir varlığın kölgəsi, silueti var. Siluet varlıqların kənar xətlərinin verilməsi ilə yaranır. Ona görə də yaxşı seyrçi olmaq, müşahidələr aparmaq və gördüklərinin formasına, kənar xətlərinə diqqətlə fikir vermək lazımdır.

## YARADICI TƏTBİQETMƏ

Nəqliyyat vasitələrinin siluetini düzəltmək.

## QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*
- Yaratma;
- Nümayişetdirmə;
- Təsviretmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Karandaş vasitəsilə sadə təsvirləri mütənasibliyi nəzərə almadan yaradır. | Karandaş vasitəsilə sadə təsvirləri müəllimin köməyi ilə yaradır. | Karandaş vasitəsilə sadə təsvirləri kiçik səhvlərlə yaradır. | Karandaş vasitəsilə sadə təsvirləri sərbəst yaradır. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Dekorativ kompozisiyalarda bədii ifadə vasitəsi siluetdən istifadə bacarıqlarını zəif nümayiş etdirir. | Dekorativ kompozisiyalarda bədii ifadə vasitəsi siluetdən istifadə bacarıqlarını nümunələr əsasında nümayiş etdirir. | Dekorativ kompozisiyalarda bədii ifadə vasitəsi siluetdən istifadə bacarıqlarını əsasən nümayiş etdirir. | Dekorativ kompozisiyalarda bədii ifadə vasitəsi siluetdən düzgün istifadə bacarıqları nümayiş etdirir. |
| Varlıqları təsəvvürə əsasən naturadan nisbi dəqiqliklə çətinliklə təsvir edir. | Varlıqları təsəvvürə əsasən naturadan nisbi dəqiqliklə suallar əsasında təsvir edir. | Varlıqları təsəvvürə əsasən naturadan nisbi dəqiqliklə qurma qaydalarında kiçik səhvlərə yol verərək təsvir edir. | Varlıqları təsəvvürə əsasən naturadan nisbi dəqiqliklə mərhələlərə uyğun təsvir edir. |

# 17. RƏSSAM-İLLÜSTRATOR

**Məşğələ növü:** Mövzu üzrə rəsm
**Alt-standart:** 1.1.3.; 2.1.1. 2.1.2. 2.1.4.
**Təlim nəticələri:**
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Qəzənfər Xalıqov və onun ən məşhur əsərlərini fərqləndirir;
- rəngli karandaşlar, flomaster və quaş vasitəsilə sadə təsvirlər yaradır;
- illüstrasiyadan ibarət kompozisiyalarda koloritdən istifadə bacarıqları nümayiş etdirir;
- rənglərdən istifadə edərək sadə illüstrasiyadan ibarət kompozisiyalar qurur.

**Fənlərarası inteqrasiya:** İnf.: 3.3.2.; H-b.: 3.1.1.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5.
**İstifadə olunan iş formaları:** Fərdi və qrup işi
**İstifadə olunan üsullar:** Müzakirə, təriflər-suallar-təkliflər
**Təchizat:** Quaş, rəngli qələmlər, flomasterlər, rəngli kağız, karton, PVA yapışqanı

**Dərsin gedişi / MOTİVASİYA**

Müəllim şagirdlərə müxtəlif nağıl kitablarının illüstrasiyalarını göstərir və soruşur:
– Bu kitablar nə haqqındadır? (Nağıllar – "Tıq-tıq xanım", "Təpəgöz" və s.).
– Kitabların nağıllara aid olduğunu nəyə əsaslanıb dediniz? (Şəkillərinə).
– Kitaba şəkilləri – illüstrasiyaları kim çəkir? (Rəssam).

Tədqiqat sualı: *Qəzənfər Xalıqovun yaradıcılığının fərqli cəhətləri nədir?* ***İllüstrasiyaları necə çəkirlər?***

Şagirdlər fərziyyələrini söyləyirlər.

**TƏDQİQATIN APARILMASI**

Şagirdlər dərslikdə olan materialları oxuyurlar. Onlara müzakirə üçün suallar verilir:
-Qəzənfər Xalıqovun hansı əsərləri haqqında öyrəndiz?
-İllüstrasiya nə deməkdir? Və s.

Müəllim şagirdləri nağıl qəhrəmanlarının adları – Məlikməmməd, Göyçək Fatma, Qırmızıpapaq, Ələddin yazılmış kiçik vərəqlərlə 4 qrupa ayırır.

Hər qrupa fikirləşib bir nağılı seçmək tapşırılır. Qrup məsləhətləşib bir nağılı seçdikdən sonra qrupun nümayəndələri orada baş verən müxtəlif hadisələrə fərdi şəkildə illüstrasiya çəkirlər. Bu zaman yaxın və uzaqlıq nəzərə alınır. Sonra müəllim xatırladır ki, rəng həllində koloriti unutmasınlar. Personajların müsbət və ya mənfi rolda olmasını rənglə də göstərsinlər.

Məqsəd işin sonunda illüstrasiyaları cəmləyərək kitabça düzəltməkdir. Kitabı düzəldən zaman nağılda baş verən hadisələrin ardıcıllığına diqqət etmək üçün müəllim onlara istiqamətlər verir. Çətinlik çəkən (xüsusi qayğıya ehtiyacı olan) şagirdlərə sadə tapşırığı yerinə yetirməyi tapşırmaq olar.

Müəllim qiymətləndirmə zamanı *qrup fəaliyyətinin qiymətləndirilməsindən* istifadə ediləcəyini xatırladır və meyarlar yazı lövhəsindən asılır.

LAYİHƏ

## MƏLUMAT MÜBADİLƏSİ

Qruplar tərtib etdikləri kitabçaları təqdim edirlər və yaratdığı təsvirlərdə ifadə olunmuş fikirləri yoldaşlarına söyləyirlər. Onların təqdimatı zamanı digər qruplar suallarını, təriflərini və təkliflərini bildirirlər.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

– İllüstrasiya nədir? Miniatür nədir? İllüstrasiya ilə miniatürün fərqli cəhətləri nədir? İllüstrasiyanı çəkən zaman hansı qaydaları nəzərə aldınız?

## ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

– İllüstrasiyaların çəkilməsində məqsəd nədir?
– Rəssam-illüstratorlardan kimi tanıyırsınız?

## YARADICI TƏTBİQETMƏ

Əcnəbi nağıl qəhrəmanlarının aplikasiyasını düzəltmək.

## QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Fərqləndirmə;
- Yaratma;
- Nümayişetmə;
- Qurma.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Qəzənfər Xalıqov və onun ən məşhur əsərlərini düzgün əsaslandırmadan fərqləndirir. | Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Qəzənfər Xalıqov və onun ən məşhur əsərlərini suallar əsasında fərqləndirir. | Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Qəzənfər Xalıqov və onun ən məşhur əsərlərini kiçik nöqsanlarla fərqləndirir. | Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Qəzənfər Xalıqov və onun ən məşhur əsərlərini əsaslı fərqləndirir. |
| Yalnız rəngli karandaşlar və flomaster vasitəsilə sadə təsvirlər yaradır. | Rəngli karandaşlar, flomaster və quaş vasitəsilə sadə təsvirləri səliqəsiz yaradır. | Rəngli karandaşlar, flomaster və quaş vasitəsilə sadə təsvirləri əsasən yaradır. | Rəngli karandaşlar, flomaster və quaş vasitəsilə sadə təsvirləri sərbəst yaradır. |
| İllüstrasiyadan ibarət kompozisiyalarda koloritdən istifadə bacarıqları nümayiş etdirə bilmir. | İllüstrasiyadan ibarət kompozisiyalarda koloritdən zəif istifadə bacarıqları nümayiş etdirir. | İllüstrasiyadan ibarət kompozisiyalarda yalnız isti və soyuq koloritdən istifadə bacarıqları nümayiş etdirir. | İllüstrasiyadan ibarət kompozisiyalarda koloritdən tam istifadə bacarıqları nümayiş etdirir. |
| Yalnız yaxın rənglərdən istifadə edərək sadə illüstrasiyadan ibarət kompozisiyalar qurur. | Rənglərdən istifadə edərək sadə illüstrasiyadan ibarət kompozisiyaları nümunələr əsasında qurur. | Rənglərdən istifadə edərək sadə illüstrasiyadan ibarət bəsit kompozisiyalar qurur. | Rənglərdən istifadə edərək sadə illüstrasiyadan ibarət dolğun kompozisiyalar qurur. |

# 18. PORTRET

**Məşğələ növü:** Naturadan rəsm (təsəvvürə əsasən)
**Alt-standart:** 1.1.1.; .2.1.1.; 2.1.2.; 2.1.3.
**Təlim nəticələri:**

- təsviri incəsənətin janrlarınından portreti nümunələr əsasında fərqləndirir;
- rəngli karandaşlar, flomaster, pastel təbaşirlər və quaş vasitəsilə portret təsvirləri yaradır;
- portretin təsvirində bədii ifadə vasitələrindən olan koloritdən istifadə bacarıqları nümayiş

LAYİHƏ

etdirir;

- portreti təsəvvürə əsasən naturadan nisbi dəqiqliklə təsvir edir.

**Fənlərarası inteqrasiya:** İnf.: 1.1.1.; 3.1.1.; H-b.: 1.1.2.; 2.1.2.; 2.1.3.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5.
**İstifadə olunan iş formaları:** Cütlükdə iş
**İstifadə olunan üsullar:** Müzakirə
**Təchizat və resurs:** Portret mövzusunda rəssam əsərinin surəti, quaş, pastel tabaşirlər, flomasterlər

## Dərsin gedişi / MOTİVASİYA

Müəllim yazı lövhəsindən müxtəlif portret şəkilləri asır və soruşur:
– Şəkillərdə nə görürsünüz? (İnsan təsvirləri).
– Şəkilləri seyr edən zaman diqqəti cəlb edən, maraq yaradan başqa obyektlər varmı? (Xeyr).
– İnsan surətinin yaradılması təsviri incəsənətin hansı janrına (portret haqqında 1-ci sinifdən məlumatları var) aiddir? (Portret).
– Portreti nə üçün çəkirlər? (fərziyyələr)
– Tanıdığınız rəssamlardan kimin təsvir etdiyi portret yadınızda qalıb? (fərziyyələr)

Tədqiqat sualı: ***Portreti təsvir etmək üçün nə etmək lazımdır?***
***Portretdəki insanın həyat tərzini, nə ilə məşğul olduğunu necə müəyyənləşdirmək olar?***
Şagirdlər müxtəlif fikirlər söyləyirlər.

## TƏDQİQATIN APARILMASI

Şagirdlər 1 və 2 sayaraq cütlərə ayrılırlar. Dərslikdə olan mətni oxuyurlar. Cütlükdə portreti necə çəkməyi müzakirə edirlər. Müəllim onların diqqətini portretin çəkilmə ardıcıllığına yönəldir. Sonra şagirdlər cütlükdə albomlarında xoşlarına gələn peşə sahibinin, ya da istədikləri insanın portretini çəkirlər. Çəkdikləri rəsmi quaşla rəngləyirlər və bu zaman təzadlı rəngləri, koloriti nəzərə almaq tapşırılır. Rəsm zamanı insanın peşəsini, xarakterini, geyim tərzini, ətraf aləmi əks etdirmək də daha yaxşı olar. Xüsusi qayğıya ehtiyacı olan, çətinlik çəkən şagirdləri daha fəalların yanında oturmasını və ona kömək etməsini nəzərə almaq lazımdır. Müəllim dərsin sonunda şagirdlər özlərinin *qiymətləndirəcəyini* xatırladır və meyarları yazı lövhəsindən asır.

## MƏLUMAT MÜBADİLƏSİ

Müəllim sinif otağında şagirdlərin çəkdikləri portretlərdən ibarət sərgi təşkil edir. Onlar həm özlərinin, həm də yoldaşlarının rəsmlərini müzakirə edirlər.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

– Portret insanın hansı keyfiyyətlərini göstərir?
– Portreti təsvir edərkən hansı ardıcıllığa əməl etdiniz?

## ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

-İndiyədək tanış olduğunuz hansı rəssamların təsvir etdiyi portretlər yadınızda qalıb?

## YARADICI TƏTBİQETMƏ

Qəhrəman əsgərimizin portretini çəkmək.

## QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Yaratma;
- Nümayişetdirmə;
- Təsviretmə.



LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri incəsənətin janrlarınından portreti nümunələr əsasında əsassız fərqləndirir. | Təsviri incəsənətin janrlarınından portreti nümunələr əsasında müəllimin köməyi ilə fərqləndirir. | Təsviri incəsənətin janrlarınından portreti nümunələr əsasında bəzi nöqsanlarla fərqləndirir. | Təsviri incəsənətin janrlarınından portreti nümunələr əsasında əsaslı fərqləndirir. |
| Rəngli karandaşlar, flomaster vasitəsilə portret təsvirləri yaradır. | Rəngli karandaşlar, flomaster, pastel təbaşirlər və quaş vasitəsilə nümunələr əsasında portret təsvirləri yaradır. | Rəngli karandaşlar, flomaster, pastel təbaşirlər və quaş vasitəsilə portret təsvirlərini nisbətən səliqəsiz yaradır. | Rəngli karandaşlar, flomaster, pastel təbaşirlər və quaş vasitəsilə sərbəst portret təsvirləri yaradır. |
| Portretin təsvirində bədii ifadə vasitələrindən olan koloritdən istifadə bacarıqlarını çətinliklə nümayiş etdirir. | Portretin təsvirində bədii ifadə vasitələrindən olan koloritdən istifadə bacarıqlarını suallar əsasında nümayiş etdirir. | Portretin təsvirində bədii ifadə vasitələrindən olan koloritdən istifadə bacarıqlarında kiçik səhvlər nümayiş etdirir. | Portretin təsvirində bədii ifadə vasitələrindən olan koloritdən düzgün istifadə bacarıqları nümayiş etdirir. |
| Portreti təsəvvürə əsasən naturadan nisbi dəqiqliyi tam nəzərə almadan təsvir edir. | Portreti təsəvvürə əsasən naturadan nisbi dəqiqliklə müəllimin köməyi ilə təsvir edir. | Portreti təsəvvürə əsasən naturadan nisbi dəqiqlikdə kiçik səhvlərlə təsvir edir. | Portreti təsəvvürə əsasən naturadan nisbi dəqiqliyə əməl edərək təsvir edir. |

# 19. MƏİŞƏT MÖVZULARI

**Məşğələ növü:** Mövzu üzrə rəsm
**Alt-standart:** 1.1.1.; 2.1.1.; 2.1.2.
**Təlim nəticələri:**
- təsviri incəsənətin janrlarınından məişət mövzusunu nümunələr əsasında fərqləndirir;
- flomaster, pastel təbaşirlər və quaş vasitəsilə məişət mövzusunda süjetli rəsmlər yaradır;
- süjetli rəsmdə bədii ifadə vasitələrindən olan koloritdən istifadə bacarıqları nümayiş etdirir.

**Fənlərarası inteqrasiya:** H-b.: 1.1.2.; 2.1.2.; 2.1.3.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5.
**İstifadə olunan iş formaları:** Cütlükdə iş
**İstifadə olunan üsullar:** Müzakirə
**Təchizat və resurs:** Quaş, pastel tabaşirlər, flomasterlər

**Dərsin gedişi / MOTİVASİYA**

Müəllim yazı lövhəsindən müxtəlif məişət mövzusunda süjetli əsərlərin şəkillərini asır və soruşur:


1.Tahir Salahov "Növbədən qayıdarkən"


2.Böyükağa Mirzəzadə "Çəltik yığımı"


3. Mikayıl Abdullayev "Sevinc"

– Şəkillərdə nə görürsünüz? (İnsan və mənzərə təsvirləri).
– Şəkillərin məzmunu nə haqqındadır? (1- insanlar işdən qayıdırlar, 2-insanlar sudan çəltik yiğirlar, 3-

LAYİHƏ

ana övladı ilə təbiətdə çəmənliyin üzərində oturub)
-Deməli, 1 və 2-ci mövzular zəhmətə, 3-cü mövzu isə istirahətə aiddir. İnsan zəhmətlə, istirahətlə hər gün məşğuldur, yoxsa hərdən? (hər gün)
-Gündəlik həyatımızda baş verən hadisələri əks etdirən təsvirlər məişət mövzusunda süjetli rəsm adlanır.

Tədqiqat sualı: ***Məişət mövzusunda süjetli rəsmi necə təsvir etmək olar?***
Şagirdlər müxtəlif fikirlər söyləyirlər.

## TƏDQİQATIN APARILMASI

Şagirdlər 1 və 2 sayaraq cütlərə ayrılırlar. Dərslikdə olan mətni oxuyurlar. Müəllim hər cütə ayrı məişət mövzusu verə bilər. Bundan başqa lövhədə 3 mövzu (idman, istirahət, əmək) yazıb, onlardan birinə aid sujetli rəsm çəkməyi tapşıra bilər. Cütlükdə süjetli rəsmi necə çəkməyi müzakirə edirlər.

Müəllim onların diqqətini süjetli rəsmin çəkilmə ardıcıllığına yönəldir. Sonra şagirdlər cütlükdə albomlarında ya xoşlarına gələn, ya da müəllimin tapşırdığı süjetli rəsmi çəkirlər.

*Qeyd:* Öncə vərəqdə obyektlərin yerini qoyurlar. Yəni mövzuya uyğun olaraq onun harada baş verməsini və buna uyğun olaraq insanların surətini yaradırlar. Nəzərə almaq lazımdır ki, çox boşluq olmasın. Sonra hər obyekti uyğun formasına salırlar. Bu zaman mütənasibliyi, perspektivanı nəzərə almaq lazımdır. Kompozisiya qaydalarına uyğun olaraq rəsmi qurduqdan sonra onu rəngəyirlər.

Çəkdikləri rəsmi quaşla rəngləyirlər və bu zaman təzadlı rəngləri, koloriti nəzərə almaq tapşırılır. Rəsm zamanı kompozisiyada çəkdikləri insanın peşəsini, xarakterini, geyim tərzini də nəzərə alırlar. Xüsusi qayğıya ehtiyacı olan, çətinlik çəkən şagirdləri daha fəalların yanında oturmasını və ona kömək etməsini nəzərə almaq lazımdır. Müəllim dərsin sonunda şagirdlər özlərinin *qiymətləndirəcəyini* xatırladır və meyarları yazı lövhəsindən asır.

## MƏLUMAT MÜBADİLƏSİ

Müəllim sinif otağında şagirdlərin çəkdikləri süjetli rəsmlərdən ibarət sərgi təşkil edir. Onlar həm özlərinin, həm də yoldaşlarının rəsmlərini müzakirə edirlər.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

– Həyatınızda baş verən hansı əlamətdar hadisə yadınızda qalıb?

## ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

– Təsviri incəsənətin janrlarını müqayisə etsək, həm süjetli əsərlərdə və həm də portretlərdə insan obrazı əsas yer tutur. Onlar arasında fərq nədədir?

***Qeyd:*** *Şagirdlər çox zaman təsviri incəsənətin bu iki janrını fərqləndirməkdə çətinlik çəkirlər. Müəllim əsas fikrin şagirdlər tərəfindən səslənməsi üçün onlara yardım etməli və istiqamətləndirici suallar verməlidir. Məsələn: Şəkillərdə nə görürsünüz? (fərziyyələr – insan şəkilləri). Vəcihə Səmədovanın əsərinə baxanda təsvirdə diqqətinizi nə cəlb edir? (İnsanın cizgiləri, üzünün ifadəsi, paltarı və s.).*



*Vəcihə Səmədova. “Leyla Bədirbəylinin portreti”*



*Kamil Xanlarov. “Sahədə”*

*– Kamil Xanlarovun əsərinə baxanda sizə nə maraqlı göründü? (Qadınların nə işlə məşğul olması). Süjetli rəsmdə insan obrazı mövzunun qavranılmasına kömək edir. Yəni tamaşaçının əsas fikri rəssa-*



LAYİHƏ

*mın ifadə etmək istədiyi mövzuya istiqamətlənir. Portretdə isə əsərin əsasını insan obrazı, onun daxili aləmi, düşüncələri təşkil edir.*
– Portretdəki obrazlar geyim tərzi, onları əhatə edən ətraf aləm ilə müəyyən olunur.

**YARADICI TƏTBİQETMƏ**

Həyatınızda baş verən əlamətdar hadisəni təsvir edin.

**QİYMƏTLƏNDİRMƏ**

*Qiymətləndirmə meyarları:*

- Fərqləndirmə;
- Yaratma;
- Nümayişetdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri incəsənətin janrlarınından məişət mövzusunu nümunələr əsasında çox zəif fərqləndirir. | Təsviri incəsənətin janrlarınından məişət mövzusunu nümunələr əsasında müəllimin köməyi ilə fərqləndirir. | Təsviri incəsənətin janrlarınından məişət mövzusunu nümunələr əsasında bəzi kiçik səhvlərlə fərqləndirir. | Təsviri incəsənətin janrlarınından məişət mövzusunu nümunələr əsasında əsaslı fərqləndirir. |
| Flomaster, pastel təbaşirlər, quaş vasitəsilə məişət mövzusunda səliqəsiz, qarışıq süjetli rəsmlər yaradır. | Flomaster, pastel təbaşirlər və quaş vasitəsilə məişət mövzusunda süjetli rəsmləri nümunələr əsasında yaradır. | Flomaster, pastel təbaşirlər və quaş vasitəsilə məişət mövzusunda süjetli rəsmləri kompozisiya həllində səhv edərək yaradır. | Flomaster, pastel təbaşirlər və quaş vasitəsilə məişət mövzusunda süjetli rəsmləri sərbəst yaradır. |
| Süjetli rəsmdə bədii ifadə vasitələrindən olan koloritdən istifadə bacarıqlarını çətinliklə nümayiş etdirir. | Süjetli rəsmdə bədii ifadə vasitələrindən olan koloritdən suallar əsasında istifadə bacarıqları nümayiş etdirir. | Süjetli rəsmdə bədii ifadə vasitələrindən olan koloritdən nisbətən zəif istifadə bacarıqları nümayiş etdirir. | Süjetli rəsmdə bədii ifadə vasitələrindən olan koloritdən geniş istifadə bacarıqları nümayiş etdirir. |

## 20. MİS QABLARLA NATÜRMORT

**Məşğələ növü:** Naturadan rəsm
**Alt-standart:** 2.1.1.; 2.1.2.; 2.1.3.; 2.2.1.
**Təlim nəticələri:**

- quaş, akvarel və ya pastel təbaşirlər vasitəsilə mis qablardan ibarət natürmort yaradır;
- mis qablardan ibarət natürmortda koloritdən istifadə bacarıqları nümayiş etdirir;
- natürmortu naturadan nisbi dəqiqliklə təsvir edir;
- sadə bəzək kompozisiyaları məişət qablarına tətbiq edir.

**Fənlərarası inteqrasiya:** Tex.: 4.1.1.; H-b.: 1.2.3.; İnf.: 2.2.3.
**İstifadə olunan iş formaları:** Fərdi iş
**İstifadə olunan üsullar:** Müzakirə, qalereya gəzintisi
**Təchizat:** Quaş, akvarel, pastel tabaşirlər, rəngli kağızlar, qayçı, yapışqan

**Dərsin gedişi / MOTİVASİYA**

Müəllim kasa, samovar, limon, fincan şəkillərini yazı lövhəsindən asır və deyir:
.



LAYİHƏ



– Şəkillərdə nə görürsünüz? (Kasa, samovar, limon, fincan şəkilləri).
– Onlar haqqında nə deyə bilərsiniz? (fərziyyələr)
Müəllim yazı lövhəsində əşyaların şəkillərindən natürmort düzəldir. Bunun üçün qırmızı rəngdə kağızı yazı lövhəsindən asır. Onun üzərinə yapışqan vasitəsilə kompozisiyanı nəzərə alaraq digər əşyaları bərkidir.

*Nümunə:*
– Gördükləriniz əşyalar birlikdə necə adlanır? (Natürmort).
– Bu gün dərsdə natürmort çəkəcəksiniz.
Müəllim natürmort janrında işləyən rəssamların adlarını və onların yaratdıqları natürmortların surətini göstərir.

Tədqiqat sualı: ***Naturadan mis qablardan ibarət natürmortu çəkmək və naxışlarla bəzəmək üçün üçün nə etmək lazımdır? Rəsm zamanı nəyə diqqət etmək lazımdır?***
Şagirdlərin dedikləri müəllimlə birlikdə müzakirə olunur.

**TƏDQİQATIN APARILMASI**

Şagirdlər dərslikdə olan məlumatla tanış olurlar. Müəllim onların qarşısında natürmort qurur. Şagirdlər natürmortun çəkilməsi ardıcıllığını müzakirə edirlər. Naturadan müəllimin qoyduğu natürmortla onun çəkilməsi ardıcıllığını müzakirə etdikdən sonra fərdi şəkildə rəsmi çəkməyə başlayırlar.



– *Uşaqlar öncə natürmortun ümumi en və hündürlüyünü tapın və kompozisiya qaydalarını nəzərə alın. Sonra planları (öndə – 1-ci, ondan bir az arxada – 2-ci və s.) qeyd edin. Deməli, natürmortda neçə əşya varsa o qədər də plan olacaq. Sonra ayrılıqda natürmortu təşkil edən əşyaların hündürlük və enini müəyyənləşdirin. Bu zaman onların bir-birinə nisbətdə ölçülərini nəzərə alın.*

*Məsələn:*
*– Kasa böyükdür, yaxud fincan? (Kasa).*
*– Fincan böyükdür, yaxud alma? (Fincan).*

Mis qablardan ibarət natürmortu qurduqdan sonra qabların üzərini materiala uyğun naxışlarla bəzəyirlər.

Qeyd: *Şagirdlər üçün dərslikdə nümunə kimi verilən sərnic və həvəngdəstədən ibarət natürmortu da qurmaq olar.*

Çətinlik çəkən (xüsusi qayğıya ehtiyacı olan) şagirdlər sadə tapşırığı yerinə yetirir.


LAYİHƏ

## MƏLUMAT MÜBADİLƏSİ

Şagirdlər rəsmlərini yazı taxtasının qarşısında düzürlər. Onlar bir-birilərinin rəsminə baxaraq fikirlərini söyləyirlər.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

– Naturadan rəsm nədir? Naturadan natürmort rəsmini hansı ardıcıllıqla çəkdiniz? Rəsmin yaxşı görünməsi üçün nə etdiniz?

## ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

– Natürmortlarda əhvali-ruhiyyəni necə vermək olar? Rəsmlərində natürmortun gözəlliyini əks etdirən rəssamlarımızdan kimi tanıyırsınız?- Yoldaşlarınızın çəkdikləri natürmortların əhval–rühiyyəsi, koloriti haqqında nə deyə bilərsiz?

## YARADICI TƏTBİQETMƏ

a) Təsəvvürə əsasən dərsdə çəkilən natürmortun rəngli kağızlar vasitəsilə aplikasiyasını düzəltmək.
b) Jurnallardan, incəsənət kitablarından natürmort əsərlərinə baxaraq, təsvir olunan əşyalar haqqında öz fikirlərini bildirmək.

## QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Yaratma;
- Nümayişetdirmə;
- Təsviretmə;
- Tətbiqetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Yalnız pastel təbaşirlər vasitəsilə mis qablardan ibarət natürmort yaradır. | Quaş, akvarel və ya pastel təbaşirlər vasitəsilə mis qablardan ibarət natürmortu nümunələr əsasında yaradır. | Quaş, akvarel və ya pastel təbaşirlər vasitəsilə mis qablardan ibarət natürmortu kiçik nöqsanlarla yaradır. | Quaş, akvarel və ya pastel təbaşirlər vasitəsilə mis qablardan ibarət natürmortu sərbəst yaradır. |
| Mis qablardan ibarət natürmortda koloritdən istifadə bacarıqlarını çətinliklə nümayiş etdirir. | Mis qablardan ibarət natürmortda koloritdən istifadə bacarıqlarını müəllimin köməyi ilə nümayiş etdirir. | Mis qablardan ibarət natürmortda koloritdən nisbətən zəif istifadə bacarıqları nümayiş etdirir. | Mis qablardan ibarət natürmortda koloritdən düzgün istifadə bacarıqları nümayiş etdirir. |
| Natürmortu naturadan nisbi ölçüləri nəzərə almadan təsvir edir. | Natürmortu naturadan nisbi dəqiqliyi nəzərə alanda kobud səhvlərlə təsvir edir. | Natürmortu naturadan nisbi dəqiqliyi əsasən nəzərə alaraq təsvir edir. | Natürmortu naturadan nisbi dəqiqliyi nəzərə alaraq təsvir edir. |
| Sadə bəzək kompozisiyaları məişət qablarına cüzi tətbiq edir. | Sadə bəzək kompozisiyaları məişət qablarına suallar əsasında tətbiq edir. | Sadə bəzək kompozisiyaları məişət qablarına kiçik səhvlərlə tətbiq edir. | Sadə bəzək kompozisiyaları məişət qablarına sərbəst tətbiq edir. |

LAYİHƏ



# 4. ŞƏHƏRİMİZİN İNCƏSƏNƏTİ

## 21. MEMARLIQ İNCİLƏRİ

**Məşğələ növü:** Dekorativ-tətbiqi fəaliyyət / Konstruksiya
**Alt-standart:** 2.1.2.; 2.2.1.; 3.1.1.
**Təlim nəticələri:**
- dekorativ kompozisiyalarda siluetdən istifadə bacarıqları nümayiş etdirir;
- sadə bəzək kompozisiyaları memarlıq nümunəsinin üzərinə tətbiq edir;
- memarlıq nümunəsini məzmun və forma baxımından şərh edir.

**Fənlərarası inteqrasiya:** Tex.: 1.3.3.; H-b.: 3.1.1.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5.; Riy.:3.1.2.
**İstifadə olunan iş formaları:** Qrup işi
**İstifadə olunan üsullar:** Müzakirə
**Təchizat:** Müxtəlif bəzəkli evlərin, onların maketlərinin fotoları, quaş, flomasterlər, pastel tabaşirlər, ağ, rəngli kağızlar və karton, müxtəlif kağız və ya plastmas qutular, PVA yapışqanı

### Dərsin gedişi /MOTİVASİYA

Müəllim yazı lövhəsindən iki – adi və bəzəkli ev şəkli asaraq soruşur:
– Şəkillərdə gördüyünüz evlərdən hansı daha gözəldir və nəyə görə? (fərziyyələr – naxışlarla bəzədilmiş ev).
Tədqiqat sualı: ***Tikilinin konstruksiyasını düzəltmək üçün nə etmək lazımdır?***
Şagirdlər fərziyyələrini söyləyirlər.

### TƏDQİQATIN APARILMASI

Müəllim şagirdləri Naxçıvan, Quba, Gəncə, Şəki kimi şəhər adları ilə 4 qrupa ayırır. Onlar dərslikdə olan mətnlə tanış olurlar. Müəllim sual verir:
- Şəkillərdə gördüyünüz memarlıq incilərimizi məzmun və forma baxımından necə təhlil edə bilərsiz?

Sual geniş müzakirə olunur. Sonra hər qrup dərslikdə nümunədə göstərilənə uyğun olaraq tikilinin konstruksiyasını düzəldir və üzərini müxtəlif naxışlarla bəzəyir.
Çətinlik çəkən şagirdlər sadə tapşırığı yerinə yetirirlər.

### MƏLUMAT MÜBADİLƏSİ

Qruplar konstruksiyalarını nümayiş etdirirlər. Digər qruplar ona aid fikirlərini bildirirlər.

### MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

– Tikilinin konstruksiyasını hansı ardıcıllıqla düzəltdiniz?
– Onun bəzədilməsində hansı naxışlardan istifadə etmisiniz?
– Tikililərdəki naxışlara daha harada rast gəlmisiniz?

### ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

– Müasir və qədim tikililərin fərqi və oxşarlığı nədədir?
– Onların üstün cəhətləri haqqında nə deyə bilərsiniz?
– Sizcə, tikililər inşa edilən zaman nə nəzərə alınmalıdır? Nə üçün?
– Onların təsviri incəsənətin inkişafında əhəmiyyəti nədir?

LAYİHƏ

### YARADICI TƏTBİQETMƏ

a) Plastilindən ev düzəltmək və onun üzərini oyma, cızma və ya başqa üsullarla naxışlarla bəzəmək.
b) Tikililərdə olan bəzəkləri (naxışları) istənilən əşyanın üzərində tətbiq etmək.

### QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Nümayişetdirmə;
- Tətbiqetmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dekorativ kompozisiyalarda çətinliklə siluetdən istifadə bacarıqları nümayiş etdirir. | Dekorativ kompozisiyalarda nümunələr əsasında siluetdən istifadə bacarıqları nümayiş etdirir. | Dekorativ kompozisiyalarda siluetdən istifadə bacarıqlarını kiçik səhvlərlə nümayiş etdirir. | Dekorativ kompozisiyalarda siluetdən sərbəst istifadə bacarıqları nümayiş etdirir. |
| Sadə bəzək kompozisiyaları memarlıq nümunəsinin üzərinə zəif tətbiq edir. | Sadə bəzək kompozisiyaları memarlıq nümunəsinin üzərinə müəllimin köməyi ilə tətbiq edir. | Sadə bəzək kompozisiyaları memarlıq nümunəsinin üzərinə nisbətən zəif tətbiq edir. | Sadə bəzək kompozisiyaları memarlıq nümunəsinin üzərinə düzgün tətbiq edir. |
| Memarlıq nümunəsini yalnız forma baxımından şərh edir. | Memarlıq nümunəsini məzmun və forma baxımından suallar əsasında şərh edir. | Memarlıq nümunəsini məzmun və forma baxımından lakonik şərh edir. | Memarlıq nümunəsini məzmun və forma baxımından geniş şərh edir. |

## 22. RƏSSAM VƏ TEATR

**Məşğələ növü:** Dekorativ-tətbiqi fəaliyyət
**Alt-standart:** 2.1.1.; 2.1.2.; 3.1.1.
**Təlim nəticələri:**

- quaş, flomaster və s. vasitəsilə geyim eskizi yaradır;
- geyim eskizi təsvir edən zaman siluetdən istifadə bacarıqları nümayiş etdirir;
- geyim eskizlərini məzmun və forma baxımından şərh edir.

**Fənlərarası inteqrasiya:** H-b.: 2.1.2.; 2.1.3.; 3.1.1.; İnf.: 3.3.2.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5.
**İstifadə olunan iş formaları:** Fərdi və cütlükdə iş
**İstifadə olunan üsullar:** Anlayışın çıxarılması, qalereya gəzintisi, esse
**Təchizat:** Müxtəlif teatr səhnələrinin şəkilləri, müxtəlif təsvir materialları, quaş, flomasterlər, rəngli kağız, karton, PVA yapışqanı, plastilin

### Dərsin gedişi / MOTİVASİYA

Təklif olunan motivasiya nümunələrindən yalnız biri tətbiq edilə bilər.
1. Müəllim yazı lövhəsindən müxtəlif teatr səhnələrinin şəkillərini asır və soruşur:
– Gördüyünüz şəkillərdə nə təsvir olunub? (Teatr).
– Teatrda tamaşadakı hadisələrin harada baş verməsini necə bilmək olar? (Səhnədəki şəkillərdən).
2. Müəllim yazı lövhəsində dairə şəkli çəkir və onun içərisinə sual işarəsi qoyur. Kənarlarında isə müəyyən sözlər yazaraq soruşur:
– Mərkəzdə hansı söz gizlədilib? (Teatr).

LAYİHƏ




Tədqiqat sualı: ***Teatr və rəssamın nə əlaqəsi var? Teatr geyiminin eskizini necə yaratmaq olar?***
Şagirdlərin fərziyyələri dinlənilir.

## TƏDQİQATIN APARILMASI

Şagirdlər dərslikdə olan mətnlə tanış olurlar. Cütlükdə onu müzakirə edirlər. Müəllim sual verir:

- Şəkillərdə gördüyünü geyimlərin məzmun və formasını təhlil edin.

Şagirdlərlə müzakirə aparılır. Bəzi cütlüklərin fikirləri dinlənildikdən sonra onlar təəssüratlarına əsaslanıb istədikləri tamaşaya siluetdən istifadə edərək geyim eskizi çəkirlər. Bu zaman nağıl və ya sevdikləri qəhrəmanın geyimini təsvir edə bilərlər. Onlara seçim üçün teatr səhnəsi düzəltmək də təklif olunur. Xüsusi qayğıya ehtiyacı olan, çətinlik çəkən uşaqlar sadə tapşırığı yerinə yetirirlər. Müəllim onlara yaxınlaşıb lazımi istiqamətlər verir.

## MƏLUMAT MÜBADİLƏSİ

Şagirdlərin çəkdikləri yazı lövhəsindən asılır və qalereya gəzintisi edirlər. Bu zaman onlar yoldaşlarının rəsmlərinə baxır və bir-biri ilə gördüklərini müzakirə edirlər.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

– Dekorasiya nədir? Tamaşaya geyim eskizi çəkərkən nəyi nəzərə almaq lazımdır?

## ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

"Rəssam və teatr" mövzusunda 5 dəqiqəlik esse yazırlar. Esselərin bir neçəsi oxunduqdan sonra digərləri yığılır. Müəllim həmin yazıları summativ qiymətləndirmə üçün şagirdlərin portfoliosuna qoyur.

## YARADICI TƏTBİQETMƏ

Müəllim şagirdlərə aşağıda verilən iki tapşırıqdan birini seçməyi təklif edir:
1) Plastilindən geyimində milliliyi nəzərə alaraq, Cırtdanı yapmaq.
2) Tamaşa üçün səhnə düzəltmək.

## QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Yaratma;
- Nümayişetdirmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Yalnız flomaster vasitəsilə geyim eskizi yaradır. | Quaş, flomaster və s. vasitəsilə geyim eskizini müəllimin köməyilə yaradır. | Quaş, flomaster və s. vasitəsilə geyim eskizini səiqəsiz yaradır. | Quaş, flomaster və s. vasitəsilə sərbəst geyim eskizi yaradır. |
| Geyim eskizi təsvir edən zaman siluetdən | Geyim eskizi təsvir edən zaman siluetdən | Geyim eskizi təsvir edən zaman siluetdən | Geyim eskizi təsvir edən zaman siluetdən |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| çətinliklə istifadə bacarıqları nümayiş etdirir. | nümunələr əsasında istifadə bacarıqları nümayiş etdirir. | nisbətən zəif istifadə bacarıqları nümayiş etdirir. | düzgün istifadə bacarıqları nümayiş etdirir. |
| Geyim eskizlərini yalnız məzmun baxımından şərh edir. | Geyim eskizlərini məzmun və forma baxımından suallar əsasında şərh edir. | Geyim eskizlərini məzmun və forma baxımından qısa şərh edir. | Geyim eskizlərini məzmun və forma baxımından ətraflı şərh edir. |

## 23. KÜÇƏLƏRİMİZİN BƏZƏYİ — FƏNƏRLƏR

**Məşğələ növü:** Mövzu üzrə rəsm
**Alt-standart:** 2.1.1. 2.2.1. 3.1.1.
**Təlim nəticələri:**

- rəngli karandaşlar, flomaster, pastel təbaşirlər vasitəsilə fənərlərə aid mənzərə yaradır;
- sadə bəzək kompozisiyaları fənərlərin üzərinə tətbiq edir;
- fənərlərdən ibarət mənzərəni məzmun və forma baxımından şərh edir.

**Fənlərarası inteqrasiya:** H-b.: 1.1.2.; 1.2.3.; 3.1.1.; Tex.: 4.1.1.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.5.
**İstifadə olunan iş formaları:** Kollektiv və qrup işi
**İstifadə olunan üsullar:** Müzakirə, təriflər-suallar-təkliflər
**Təchizat:** Müxtəlif fənər şəkilləri, rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, plastilin

**Dərsin gedişi / MOTİVASİYA**

Müəllim yazı lövhəsindən dərslikdə olan müxtəlif fənər şəkillərini asır və soruşur: – Günəş batanda, hər tərəf qaranlığa qərq olanda ətrafımızı nəyin köməyi ilə işıqlandırmaq olar? Axşam şəhərə qaranlıq düşəndə ətraf necə işıqlanır? (Fənərlərin köməyi ilə). Fənərlərə ən çox harada rast gəlmisiniz? Onların forması, bəzəyi, konstruksiyası haqqında nə deyə bilərsiniz? (fərziyyələr)

Tədqiqat sualı: ***Fənərlərin rəsmini çəkən zaman nəyi nəzərə almaq lazımdır?***
Şagirdlərin fərziyyələri dinlənilir.

**TƏDQİQATIN APARILMASI**

Şagirdlər dərslikdə olan müxtəlif fənər formaları ilə 4 qrupa ayrılırlar. Onlar dərslikdə olan məlumatla tanış olurlar. Sonra 1-ci qrup – divardan asmaq üçün, 2-ci qrup – körpünün üzərində, 3-cü qrup – parkda və 4-cü qrup küçədə yerləşdirmək üçün fənər forması fikirləşib çəkirlər. Fənərlərə uyğun naxışlar əlavə edərək dekorativ görünüş verirlər. Onlar fənərin konstruksiyasını müzakirə edirlər. Öz aralarında işi bölüşdürürlər. Qrup nümayəndələrinin iş bölgüsünə müəllim də istiqamət verir. O, vaxtında tapşırığı yerinə yetirmək üçün düzgün iş bölgüsünün böyük əhəmiyyəti olduğunu izah edir.

**MƏLUMAT MÜBADİLƏSİ**

Qruplar təsvirlərini yazı taxtasının qarşısında düzürlər. Hər qrup işini təqdim edir və digər qruplar suallar, təriflər və təkliflər üsulundan istifadə edərək onların işlərini müzakirə edirlər.

**MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ**

– Fənər hansı hissələrdən ibarətdir? Hansı ardıcıllıqla onun rəsmini çəkdiniz? Gözəl görünməsi üçün nə etdiniz? Yoldaşlarınızın təsvir etdiyi fənərlərdən ibarət mənzərənin məzmunu və forması haqqında nə deyə bilərsiz?

**ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ**

– Fənər necə yaranıb? Fənərlərin xarakteri haqqında nə deyə bilərsiniz? Onlar sizə nəyi xatırladır?



LAYİHƏ

## YARADICI TƏTBİQETMƏ

Yeni fənər forması fikirləşmək və onu plastilindən düzəltmək.

## QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Yaratma;
- Tətbiqetmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Rəngli karandaşlar, flomaster, pastel təbaşirlər vasitəsilə fənərlərə aid mənzərədə perspektiva və mütənasibliyi nəzərə almadan yaradır. | Rəngli karandaşlar, flomaster, pastel təbaşirlər vasitəsilə fənərlərə aid mənzərəni nümunələr əsasında yaradır. | Rəngli karandaşlar, flomaster, pastel təbaşirlər vasitəsilə fənərlərə aid sadə mənzərə yaradır. | Rəngli karandaşlar, flomaster, pastel təbaşirlər vasitəsilə fənərlərə aid dolğun mənzərə yaradır. |
| Sadə bəzək kompozisiyaları fənərlərin üzərinə təsvir qaydalarına əməl etmədən tətbiq edir. | Sadə bəzək kompozisiyaları fənərlərin üzərinə müəllimin köməyi ilə tətbiq edir. | Sadə bəzək kompozisiyaları fənərlərin üzərinə kompozisiya qaydasını nəzərə almadan tətbiq edir. | Sadə bəzək kompozisiyaları fənərlərin üzərinə sərbəst tətbiq edir. |
| Fənərlərdən ibarət mənzərəni yalnız forma baxımından şərh edir. | Fənərlərdən ibarət mənzərəni məzmun və forma baxımından kobud səhvlərlə şərh edir. | Fənərlərdən ibarət mənzərəni məzmun və forma baxımından lakonik şərh edir. | Fənərlərdən ibarət mənzərəni məzmun və forma baxımından ətraflı şərh edir. |

# 24. KÜÇƏDƏKİ HEYKƏLLƏR

**Məşğələ növü:** Yapma
**Alt-standart:** 1.1.1.; 1.1.3.; 2.1.1.
**Təlim nəticələri:**

- təsviri incəsənətin heykəltəraşlıq növünü nümunələr əsasında fərqləndirir;
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndəsi Tokay Məmmədov və onun ən məşhur heykəllərini fərqləndirir;
- plastilin və ya gil vasitəsilə sadə heykəllər yaradır.

**Fənlərarası inteqrasiya:** A-d.: 1.1.2.; Tex.: 1.3.4. ; Riy.:3.1.2.; 4.2.2.
**İstifadə olunan iş formaları:** Kollektiv və qrup işi
**İstifadə olunan üsullar:** Anlayışın çıxarılması, müzakirə
**Təchizat:** Anlayışların yazıldığı cədvəl, plastilin və ya gil

### Dərsin gedişi / MOTİVASİYA

Müəllim şagirdlərə aşağıdakı qaydada cədvəl nümayiş etdirir. Sual işarəsinin ətrafında yazdığı anlayışları (cansızdır, ağacdandır, gildəndir, metaldandır, yonulur, yapılır, xatirədir, daşdandır) oxuyur və deyir: – Mərkəzdə hansı söz olmalıdır? (Heykəl).

LAYİHƏ




Tədqiqat sualı: ***Tokay Məmmədov haqqında nə bilirsiniz? Plastilindən hər hansı fiquru yapmaq üçün nə etmək lazımdır?***
Fərziyyələr söylənilir.

## TƏDQİQATIN APARILMASI

Şagirdlər heykəltəraşın istifadə etdiyi materialların (metal, gil, daş, ağac) adı yazılmış kiçik vərəqlərlə 4 qrupa ayrılırlar. Onlar dərslikdə verilən heykəltəraşlıq və Tokay Məmmədov haqqında olan mətni oxuyurlar. Müəllim müzakirə üçün suallar verir:

- Tokay Məmmədovun yaratdığı "İmadəddin Nəsimi" və "Məhəmməd Füzuli" heykəllərinin oxşar və fərqli cəhətləri nədədir?

Müzakirə aparılır və hər qrup yapmanın mövzusunu və onu necə düzəldəcəklərini müzakirə edir. Sonra köməkli şəkildə istədikləri fiquru yapırlar. Heykəlin pyedestalını düzəldən zaman dərslikdə verilən nümunələrdən istifadə edirlər.

Xüsusi qayğıya ehtiyacı olan və ya çətinlik çəkən şagirdlər sadə tapşırığı yerinə yetirirlər.

Müəllim qrupların sərbəst işi zamanı onlara yaxınlaşır və mübahisəli məsələlərin həllində kömək edir.

## MƏLUMAT MÜBADİLƏSİ

Qruplar yapmalarını nümayiş etdirirlər. Digər qruplar isə yapmaya münasibətini bildirirlər.

## MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

– Siz yapmalarınızın öhdəsindən gəldiniz. Onu necə, hansı ardıcıllıqla düzəltdiniz? Tokay Məmmədov haqqında nə öyrəndiniz? Heykəltəraşlıq qrafika və rəngkarlıqdan nə ilə fərqlənir? Küçədəki və parkdakı heykəllərin fərqi nədədir?

## ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ

– Heykəltəraşlığın hansı növlərini tanıyırsınız? Onların fərqi nədir?
– Heykəltəraşlarımızdan kimləri tanıyırsınız? Onların hansı əsərləri yadınızda qalıb?
– Monumental heykəl, pyedestal, abidə nə deməkdir?

## YARADICI TƏTBİQETMƏ

Plastilindən və ya gildən həkim, müğənni, bəstəkar və ya rəssam obrazı yapmaq.

## QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə meyarları:*

- Fərqləndirmə;
- Yatatma.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri incəsənətin heykəltəraşlıq növünü nümunələr əsasında əsas səbəbləri izah etmədən fərqləndirir. | Təsviri incəsənətin heykəltəraşlıq növünü nümunələr əsasında müəllimin köməyi ilə fərqləndirir. | Təsviri incəsənətin heykəltəraşlıq növünü nümunələr əsasında əsasən fərqləndirir. | Təsviri incəsənətin heykəltəraşlıq növünü nümunələr əsasında əsaslı fərqləndirir. |
| Azərbaycanın görkəm-li təsviri sənət nüma-yəndəsi Tokay Məm- | Azərbaycanın görkəm-li təsviri sənət nüma-yəndəsi Tokay Məm- | Azərbaycanın görkəm-li təsviri sənət nüma-yəndəsi Tokay Məm- | Azərbaycanın görkəm-li təsviri sənət nüma-yəndəsi Tokay Məm- |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| mədov və onun ən məşhur heykəllərini çətinliklə fərqləndirir. | mədov və onun ən məşhur heykəllərini suallar əsasında fərqləndirir. | mədov və onun ən məşhur heykəllərini əsasən fərqləndirir. | mədov və onun ən məşhur heykəllərini əsas səbəbləri izah edərək fərqləndirir. |
| Plastilin və ya gil vasitəsilə sadə heykəlləri mütənasibliyi nəzərə almadan yaradır. | Plastilin və ya gil vasitəsilə sadə heykəlləri nümunələr əsasında yaradır. | Plastilin və ya gil vasitəsilə sadə heykəlləri pyedistalın ölçülərini nəzərə almadan yaradır. | Plastilin və ya gil vasitəsilə sadə heykəlləri sərbəst yaradır. |

## 25. PARK, BAĞ, BULVAR

**Məşğələ növü:** Mövzu üzrə rəsm
**Alt-standart:** 2.1.1. 2.1.4. 3.1.1.
**Təlim nəticələri:**
- quaş, pastel təbaşirlər vasitəsilə park təsvirləri yaradır;
- rənglərdən istifadə edərək park mövzusunda kompozisiyalar qurur;
- park təsvirlərini məzmun və forma baxımından şərh edir.

**Fənlərarası inteqrasiya:** H-b.: 2.1.2.; 2.1.3.; 3.1.1.; İnf.: 3.3.2.; A-d.: 1.1.1.; 1.1.2.; 1.2.3.
**İstifadə olunan iş formaları:** Fərdi və cütlükdə iş
**İstifadə olunan üsullar:** Anlayışın çıxarılması (açar sözlər), İQS (İnsert), qalereya gəzintisi
**Təchizat və resurs:** Anlayışın çıxarılması cədvəli olan vərəq, müxtəlif təsvir materialları, dərslikdən mətnin surəti, quaş, pastel tabaşirlər

### Dərsin gedişi / MOTİVASİYA

Müəllim yazı taxtasının mərkəzində sual işarəsi qoyulmuş, ətrafında müəyyən ifadələr yazılmış vərəqlər asır və soruşur: – Mərkəzdə hansı söz gizlədilib? (Park – bağ).




**Tədqiqat sualı:** ***Parkın rəsmini çəkmək üçün nə etmək lazımdır?***
Şagirdlərin fərziyyələri dinlənilir.

### TƏDQİQATIN APARILMASI

Müəllim şagirdlərə dərslikdə olan materialın surətini paylayır. Şagirdlər 1, 2 saymaqla cütlərə ayrılırlar. İnteraktiv Qeydetmə Sistemi (İQS – İnsert) üsulundan istifadə edərək şagirdlər mətni oxuyurlar. Bu məqsədlə müəllim yazı lövhəsindən xüsusi işarələr (“v” – bilirəm, “+” – yeni informasiyadır, “?” – anlamadım) asaraq deyir: – Mətni oxuyun və diqqətli olun. Bildiyiniz informasiyanın qarşısında “v”, bilmədiyinizin qarşısında “+”, anlamadığınızın qarşısında isə “?” işarəsini qoyun.

Şagirdlər oxuduqdan sonra müəllim deyir: – İndi albomda işarələmə cədvəli tutun və bildiklərinizi, anlamadığınız və yeni informasiyaları cədvəldə sistemləşdirin.

| “v”– bilirəm | “+”– yeni informasiyadır | “?”– anlamadım |
|---|---|---|
| 1. | 1. | 1. |
| 2. | 2. | 2. |
| 3. | 3. | 3. |
| 4. | 4. | 4. |


LAYİHƏ

– 1-lər 2-lərlə yazdıqlarını bölüşsün.
– İstənilən cütlük işarələmə cədvəli ilə bizi də tanış edə bilər.

Bəzi cütlər yazdıqlarını oxuyurlar. Şagirdlər mətni öyrəndikdən sonra cütlükdə təsəvvür etdikləri parkın obrazını yaradırlar. Onlara material seçimində sərbəstlik verilir. Quaş və ya pastel təbaşirlərdən istifadə edə bilirlər. Müəllim rəsm zamanı kompozisiya qaydalarını, mütənasibliyi, yaxın və uzağı nəzərə almağı xatırladır. Çətinlik çəkən (xüsusi qayğıya ehtiyacı olan) şagirdlərə sadə tapşırığı yerinə yetirməyi tapşırmaq olar.

**MƏLUMAT MÜBADİLƏSİ**

Cütlərlə işləyən şagirdlər rəsmlərini yazı taxtasının qarşısına düzürlər. Qalereya gəzintisi üsulundan istifadə etməklə yoldaşlarının işləri ilə tanış olur və onlara öz münasibətini bildirirlər. Rəsmləri məzmun və forma cəhətdən təhlil edirlər.

**MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ**

– Parkı hansı ardıcıllıqla təsvir etdiniz?
– Rəsm zamanı hansı təsvir qaydalarını nəzərə aldınız?

**ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ**

– Park necə yaranır? Onun əhəmiyyəti nədir?
– Parkda sizin ən çox nə xoşunuza gəlir? Nə üçün?
– Parklarımızı, bağlarımızı həmişə gözəl saxlamaq üçün nə etmək lazımdır?

**YARADICI TƏTBİQETMƏ**

Yaşadığı yerdə olan parkın rəsmini çəkmək.

**QİYMƏTLƏNDİRMƏ**

*Qiymətləndirmə meyarları:*

- Yaratma;
- Qurma;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Yalnız pastel təbaşirlər vasitəsilə park təsvirləri yaradır. | Quaş, pastel təbaşirlər vasitəsilə park təsvirlərini nümunələr əsasında yaradır. | Quaş, pastel təbaşirlər vasitəsilə park təsvirlərini hava perspektivasını nəzərə almadan yaradır. | Quaş, pastel təbaşirlər vasitəsilə sərbəst park təsvirləri yaradır. |
| Rənglərdən istifadə edərək park mövzusunda kompozisiyaları koloriti vermədən qurur. | Rənglərdən istifadə edərək park mövzusunda kompozisiyaları müəllimin köməyi ilə qurur. | Rənglərdən istifadə edərək park mövzusunda bəsit kompozisiyalar qurur. | Rənglərdən istifadə edərək park mövzusunda dolgun kompozisiyalar qurur. |
| Park təsvirlərini məzmun və forma baxımından çətinliklə şərh edir. | Park təsvirlərini məzmun və forma baxımından suallar əsasında şərh edir. | Park təsvirlərini məzmun və forma baxımından lakonik şərh edir. | Park təsvirlərini məzmun və forma baxımından ətraflı şərh edir. |

## 26. MUZEYLƏR

**Məşğələ növü:** Təsviri sənət haqqında söhbət
**Alt-standart:** 1.1.1.; 3.1.1.
**Təlim nəticələri:**

- təsviri incəsənətin növlərini nümunələr əsasında fərqləndirir;



LAYİHƏ

- muzey ekspozisiyalarını məzmun və forma baxımından şərh edir.

**Fənlərarası inteqrasiya:** İnf.: 1.1.1.; H-b.: 1.1.2.
**İstifadə olunan iş formaları:** Qrup işi
**İstifadə olunan üsullar:** BİBÖ, müzakirə
**Təchizat:** A1 formatlı vərəq, müxtəlif muzeylərin fotoları

**Dərsin gedişi / MOTİVASİYA**

Müəllim yazı lövhəsində müxtəlif muzeylərin interyerlərinin (daxili hissəsi) şəkillərini asır və soruşur:
– Şəkillərdə nə təsvir olunub? (Muzey).
– Hansı muzeylərdə olmusunuz? (fərziyyələr)

Tədqiqat sualı: ***Muzeylərin əsas xüsusiyyətləri haqqında nə deyə bilərsiniz?***

Rəngli kağızlarla (qırmızı, sarı, yaşıl, göy) şagirdlər 4 qrupa bölünürlər. Müəllimin yazı lövhəsində çəkdiyi BİBÖ cədvəlini qruplar da çəkərək, muzey haqqında bildiklərini müzakirə edib ümumiləşdirərək cədvəlin birinci "Bilirik" hissəsinə yazır, sonra bilmək istədiklərini isə ikinci "İstəyirik bilək" hissəsində qeyd edirlər.

| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
|---|---|---|
| | | |
| | | |

Verilən vaxt ərzində qruplardan təqdimatçılar cədvəlin hər iki hissəsində yazdıqlarını oxuyurlar.

**TƏDQİQATIN APARILMASI**

Şagirdlər dərslikdə olan Azərbaycan muzeyləri haqqında məlumatla tanış olurlar. Lazımi məlumatı topladıqdan sonra "BİBÖ" cədvəlinin üçüncü "Öyrəndik" hissəsində öyrəndiklərini yazırlar və cədvəldəki suallara cavab axtarırlar. Sonra müəllim şagirdlərin diqqətini dərslikdə verilən və özünün gətirdiyi muzey zallarının şəkillərinə, ekspozisiyalara yönəldir, müzakirə üçün suallar verir:

- Muzey zallarının şəkillərində təsviri incəsənətin hansı növlərinə aid nümunələr görürsüz?
- Rəngkarlıq və heykəltəraşlıq haqqında nə deyə bilərsiz?
- Muzey ekspozisiyasını məzmun və forma cəhətdən təhlil edin.

Suallar geniş müzakirə edilir.

**MƏLUMAT MÜBADİLƏSİ**

Qruplar cədvəllərini yazı lövhəsindən və ya divardan asırlar. Hər qrup öyrəndiyini təqdim edir və cədvəlin 3-cü "Öyrəndik" hissəsində yazdıqlarını oxuyur.

**MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ**

Müəllim cədvəllərin "Bilirik" hissəsindən qrupların muzey haqqında yazdıqlarını bir-bir oxuyur. Müzakirə edərək hansı fikir şagirdlərin öyrəndikləri ilə üst-üstə düşürsə, qarşısında "+", hansı düzgün olmayan informasiyadırsa, "–" işarəsi qoyur (qeyd: Şagirdləri səhv fikirlə yola salmaq olmaz). Sonra cədvəlin 2-ci "İstəyirik bilək" hissəsində şagirdlərin yazdıqları sualları oxuyur. Mətndə hansı suallara cavab tapıblarsa, qeyd edir, bəzilərini isə evdə araşdırmaq lazım olduğunu müəyyənləşdirirlər.

**ÜMUMİLƏŞDİRMƏ VƏ NƏTİCƏ**

– Muzeylərin yaranmasında məqsəd nədir?
– Sərgi salonu və muzey arasında fərq nədir?

**YARADICI TƏTBİQETMƏ**

Muzeylər haqqında əlavə məlumat toplamaq.

**QİYMƏTLƏNDİRMƏ**

*Qiymətləndirmə meyarları:*



LAYİHƏ

- Fərqləndirmə;
- Şərhetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri incəsənətin növlərini nümunələr əsasında çətinliklə fərqləndirir. | Təsviri incəsənətin növlərini nümunələr əsasında müəllimin köməyi ilə fərqləndirir. | Təsviri incəsənətin növlərini nümunələr əsasında əsasən fərqləndirir. | Təsviri incəsənətin növlərini nümunələr əsasında əsaslı fərqləndirir. |
| Muzey ekspozisiyalarını məzmun baxımından şərh edir. | Muzey ekspozisiyalarını məzmun və forma baxımından suallar əsasında şərh edir. | Muzey ekspozisiyalarını məzmun və forma baxımından qısa şərh edir. | Muzey ekspozisiyalarını məzmun və forma baxımından geniş şərh edir. |

**Ümumiləşdirici dərs və onun təşkili**

Ümumiləşdirici dərsin əsas didaktik məqsədi – mövzuların tədrisi zamanı əldə edilən biliklərin sistemləşdirilməsi və möhkəmləndirilməsidir. Belə dərslər biliklərin daha da dərinləşdirilməsinə və nəzərdə tutulmuş bacarıqların təkmilləşdirilməsinə yardım edir. Ümumi sorğu keçirməklə şagirdlərin çətinlik çəkdikləri mövzuları və nisbətən zəif reallaşdırılmış standartları müəyyən etmək olar. Bu zaman dərsi şagirdlərin zəif cəhətlərinin aradan qaldırılması istiqamətində qurmaq məqsədəuyğundur.



LAYİHƏ

## TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏLƏRİ

**Qeyd.** Summativ qiymətləndirmə nümunələrində tövsiyə olunan tapşırıqlar müxtəlifdir. Təqdim olunan tapşırıq nümunələri şagirdin bölmədə öyrəndikləri bilik və bacarıqları qiymətləndirmək üçün tərtib olunmuş tapşırıqlardır. Nümunələrdə sonuncu – yaradıcı tapşırıq şagirdin yaradıcılıq qabiliyyətinin qiymətləndirilməsi üçün nəzərdə tutulmuşdur. Yaradıcı tapşırığın əhəmiyyəti böyük olduğu üçün şagirdi qiymətləndirərkən bu tapşırıqların yerinə yetirilməsinə üstünlük verilməsi məqsədəuyğundur.
Müəllim kiçik summativ qiymətləndirmə zamanı şagirdin bilik və bacarığını yalnız yaradıcı tapşırıqla da yoxlaya bilər. Lakin bu, elə bir tapşırıq olmalıdır ki, bir neçə mövzunu özündə cəmləsin, bilik və bacarıqları da əks etdirsin. Nümunə olaraq KSQ №3-ə baxmaq olar.

### KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ üzrə cavablar

| KSQ № 1 | Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | | |
| | | b. | b. | b. | b. | b. | b. | b. | b. | | |
| | | c. | c. | c. | c. | c. | c. | c. | **c.** | | |

| KSQ № 2 | Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cavab variantı | **a.** | a. | a. | a. | a. | **a.** | **a.** | | | |
| | | b. | b. | b. | b. | **b.** | b. | b. | | | |
| | | c. | c. | c. | **c.** | c. | c. | c. | | | |

| KSQ № 3 | Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cavab variantı | a. | a. | a. | a. | a. | a. | | | | |
| | | b. | b. | b. | b. | b. | b. | | | | |
| | | c. | c. | c. | c. | c. | c. | | | | |

| KSQ № 4 | Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. |
| | | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. |
| | | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. |

| KSQ № 5 | Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. |
| | | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. |
| | | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. |

| KSQ № 6 | Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. |
| | | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. |
| | | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. |

LAYİHƏ

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №1)

Ad______________Soyad________________________Sinif________Tarix_____________

| Suallar | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **Yaradıcı tapşırıq** | Kompozisiya | | **Ümumi qiymət** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | *a.* | *a.* | *a.* | *a.* | *a.* | *a.* | *a.* | *a.* | | | | Soyuq kolorit | | |
| | *b.* | *b.* | *b.* | *b.* | *b.* | *b.* | *b.* | *b.* | | | | Məzmun | | *Cavab variantı + Yaradıcı tapşırıq* |
| | *c.* | *c.* | *c.* | *c.* | *c.* | *c.* | *c.* | *c.* | | | | Orijinallıq | | |
| | | | | | | | | | | | | Rəng həlli | | |
| *Qiymət* | | | | | | | | | | | | *Qiymət* | | |

**1. Rəsmdə kolorit nədir?**
a) rəng uyğunsuzluğu
b) rəng uyğunluğu
c) kompozisiya

**2. Kontrast rənglər bunlardır:**
a) sarı-bənövşəyi, qırmızı-yaşıl
b) yaşıl-mavi, boz-göy
c) sarı-ağ, yaşıl-qəhvəyi

**3. Rəng kontrastı nəyin fərqidir?**
a) rəngin açıq və tündlüyünün
b) parlaq rənglərin
c) əsas və qarışıq rənglərin

**4. Ton kontrastı nəyin fərqidir?**
a) rəngin açıq və tündlüyünün
b) parlaq rənglərin
c) əsas və qarışıq rənglərin

**5. Rəngi zərif və yüngül etmək üçün boyaya hansı rəngi qatmaq lazımdır?**
a) qara b) ağ c) qırmızı

6. **Qəhvəyi boyanın rəng tərkibi:**
a) sarı + göy b) qırmızı + yaşıl
c) yaşıl + göy

**7. Təsvirin fonu nədir?**
a) ön plan
b) arxa plan
c) rəng

**8. Badımcanın rəng tərkibini qeyd edin və rəngləyin:**
a) yaşıl + narıncı
b) göy + sarı
c) göy + qırmızı



**9. İsti rəngdə təbiətdə olanları düşünün və çəkin.**

10. **Kontrast rəngdə təbiətdə olanları düşünün və çəkin.**

**Yaradıcı tapşırıq.** A 4 formatlı rəsm vərəqində elə bir rəsm çəkin ki, orada soyuq kolorit üstünlük təşkil etsin. Rəsmin adını, kompozisiya həllini, məzmununu, orijinallığını düşünün və səliqəli rəngləyin.

LAYİHƏ

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №2)

Ad________________Soyad__________________________Sinif_________Tarix_______________

| Suallar | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **Yaradıcı tapşırıq** | Natürmort | | **Ümumi qiymət** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | *a.* | *a.* | *a.* | *a.* | *a.* | *a.* | *a.* | | | | | Kompozisiya | | |
| | *b.* | *b.* | *b.* | *b.* | *b.* | *b.* | *b.* | | | | | Naxışlar | | *Cavab variantı + Yaradıcı tapşırıq* |
| | *c.* | *c.* | *c.* | *c.* | *c.* | *c.* | *c.* | | | | | Orijinallıq | | |
| | | | | | | | | | | | | Materialı — rəng həlli | | |
| *Qiymət* | | | | | | | | | | | | *Qiymət* | | |

**1. Xalçadakı naxışların əsas elementlərini qeyd edin:**
a) forma, ritm, rəng
b) naxış, bəzək, şəkil
c) ilmə, saçaq, əriş

**2. Dekorativ-tətbiqi sənətin növlərinə aiddir:**
a) keramika, ağacoyma, misgərlik
b) rəngkarlıq, qrafika, heykəltəraşlıq,
c) natürmort, mənzərə, portret

**3. Ornament nədir?**
a) xalçanın saçaqları b) naxışın ritmi
c) rənglərin uyğunluğu

**4. Hansı naxışın təkrarı “Yallı” rəqsini xatırladır?**
a) dəvə b) ulduz c) əl-ələ

**5. Ağacdan hazırlanmış əşyalara hansı üsulla bəzək vururlar?**
a) döymə b) yonma c) cızma

**6. Mis qabların üzərini hansı üsulla naxışlayırlar?**
a) döymə b) yonma c) yapma

**7. Keramikadan hazırlanan qabların təbii materialı nədir?**
a) mis b) gil c) ağac

**8. Naxış nümunələrinin adını qeyd edin:**

 ____________  ______________

**9. Su naxışını sətrin sonuna kimi çəkin.**



**10. Kəpənəyi bəzək əşyasına çevirin. Naxışlarla bəzəyin və rəngləyin.**



**Yaradıcı tapşırıq.** A4 formatlı rəsm vərəqində müxtəlif materiallardan hazırlanan qabların natürmortunu çəkin.
Qabların hansı materialdan olduğunu rənglərlə göstərməyə çalışın. Üzərini materiala görə naxışlarla bəzəməyi unutmayın.
Natürmortun kompozisiyasının düzgün qurulmasını nəzərə alın. Qiymətləndirmə meyarları ilə cədvəldə tanış olun.

LAYİHƏ

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №3)

Ad________________Soyad_________________________Sinif_________Tarix_________

| Suallar | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | | | | Yaradıcı tapşırıq | Robotlar | | Ümumi qiymət |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | *a.* | *a.* | *a.* | *a.* | *a.* | *a.* | Kompozisiya | | | | | Kompozisiya | | |
| | *b.* | *b.* | *b.* | *b.* | *b.* | *b.* | Real təsvir | | | | | Həcmli fiqurlar | | *Cavab variantı + 7+ Yaradıcı tapşırıq* |
| | *c.* | *c.* | *c.* | *c.* | *c.* | *c.* | Rəngləmə | | | | | Yaxın və uzaq | | |
| | | | | | | | | | | | | Səliqəli rəngləmə | | |
| *Qiymət* | | | | | | | | | | | | *Qiymət* | | |

**1. Akvarel və quaş boyalarla yaradılan əsərlər necə adlanır?**
a) qrafika b) rəngkarlıq
c) heykəltəraşlıq

**2. Rəngkarlığın əsas ifadə vasitələri:**
a) xətt, ləkə, kontur
b) xətt, ştrix, ton
c) siluet, ştrix, ton

**3. Kompozisiya nədir?**
a) rəsmin rənglənməsi
b) rəsmdə əlaqənin olmamağı
c) rəsmin elementlərinin bir-biri ilə əlaqəsi

**4. Konstruksiya nədir?**
a) forma, siluet
b) quruluş, forma
c) siluet, quruluş

**5. Eskiz nədir?**
a) ilkin mərhələ
b) son mərhələ
c) tamamlanmış mərhələ

**6. Azərbaycan sənətkarları arasında əlvan koloritli rəngkarlıq əsərlərinin müəllifini qeyd edin.**
a) Toğrul Nərimanbəyov
b) Lətif Kərimov
c) Ələkbər Rzaquliyev

**7.** Verilmiş piramida, alma və albalını boş hissədə düzgün yerləşdirin. Kompozisiya qaydalarını yadınıza salın və necə yerləşdirəcəyiniz haqda düşünün və rəngləyin. Qiymətləndirmə meyarları ilə cədvəldə tanış olun.



**Yaradıcı tapşırıq.** A4 formatlı rəsm vərəqində əsasını həcmli həndəsi fiqurlar təşkil edən robotlar çəkin. Onları hər hansı bir iş başında, hətta təbiətdə də çəkə bilərsiniz. Rəsminizdə yaxın və uzağı nəzərə alın. Kompozisiya qaydalarını göstərməyi unutmayın və səliqəli rəngləyin. Qiymətləndirmə meyarları ilə cədvəldə tanış olun.



LAYİHƏ

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №4)

Ad______________Soyad________________________Sinif________Tarix_____________

| Suallar | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **Yaradıcı tapşırıq** | Qrafika | | **Ümumi qiymət** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | *a.* | *a.* | *a.* | *a.* | *a.* | *a.* | *a.* | *a.* | *a.* | *a.* | | Kompozisiya | | |
| | *b.* | *b.* | *b.* | *b.* | *b.* | *b.* | *b.* | *b.* | *b.* | *b.* | | İfadə vasitələri | | *Cavab variantı + Yaradıcı tapşırıq* |
| | *c.* | *c.* | *c.* | *c.* | *c.* | *c.* | *c.* | *c.* | *c.* | *c.* | | İllüstrasiya | | |
| | | | | | | | | | | | | Orijinallıq | | |
| *Qiymət* | | | | | | | | | | | | *Qiymət* | | |

**1. Qrafikanın əsas təsvir vasitələri bunlardır:**
a) xətt, ləkə, kontur
b) xətt, ştrix, ton
c) siluet, ştrix, ton

**2. Kağız üzərində qələm, kömür və ya karandaşla çəkilən təsvirlər necə adlanır?**
a) qrafika
b) rəngkarlıq
c) heykəltəraşlıq

**3. Ştrix vasitəsilə rəssam vərəqdə göstərə bilir:**
a) formanı
b) həcmi
c) hər ikisini

**4. Mətnin rəsm vasitəsilə ifadəsi belə adlanır:**
a) nağıl
b) təsvir
c) illüstrasiya

**5. Qədim əlyazmalara çəkilən kiçik ölçülü rəngli təsvir:**
a) mənzərə b) miniatür
c) natürmort

**6. Qrafikada əsas istifadə edilən material hansıdır?**
a) quaş
b) karandaş
c) gil

**7. Siluet kölgəni xatırladan təsvirdir:**
a) birrəngli
b) rəngli
c) həcmli

**8. Nizami Gəncəvinin obrazını kətan üzərində yaradan sənətkar:**
a) Toğrul Nərimanbəyov
b) Qəzənfər Xalıqov
c) Lətif Kərimov

**9. Azərbaycan sənətkarları arasında illüstrasiya çəkən rəssam:**
a) Qəzənfər Xalıqov
b) Lətif Kərimov
c) Toğrul Nərimanbəyov

**10. Qrafik əsərləri ilə zəngin Azərbaycan sənətkarı:**
a) Toğrul Nərimanbəyov
b) Lətif Kərimov
c) Ələkbər Rzaquliyev

**Yaradıcı tapşırıq.** A4 formatlı rəsm vərəqində istədiyin hər hansı bir nağılın qrafik illüstrasiyasını çəkin. Rəsminizdə qrafikanın əsas təsvir vasitələrini göstərməyi unutmayın. Maraqlı kompozisiya fikirləşin. Vərəqin arxasında nağılın adını qeyd edin. Qiymətləndirmə meyarları ilə cədvəldə tanış olun.

LAYİHƏ

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №5)

Ad______________Soyad________________________Sinif________Tarix_____________

| Suallar | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **Yaradıcı tapşırıq** | Süjetli rəsm | | **Ümumi qiymət** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | *a.* | *a.* | *a.* | *a.* | *a.* | *a.* | *a.* | *a.* | *a.* | *a.* | | Kompozisiya | | |
| | *b.* | *b.* | *b.* | *b.* | *b.* | *b.* | *b.* | *b.* | *b.* | *b.* | | Üz cizgiləri | | *Cavab variantı + Yaradıcı tapşırıq* |
| | *c.* | *c.* | *c.* | *c.* | *c.* | *c.* | *c.* | *c.* | *c.* | *c.* | | Əşyalar | | |
| | | | | | | | | | | | | Səliqəli rəngləmə | | |
| | | | | | | | | | | | | Orijinallıq | | |
| *Qiymət* | | | | | | | | | | | | *Qiymət* | | |

| | |
|---|---|
| **1. İnsanın istifadə etdiyi əşyalardan ibarət təsvir bu janra aiddir:**<br>a) natürmort<br>b) mənzərə<br>c) məişət | **2. Kağız üzərində qələm, kömür və ya karandaşla çəkilən təsvirlər necə adlanır?**<br>a) heykəltəraşlıq<br>b) qrafika<br>c) rəngkarlıq |
| **3. "Cansız təbiət" mənasını bildirən janr:**<br>a) mənzərə<br>b) natürmort<br>c) portret | **4. Döymə və cızma üsulu ilə naxış hansı səth üzərinə vurulur?**<br>a) ağac<br>b) metal<br>d) şüşə |
| **5. Döymə ilə məşğul olan sənətkara belə deyilir:**<br>a) döyməçi<br>b) döyüşçü<br>c) dəmirçi | **6. Mətnin rəsm vasitəsilə ifadəsi belə adlanır:**<br>a) nağıl<br>b) təsvir<br>c) illüstrasiya |
| **7. İnsanın yaşayış tərzini əks etdirən əsərlər necə adlanır?**<br>a) portret<br>b) məişət<br>c) natürmort | **8. "Dəqiq cizgilər" mənasını bildirən janr:**<br>a) portret<br>b) natürmort<br>c) mənzərə |
| **9. Mis qablar bunlardır:**<br>a) səhəng<br>b) sərpuş<br>c) hər ikisi | **10. İnsanın surəti və daxili aləmi əks olunan təsvirlər adlanır:**<br>a) natürmort<br>b) mənzərə<br>c) portret |

**Yaradıcı tapşırıq.** A4 formatlı rəsm vərəqində elə bir süjeti rəsm çəkin ki, orada insanın gündəlik məişət tərzi, onun üz cizgiləri, həm də istifadə etdiyi əşyalar əks olunsun. Maraqlı kompozisiya fikirləşin və səliqəli rəngləyin. Qiymətləndirmə meyarları ilə cədvəldə tanış olun.

LAYİHƏ

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №6)

Ad______________Soyad________________________Sinif________Tarix_____________

<table>
<tr><td>Suallar</td><td>1</td><td>2</td><td>3</td><td>4</td><td>5</td><td>6</td><td>7</td><td>8</td><td>9</td><td>10</td><td rowspan="6">Yaradıcı tapşırıq</td><td>Park</td><td></td><td rowspan="2">Ümumi qiymət</td></tr>
<tr><td rowspan="4">Cavab variantı</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td>a.</td><td>Kompozisiya</td><td></td></tr>
<tr><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td>b.</td><td>Park elementləri</td><td></td><td rowspan="4">Cavab variantı + Yaradıcı tapşırıq</td></tr>
<tr><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td>c.</td><td>Rəngləmə</td><td></td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td>Orijinallıq</td><td></td></tr>
<tr><td>Qiymət</td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td>Qiymət</td><td></td></tr>
</table>

**1. Şəhərimizin ən qədim memarlıq incisi hansıdır?**
a) Hökumət evi
b) Azərbaycan Dövlət Filarmoniyası
c) Qız qalası

**2. Qoşa qala qapısı hansı tikilini dövrəyə alır?**
a) Azərbaycan Dövlət Akademik Filarmoniyasını
b) Hökumət evini
c) Şirvanşahlar Sarayını

**3. Qoşa qala qapısının üzərindəki rəmz aiddir:**
a) heyvanlara
b) bitkilərə
c) quşlara

**4. “Monumental” sözünün mənası:**
a) əzəmətli
b) heykəl
c) xatirə

**5. Maket nədir?**
a) kiçikölçülü həcmli ilkin nümunə
b) iri ölçüdə olan hazır nümunə
c) təsvir olunmuş nümunə

**6. Tarixi şəxsiyyətlərin heykəllərinin müəllifi, Xalq rəssamı:**
a) Səttar Bəhlulzadə
b) Tahir Salahov
c) Tokay Məmmədov

**7. Pyedestal — heykəl üçün nəzərdə tutulan:**
a) başlıq b) altlıq c) bəzək

**8. Dekorasiya nədir?**
a) səhnə elementləri
b) geyimin rəngi
c) əşyanın bəzəyi

**9. Muzeydə ekspozisiya nədir?**
a) ədəbi əsərin giriş hissəsi
b) əsərlərin müəyyən qayda üzrə nümayişi
c) muzeydə nümayiş etdirilən məmulat

**10. Eksponat nədir?**
a) ədəbi əsərin giriş hissəsi
b) əsərlərin müəyyən qayda üzrə nümayişi
c) muzeydə nümayiş etdirilən məmulat

**Yaradıcı tapşırıq.** A4 formatlı rəsm vərəqində təsəvvürünüzə əsasən əyləncəli park çəkin. Bu parkda monumental heykəltəraşlığa aid nümunə, park elementlərini çəkməyə çalışın və səliqəli rəngləyin. Rəsmin kompozisiyasının düzgün qurulmasını nəzərə alın. Qiymətləndirmə meyarları ilə cədvəldə tanış olun.

LAYİHƏ

# ƏLAVƏ MATERİALLAR

## MİNİATÜR SƏNƏTİ

Miniatür sənəti müsəlman Şərqi xalqlarının çoxəsrlik incəsənət tarixinin ən maraqlı səhifələrindən biridir. Azərbaycan xalqının dünya bədii mədəniyyəti xəzinəsinə bəxş etdiyi ən sanballı və mühüm sənət inciləri onun sənətkarlarının miniatür rəssamlığı sahəsində yaratdığı əsərlərdir. Təsviri sənətin xüsusi bir növü olan miniatür öz təbiəti etibarilə kitab illüstrasiyası olub klassik Şərq poeziyasının (şeir) bilavasitə təsiri altında inkişaf etmişdir.

Şərq poeziyası klassiklərinin, xüsusilə onun Firdovsi və Nizami Gəncəvi kimi korifeylərinin ölməz əsərləri rəssamların uzun tükənməz ilham qaynağı olmuş və onların yaradıcılığını yüksək humanist ideyalarla zənginləşdirmişdir. Firdovsinin “Şahnamə” epopeyası, Nizaminin fəlsəfi-didaktik, romantik məhəbbət və tarixi-qəhrəmanlıq poemaları rəssamların yaradıcılığına güclü təsir göstərmiş, ideya-estetik baxımından təkrarolunmaz, dünyəvi məzmunu ilə fərqlənən, dini mücərrədlikdən, sərt asketizmdən uzaq əsərlərin yaradılması üçün güclü stimul olmuşdur. Şərq poeziyası təkcə miniatür rəssamlığın humanist məzmunu və ideya istiqamətini müəyyənləşdirməmişdir, həm də onun bədii formasının inkişafında müəyyən iz buraxmışdır. Bədii obrazlar aləmi, Şərq poeziyasının incə, əlvan bədii dili, ahəngdarlığı və musiqiliyi rəssamlara poeziya ilə dərindən həmahəng olan şərti dekorativ üslub, yüksək romantik və poetikləşdirilmiş obrazlı ifadə vasitələri, şairanə bədii quruluş yaratmağa kömək etdi. Buna görədir ki, Yaxın və Orta Şərq xalqlarının miniatür rəssamlığı həm mövzu ümumiliyi, həm də bu sənət növünün özünəxas xüsusiyyətləri ilə şərtlənən bəzi ümumi yönlərə malikdir. Ancaq ictimai həyatın inkişaf xüsusiyyətləri və hər bir xalqın estetik baxışları onun incəsənətinin xarakterində də iz buraxmışdır. Ona görə də Ərəb Şərqinin, Türkiyə və İran, Azərbaycan, Orta Asiya və Moğol Hindistanının miniatürləri təkrarolunmaz xüsusiyyətlərlə fərqlənir. Bir əsrdən artıqdır ki, Şərq miniatürünün şah əsərləri nəinki alim və rəssamların, eləcə də çoxlu sənətsevərlərin diqqətini cəlb edir. Şərq miniatürünün tədqiqinə nisbətən yaxın zamanlarda, əsrimizin əvvəlindən başlanmasına baxmayaraq, hazırda dünya sənətşünaslığı elmində çox böyük material toplanmışdır. Həm materialın genişliyi, həm də anlam və elmi dərinliyi etibarilə müxtəlif səciyyəli məqalələr, elmi-kütləvi kitab və kitabçalar, əsaslı tədqiqat əsərləri meydana gəlmişdir. Təbriz məktəbi, onun görkəmli sənətkarlarının, birinci növbədə, Soltan Məhəmmədin yaradıcılığı F.Marrin, F.Şults, E.Bloşe, Q.Arnold, B.P.Denike və başqalarının ilk əsərlərindən başlayaraq, 1950–80-ci illərdə İ.Şuxin, B.Qrey, B.Robinson, K.S.Velç, B.V.Veymarn, A.Q.Qazıyev, Q.A.Puqaçenkova, A.İvanov və başqa bu kimi görkəmli alimlərin daha dərin tədqiqatlarına qədər bütün ümumiləşdirici əsərlərdə öz əksini tapmışdır.



“Xosrov və Şirin” əsərinə çəkilmiş illüstrasiya (miniatür)

Yaxın və Orta Şərq xalqlarının miniatür rəssamlığı inkişafının ümumi prosesində qabaqcıl rolu və əhəmiyyəti get-gedə daha da aydınlaşır. Hazırda dünyanın ən böyük muzey və kitabxanalarında ən dəyərli sənət inciləri kimi saxlanan Firdovsinin “Şahnamə”si və Nizaminin “Xəmsə”si, Sədi və Hafizin, Cami və Nəvainin, Xosrov Dəhləvi və Şərq poeziyasının başqa klassiklərinin Azərbaycan rəssamları tərəfindən zəngin illüstrasiyalarla bəzədilmiş təmtəraqlı əlyazmaları, həmçinin xüsusi albomlarda – “Mürəkkə”lərdə toplanmış müstəqil miniatürlər sübut edir ki, Azərbaycan miniatür sənəti XVI əsrin 30–40-cı illərində özünün yüksəliş zirvəsinə çatana qədər uzun və mürəkkəb inkişaf yolu keçmişdir. Azərbaycan miniatürünün nə vaxt meydana gəldiyi, ilk illüstrasiyalı əlyazmaların nə vaxt yarandığı məlum deyil. Ancaq inanmaq olmur ki, Nizami Gəncəvi və Xaqani Şirvani kimi dahi şairlər, misilsiz memar Əcəmi Naxçıvani öz şah əsərini yaratdığı mədəni yüksəliş dövründə miniatür rəssamlığı olmamışdır.

Məlumdur ki, ilk kitab miniatürü nümunələri Azərbaycan şəhərləri Marağa və Təbrizdə yaradılmışdır. Bu da təsadüfi deyil; belə ki, XIII əsrin sonu XIV əsrin əvvəllərində Elxanilərin ilk iqamətgahı olan Marağa

LAYİHƏ

və Təbriz şəhərləri müsəlman Şərqinin ən inkişaf etmiş mədəniyyət mərkəzləri idi. Hələ XIV əsrin əvvəlində Təbrizdə əlyazma kitablar hazırlayan bədii emalatxanaları olan şah kitabxanası fəaliyyət göstərirdi. Həddən artıq baha və əzablı zəhmət nəticəsində başa gələn əlyazma kitabları Şərqdə yüksək qiymətləndirilmişdi. Yalnız taxt-tac sahibləri kitabxana saxlamağa qadir idi. Bir illüstrasiyalı əlyazmanın hazırlanmasına uzun illər sərf olunurdu. Kitabxanada birinci dərəcəli xəttatlardan, miniatürsüz rəssam-müsəvvilərdən, ornamentalist müzəhhiblərdən və kitab sənətinin digər ustalarından ibarət bir ştat saxlamaq lazım olurdu. Onlar bahalı materiallar – cürbəcür rənglər, dəri, duru və təbəqə qızıl və gümüş və s. ilə təmin edilməli idilər. Bu sənətkarlar dini məzmunlu əlyazmaların üzünü köçürür, zəngin tərtibat verir, elmi-tarixi və ədəbi-bədii əsərlərə illüstrasiyalar çəkirdilər. Azərbaycan miniatür məktəbinin erkən nümunələri, məlum əlyazmalardakı – “Vərqa və Gülşa”, “Mənafi əl-heyvan” və Rəşidəddinin tarixi əsəri “Cami ət-təvarix”dəki illüstrasiyalar Təbrizdə güclü rəssamlıq məktəbinin olduğunu sübut edir. Lakin Azərbaycan rəssamı Əbdül Mömin əl-Xoyyinin “Vərqa və Gülşa” əlyazmasına çəkdiyi illüstrasiyalarının ümumi üslubu sübut edir ki, onlar ilk əsərlər deyil və nə vaxtdansa mövcud olan bədii ənənənin əsasında yaradılmışdır.

XV əsr Bakı rəssamı Abdulbağı Bakuvinin ayrı-ayrı vərəqlərdəki dəzgah miniatürləri böyük maraq doğurur. XV əsrin əvvəli Təbriz miniatürü üslubunun səciyyəvi cəhətləri Nizami Gəncəvinin 1410–1420-ci illərdə Təbrizdə məşhur xəttat Əli Həsən Soltani tərəfindən köçürülmüş “Xosrov və Şirin” poemasının əlyazmasına çəkilmiş illüstrasiyalarda daha aydın ifadə olunmuşdur.

Bu əlyazmanın beş miniatürü ustad Cüneyd Nəqqaşın üslubunu xatırladan əsaslı surətdə işlənmiş kompozisiyalarla fərqlənir. “Fərhad Şirinin qəsrində” və “Şirinin Bisütun dağında Fərhada baş çəkməsi” miniatürləri parlaq rəngarəng ləkələrin ritmik təkrarı və növbələnməsindən doğan dekorativ ahəngi ilə seçilir. XV əsrin sonuna aid miniatürlər arasında Nizaminin 1482-ci il tarixli “Xəmsə” əlyazmasının illüstrasiyaları xüsusi maraq doğurur. Bu zərif nüsxə Təbrizdə Soltan Yaqub ağqoyunlu dövrünün görkəmli xəttatı Abdul Rəhim tərəfindən köçürülmüşdür. Bu qiymətli əlyazmasının miniatürləri XV əsrin əvvəllərinə aid olan əsərlərdən xeyli fərqlənir. Onlar kompozisiyalarına görə mürəkkəb və müxtəlif olub, zəngin koloritə malikdir. Rəssamların təbiətə marağı xeyli artmışdı. Mənzərə kompozisiyanın ayrılmaz tərkib hissəsinə çevrilmişdi, miniatürün məzmununun yazılmasında müəyyən rol oynayırdı. XV əsr miniatürləri, bütövlükdə, XIV əsr əsərlərindən həm texniki həlli, həm də ifa tərzinə görə fərqlənir. Qrafik üsul boyakarlıq üsulunu əvəz edir. Kəskin cızılmış kontur xətləri, incə və ifadəli rəsm rəssamın təsvir dilinin əsasını təşkil edir. Rəng daha çox dekorativ səciyyə daşıyır. Parlaq, təmiz rənglərin bir-birini əvəz etməsi, onların təzadlı, düzgün və ritmik təkrarlanması koloriti daha da zənginləşdirir, miniatürün emosional təsir gücünü artırır. Üslubun bu cəhətləri XV əsrin sonuna aid miniatürləri XVI əsr Təbriz məktəbinin əsərlərinə yaxınlaşdırır.

XVI əsrdə kitab öz inkişafının zirvəsinə çatdı. Səfəvilər sarayı zəngin kitabxanası, şəkilli əlyazmaları yaratmaq üzrə bədii emalatxanaları ilə görkəmli xəttatların, naqqaşların, miniatürçü-rəssamların, tərtibatçıların, ildiçilərin və digər kitab sənəti ustalarının əsas fəaliyyət mərkəzinə çevrildi. Qeyd etməliyik ki, kitab Şərqdə həmişə yüksək ictimai marağın artması ilə əlaqədar olaraq xüsusi əhəmiyyət kəsb etmişdir. Şah İsmayılın, sonralar isə Təhmasibin hakimiyyəti dövründə şah kitabxanasında misilsiz fırça ustası Sultan Məhəmmədin ümumi rəhbərliyi altında Ağa Mirək İsfahani, Mir Müsəvir, onun oğlu Mir Seyid Əli, Soltan Məhəmmədin oğlu Mirzə Əli, Dost Məhəmməd, Müzəffər Əli və başqalarından ibarət bir dəstə istedadlı rəssam, Şah Mahmud Nişapuri, Şeyx Məhəmməd və başqa xəttatlar, məşhur Behzad, Qasım Əli, Şeyxzadə və başqa Herat rəssamları, dövrün tanınmış kitab ustaları fəaliyyət göstərirdilər. Bu sənətkarlar tarix və ədəbiyyata gözəl bələd idilər. Bəzi məşhur miniatürçü rəssamlar gözəl şair idi – Mirzə Seyid Əli, Şahqulu Sadiq bəy Əfşar xəttat dekorativ sənət ustaları olmuşlar. Bu fırça ustaları həm XVI əsr Təbriz məktəbinin inkişafında, həm də bütövlükdə Şərq rəssamlığı tarixində böyük rol oynamışdır. Bu istedadlar kəhkəşanına isə Ustad Nizaməddin Sultan Məhəmməd rəhbərlik edirdi.

## ŞİRVANŞAHLAR SARAYI

**Şirvanşahlar sarayı** – XV əsrdə Şirvanşah İbrahim Xəlilullahın dövründə tikilmiş saray kompleksi. Bakının mərkəzində, İçərişəhərdə yerləşən saray kompleksi Yaxın Şərqin ən görkəmli memarlıq abidələrindən biridir. Kompleksə Şirvanşahlar sarayı, Divanxana, Keyqubad məscidi, Şirvanşahlar türbəsi (1435–1436), Şah məscidi (1441), Seyid Yəhya Bakuvi türbəsi, Murad darvazası (1585), Saray hamamı və Ovdan daxildir. 1964-cü ildən muzey-qoruq kimi fəaliyyət göstərir və dövlət tərəfindən mühafizə olunur. 2000-ci ildə YUNESKO tərəfindən İçərişəhər və Qız qalası ilə birlikdə Ümumdünya mədəni irsi siyahısına daxil edilmişdir.

**Kompleksin quruluşu.** Şirvanşahlar memarlıq kompleksinin aşağı həyətində yerləşmiş Şirvanşahlar türbəsi ilə Şah məscidi birlikdə, yuxarı həyətin memarlıq kompleksindən fərqlənən, kiçik bir tikinti kompleksi yaratmışdır. Düzbucaqlı prizma formasında olan Şirvanşahlar türbəsinin şərq fasadı portal (baştağ) kompozisiyası ilə qeyd edilmiş və dekorativ ünsürlərlə bəzədilmişdir. Bu binanın ifadəli görkəm almasına kompozisiya aydınlığı və memarlıq formalarının ciddiliyi səbəb olmuşdur. Türbə tikintisində işıq kölgə ləkələrinə, şaquli memarlıq hissələri ilə üfüqi formalar arasındakı kontrastlığa və ustaların məharətlə yaratdığı



LAYİHƏ

daş üstündəki oymalara geniş yer verilmişdir.

Binanın daxili hissəsi çatma günbəzlə nəhayətlənib. Cənub və şimal tərəflərdə yerləşmiş xidmət otaqları tağtavanla örtülmüşdür. Şimal tərəfdəki otaqda dama aparan dolama pilləkənlər yerləşdirilmişdir. Daxili quruluşun əsas hissəsi salona verilmişdir. Salonun divarlarında çatmatağlı dərin taxçalar yerləşdirilmişdir. Salonun üstü itibucaqlı təpəsi olan günbəzlə örtülmüşdür. Bu günbəz kürəvi formalı yelkənlər üzərində yerləşdirilmişdir. Günbəzin daxili səthi zərif dilim hissələrə parçalanmışdır. Salonun qərb tərəfindəki iki kiçik otaqda türbə əmlakı saxlanırmış. Salonun ciddi üslublu memarlıq görkəmində nəzərə çarpan cəhət interyerlə qamətli günbəzin düzgün nisbətdə tikilməsidir. Günbəz vaxtilə firuzəyi kaşı lövhələrlə örtülü olmuşdur.



Bu türbəni fərqləndirən əlamətdar xüsusiyyətlərdən biri onun yeraltı sərdabə hissəsinin olmasıdır. Nəşlər salonun döşəməsində yerləşdirilmiş sərdabələrdə dəfn edilmiş və sərdabə daş lövhələrlə örtülmüşdür.

Türbənin baştağı Azərbaycan portallarının ən gözəllərindəndir. Bu baştağın dilimi tavanı yuxarıdan çatma yarımgünbəzlə nəhayətlənmiş, aşağıdan isə stalaktitlərlə bəzədilmişdir. Yarımgünbəz 4 cərgədə yerləşdirilmiş stalaktit kəmərinə söykənmişdir.

Baştağda çatmatağın üstündə stilləşmiş nəbati naxışlar, sol və sağdakı medalyonda isə güzgü əksliyi ilə təkrar olunan “memar Əli” sözləri verilmiş, portalın yuxarı hissəsində isə nəsx xətti ilə iki sırada Quran ayələri qabarıq formada oyulmuşdur.

Baştağı soldan ayıran çatmatağlı giriş qapısının *üstündəki ikisətirli daş kitabə abidənin tikilmə tarixindən* xəbər verir: “Ən böyük sultan, əzəmətli Şirvanşah, Allahın nəbisinin adaşı, dinin köməkçisi – Allah onun dövlət və hökmdarlığını əbədi etsin – anası və oğlu üçün – Allah onların hər ikisinə rəhmət etsin – bu nurlu türbənin tikilməsinə 939-cu ildə (miladi 1435–1436) əmr etdi”.

Şirvanşahlar saray kompleksinin şimal-qərb hissəsində, divarla əhatə edilmiş kvadrat həyətdə Divanxana yerləşir. Həyətin ortasında 1,5 metr hündürlüyündə olan bünövrənin üstündə divanxananın səkkizguşəli mərkəzi pavilyonu ucaldılmışdır. Bu pavilyonun mərkəzi salonu beş tərəfdən açıq eyvana baxır. Divanxananı təşkil edən xüsusi formalı sütunlar və onların yaratdığı çatmatağlı arka abidənin mərdlik, qüvvət və müdriklik ifadə edən memarlıq obrazını yaratmışdır.

Abidənin damı ikiqat örtüklə örtülmüş, xarici görünüşü dilim-dilim memarlıq formasındadır. Divanxana həyətinin divarları boyu sütunlar üzərində qurulmuş çatmatağlı arkaların yaratdığı uzun, düzbucaqlı eyvan mərkəzi binanı, pavilyonu üç tərəfdən əhatə edir. Həyətin günbatana baxan xarici giriş yolu küçə tərəfdən dərin baştağla qeyd edilmişdir. Abidənin ikinci baştağı pavilyonun çatmatağlı eyvanına qərb tərəfdən bitişərək, darısqal yerdə, pavilyona əzəmətlilik, vüqar və ucalıq təsiri bağışlayır. Bu portalın çatmatağlı taxçası zərif, dilim-dilim formalı yarımgünbəzlə nəhayətlənir. Bu yarımgünbəz zəngin stalaktitlər quruluşuna söykənmişdir. Baştağın timpanları giriş yolunun üstündəki səth üzərində oyma naxışlarla, qabarıq nəbati ornamentlərlə bəzədilmişdir. Güman edilir ki, giriş yolunun üstündə abidənin tarixinə dair yazılar olmuş, lakin nə vaxtsa silinmişdir.

## İÇƏRİŞƏHƏR

Azərbaycanın bir çox şəhərləri kimi Bakı da antik dövrdə iqtisadi cəhətdən inkişaf etmiş və sıx əhaliyə malik olan, iri yaşayış məntəqəsinin böyüməsi nəticəsində meydana gəlmişdir. Bakının kiçik yaşayış məntəqəsindən şəhərə çevrilməsində neft və duz kimi sərvətlərin olması mühüm əhəmiyyət daşıyır. Bakı hələ qədim zamanlardan təkcə Cənubi Qafqazda deyil, eləcə də Yaxın Şərqdə əhalinin sıx məskunlaşmış şəhərlərindən biri kimi tanınmışdır. Əlverişli iqlimi, təbii-coğrafi şəraiti, təbii sərvətlərin bolluğu, buradan keçən beynəlxalq əhəmiyyətli ticarət yolları bu şəhərin iqtisadi cəhətdən inkişafına kömək etmişdir. Mülayim iqlimi, məhsuldar torpağı, bol su mənbəyi burada əsrin əvvəllərindən başlayan iqtisadi inkişaf üçün əsas zəmin olmuşdu. Ərəb istilasına qədər Azərbaycanın müxtəlif vilayətlərində xristian, bütpərəstlik, atəşpərəstlik dinləri yayılmış və onların dini ibadət yerləri – mərkəzləri mövcud olmuşdur. Atəşpərəstlik dininin əsas ocaqlarından biri də qədim Bakı idi.

İçərişəhərlərin özünəməxsus taleyi vardır. Orta əsrlərdə bəzi şəhərlər hərbi, siyasi hadisələrdən kənarda



LAYİHƏ

qalsa da, bir qismi tarixi hadisələrin güclü burulğanında çırpınırdı. Bəzi şəhərlər talan və yanğınlara, feodal çəkişmələrinə, təbii fəlakətlərə tab gətirməyərək məhv olurdu. Bakı şəhəri isə əlverişli təbii-iqlim şəraitinə, güclü iqtisadiyyatına, ticarət və sənətkarlığının inkişafına görə çiçəklənərək şöhrət qazanmışdı.

İçərişəhər mahir memarların, sənətkarların peşəkarlığından söhbət açır, bizi ötən qərinələrə aparır. Dövrümüzə gəlib çatmış bu şəhərin dar, əyri-üyrü küçələrini, meydançalarını göz önünə gətirdikcə ötən yüzilliklərdə hakim olmuş şəhər həyatının zaman keçdikcə necə dəyişdiyini görürük. İçərişəhərdə izdihamlı ticarət meydanları, küçələr və böyük məhəllələr meydana gəlmişdi. O, sözün əsl mənasında daxili məhəlli strukturlara malik olub, hər şeydən əvvəl iqtisadi mərkəz kimi formalaşmışdı. Yəni onun özünüidarəsi daxili və ətraf yaşayış məntəqələri sakinlərinin məişət və təsərrüfat həyatında aparıcı rol oynayır, yaxın və uzaq yerlərlə sıx iqtisadi-mədəni əlaqədə saxlayırdı. Bakının inkişaf etmiş şəhər səviyyəsinə yüksəlməsi üçün mühüm amillərdən biri də onun ölkənin sənətkarlıq mərkəzlərindən birinə çevrilməsi idi. Burada müxtəlif sənət sahələri formalaşmış, əmtəə istehsalı genişlənmiş (dulus, metal, şüşə məmulatı və s.), yerli əhali lazım olan çoxçeşidli mallarla təmin edilmişdi. Şəhər təsərrüfatının ən mühüm amillərindən biri də onun zəngin əmtəə istehsal etməsindədir. Su təchizatı, sanitariya və kanalizasiya sistemlərinin qurulması, sanitariya qaydalarına əməl etmə, həmçinin yaşıllaşdırma işi şəhər həyatında önəmli yer tutur. Orta əsrlər Bakısında bütün bu problemlər həll edilmişdi. Yüksək təpə üzərində amfiteatr formasında salınan şəhər aşağıdan dənizə baxır, yuxarı hissədən isə Qafqaz dağları ilə əhatə olunmuşdu. Üçqat qala divarları, Qız qalası və digər fortifikasiya qurğuları ilə bərabər şəhər sanki bütövlükdə möhtəşəm müdafiə istehkamını xatırladırdı. Digər orta əsr şəhərləri kimi, Qala divarı içində olan bütün binalar (Şəhristan) da taktiki və strateji baxımdan müdafiə xarakteri daşıyırdı.



Şəhərin plan quruluşu hərbi üstünlük və döyüş taktikası düşünülərək sanki əsl labirinti xatırladırdı. İri meydan və enli küçələrin şəhərin içərilərinə doğru getdikcə geometrik planda kiçilib sıxlaşması şəhər əhalisinin də bütün gücü ilə müdafiə işinə cəlb olunmasından xəbər verir.

Beləliklə, şəhər əhalisi dar gündə birlikdə düşmənə sinə gərir, öz vətənini, öz şəhərini yağılardan qorumaq üçün qeyrət göstərirdi. Babalarımızın ta qədimlərdən bəri vətəni qorumaq məharəti bu gün də milli ordumuz və silahlı qüvvələrimiz tərəfindən öyrənilir. İçərişəhər və onun müdafiə istehkam qalaları hərbi vətənpərvərlik simvolu olaraq gənc nəslin milli qürur hisslərilə tərbiyə olunmasında bariz bir örnəkdir.

## QIZ QALASI

Qız qalası — Bakıda, Xəzər dənizinin kənarında dənizə doğru maili nəhəng bir qayanın üzərində, silindrik formada tikilmiş qala. Dəniz tərəfdən ona uzunsov bir dayaq (kontrfors) əlavə edilmişdir. Hündürlüyü 28 m, diametri birinci mərtəbədə 16,5 m-dir. Birinci mərtəbədə divarın qalınlığı 5 m-ə çatır. Qalanın daxili hissəsi 8 mərtəbəyə bölünür. Hər mərtəbə yonma daşlarla tikilmiş, günbəz formalı tavanla örtülmüşdür. Daşdan hörülmüş bu tavanların ortasında dairəvi deşiklər vardır. Deşiklər şaquli xətt istiqamətindədir. Belə ki, VIII mərtəbənin tavanının ortasında olan dairəvi deşikdən baxdıqda birinci mərtəbənin döşəməsini görmək mümkündür. Qalaya yeganə giriş yolu onun qərb tərəfində, yerin əvvəlki səthindən 2 m hündürlükdə və 1,1 m enində olan tağlı qapı yeridir.

Qalanın birinci mərtəbəsinin hündürlüyü 3, digər mərtəbələrin hündürlüyü isə orta hesabla 2,5 m-dir. Mərtəbələrarası əlaqə qalanın cənub-şərq divarının içərisində düzəldilmiş pilləkənlər vasitəsilə saxlanır. Birinci mərtəbə ilə ikinci mərtəbə arasında əlaqə yaratmaq yalnız tavanda olan dairəvi deşikdən nərdivan və ya ip vasitəsilə mümkündür. Qalanın qapısı keçmişdə bir neçə qatdan ibarət olmuşdur. Uzunluğu qala divarının eni qədər olan qapı yerinin tağlı tavanında qalmış tikinti qalıqları bunu sübut edir. Bundan əlavə, qapının ağzında keçmişdə bir neçə quyu da olmuşdur. Beləliklə, Qız qalasına orta əsrlərdə daxil olmaq istəyən hər kəs həmin quyuların yanından ehtiyatla keçərək, nərdivan vasitəsilə qapıya qalxmalı, giriş yolu üzərində olan qapılardan keçməli və nəhayət birinci mərtəbəyə çatmalı idi. Ortadakı deşikdən yuxarı mərtəbələrə qalxmaq üçün ip və ya nərdivandan istifadə olunurdu.

LAYİHƏ

Qalanın cənub və cənub-şərq tərəflərini, xüsusilə dənizi nəzarət altında saxlamaq üçün mazğallar düzəldilmişdir. Bunlar qalanın içərisinə təmiz hava daxil olmaq işinə də xidmət etmişdir. 1962–63-cü illərdə qalanın birinci mərtəbəsinin döşəməsində arxeoloji qazıntı işləri aparılmışdır. 5 m dərinliyə qədər davam etdirilən həmin qazıntı nəticəsində məlum olmuşdur ki, abidənin bünövrəsi dəniz tərəfə enişli olan nəhəng bir qayanın üzərində tikilmişdir. Buradan belə bir nəticəyə gəlmək olur ki, abidəyə dəniz tərəfdən bitişik olan kontrfors həmin enişin qarşısında qalaya əsas dayaq rolunu oynamışdır.



1964-cü ildə qalada tədqiqat işləri aparılan zaman bünövrədən 14 m hündürlükdə içəriyə doğru uzanan böyük ağac tirlərin olduğu müəyyən olunmuşdur. Onların nə məqsədlə istifadə edilməsi məlum deyil. Ola bilsin bu tirlər kontrforsun içində gizli bir tikinti ilə əlaqədardır və ya zəlzələyə qarşı amortizasiya rolunu oynamışdır. Dəqiq hesablama əsasında müəyyən edilmişdir ki, qalanın divarının eni bünövrə hissədə 5 metrdirsə, yuxarı hissəsində təqribən 4,5 mertdir. Qız qalasının tikinti quruluşunda maraqlı cəhətlərdən biri də onun içərisində qayadan ovulub düzəldilmiş su quyusudur.

Diametri 0,7 m olan bu quyu qalanın cənub-şərq divarının içindədir. Su quyusunda qazıntı işləri aparılmışdır. Quyudan tapılan maddi-mədəniyyət qalıqları buradan XII əsrdən başlayaraq istifadə olunduğunu göstərir. Hesablamalar nəticəsində məlum olmuşdur ki, quyunun dəniz suyunun səviyyəsi ilə heç bir əlaqəsi yoxdur. Quyunun suyu kimyəvi analiz olunmuş, onun içmək üçün tam yararlı olması müəyyənləşdirilmişdir. Quyunun ağız hissəsi Qalanın üçüncü mərtəbəsinin döşəməsi səviyyəsindən başlayıb divar boyu aşağıya doğru 13 m davam edir. Quyunun təhlükəsizliyini təmin etmək üçün onu qala divarı içərisində gizlətmişlər. Onun şimal və cənub divarında enib-qalxmaq üçün 10–12 sm dərinlikdə ayaq yerləri vardır. Quyunun 12 m dərinliyində divar genişlənir. Qız qalası və Şirvanşahlar sarayı arasında gizli yeraltı yolun məhz su quyusunun aşağı hissəsindən başlanması ehtimal olunur. 1982-ci ildə İçərişəhərin şərq tərəfində aparılan genişmiqyaslı arxeoloji qazıntılar nəticəsində aşkar edilən ilk yeraltı yol orta əsrlərdə Bakının mərkəzi ticarət küçəsi sayılan Şamaxı Qala qapısından başlayıb, Salyan darvazasına doğru gedən baş küçənin şərq tərəfində şimal-cənub istiqamətində yerləşir. Maraqlıdır ki, yolun xətti XIV əsrdə tikilmiş "Multani" karvansarasının altından keçərək Qız qalasına doğru gedir.

Qalanın tikilmə dövrünü müəyyənləşdirmək üçün etibarlı sənədlərdən biri də onun divarının çöl tərəfində, qala qapısının üstündə, 14 m hündürlükdə yerləşdirilmiş 0,4x0,6 m ölçüdə yazılı daşdır. Bu daşın üzərində "Qübbə – Məsud ibn Davud" sözləri yazılmışdır. Bəzi alimlərin fikrincə, Məsud ibn Davud qalanı tikən memarın adıdır. Onlar bu fikri Mərdəkan qalasındakı dairəvi formalı bürcdə olan yazı ilə əsaslandırırlar. Mərdəkan bürcü üzərində "memar Əbd-əl-Məcid ibn Məsud" sözləri yazılmışdır. Həmin tədqiqatçılar belə hesab edirlər ki, memar Əbd-əl-Məcid Qız qalasını inşa edən memar Məsudun oğludur. Qız qalası kitabəsinin çox səliqəsiz surətdə sonradan divara yerləşdirilməsi də müəyyən edilmişdir. O, qala divarının daş kəmərlərlə əhatə olunan hissəsinə çox kobud bir şəkildə yapışdırılmışdır. Digər tədqiqatçıların ehtimalına görə, həmin kitabə qala tikildikdən sonra oraya vurulmuşdur. Davudun oğlu Məsudun kim olduğuna gəldikdə isə, orta əsr mənbələrindən məlum olur ki, o, Səlcuq Sultanı Mahmudun nəvəsidir. Sultan Mahmud isə XII əsrin əvvəllərində Azərbaycanın hökmdarı olmuşdur. Ola bilsin ki, bu dövrdə onun nəvəsi Məsud Şimali Azərbaycanda hökmranlıq etmiş və öz adını əbədiləşdirmək üçün həmin kitabəni qala divarına vurdurmuşdur.

Qalanın cənub-qərb tərəfdəki divarı daxilində ikinci mərtəbədən başlayaraq yeddinci mərtəbəyə qədər daşdan səliqə ilə hörülmüş, quyu formasında şırım (oyuq) vardır. Hər mərtəbədə həmin şırım olan yerdə yarımdairə şəklində taxça açılmışdır. Şırımın içərisinə uzunluğu 40–45 *sm*, diametri 25–30 *sm*, divarının qalınlığı isə 2,2 *sm* olan saxsı tünklər yuxarıdan aşağıya doğru bir-birinin içərisinə geydirilməklə yerləşdirilmişdir. Tünklərin bir-birinə geydirilmiş hissələri (çöl tərəfi və divarının xarici) əhəng məhlulu ilə möhkəmləndirilmişdir. Birinci mərtəbədən başlayaraq qalanın özül hissəsinə qədər gedən tünkləri 22 x 18 *sm* ölçüdə dördkünc formalı saxsı novçalar əvəz edir. Həmin novçalar divarın içərisi ilə bayıra yönəlir. Saxsı tünklər və novçalar üzərində dulus çarxının izləri aydın görünür.

Qala 1964-cü ildən muzey kimi fəaliyyət göstərməyə başlamış, 2000-ci ildə YUNESKO-nun qorunmalı tarixi abidələr siyahısına salınmışdır.



LAYİHƏ

## MƏNBƏLƏR


1. C.Həsənzadə, E.Hacınski. Ayna Uşaq Ensiklopediyası EXXON MMM. İncəsənətin misilsiz sərvəti. Bakı, “Ayna Mətbu evi”, 1999.
2. Salamzadə Ə.R., Məmmədzadə K. M. “Şəki xanlarının sarayı”. Bakı, “Elm”,1986.
3. Rasim Əfəndi. “Azərbaycanın daş plastikası”. Bakı, “İşıq” nəşriyyatı, 1986.
4. Rasim Əfəndiyev “Azərbaycan xalq sənəti”. Bakı, “İşıq” nəşriyyatı, 1984.
5. Rasim Əfəndi. “Azərbaycan incəsənəti”. Bakı, “Şərq-Qərb ”, 2007.
6. Sadıqzadə Ş.H. “Qədim Azərbaycan bəzəkləri”. Bakı, “İşıq” nəşriyyatı, 1971.
7. Məmmədov V.S., Əmiraslanov İ.R., Nəcəfov H.N., Mirsəliyev A.A. “Naxışların yaddaşı”. Bakı, Azərnəşr, 1981.
8. Hüseynov M., Bretanitski M., Salamzadə M. “Azərbaycan memarlığı tarixi”. Azərbaycan SSRİ Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu. İnşaat, memarlıq və inşaat materialları ədəbiyyatı Dövlət nəşriyyatı, Moskva, 1963.
9. Cəfər Qiyasi. “Nizami dövrü memarlıq abidələri”. Bakı, “İşıq” nəşriyyatı, 1991.
10. Rzayev N., Qeybullayev Q., Rzayev Ş. “Rusca-Azərbaycanca memarlıq-inşaat lüğəti”, Bakı, “Elm”, 1998.
11. Nəcəfqulu İsmayılov. “Köhnə Bakıda” (albom). Bakı, “İşıq” nəşriyyatı, 1988.
12. Lətif Kərimov.“Azərbaycan xalçası”. Bakı, “ Yazıçı ”, 1985.
13. Kərim Kərimov. “Azərbaycan miniatürləri”. Bakı, “İşıq” nəşriyyatı, 1980.
14. Tahir Salakhov. Aurora Art Publishers, Leninqrad, 1980, Printed in Austria.
15. Живопись Азербайджанской ССР. 1960-е годы. Москва, “Советский художник”, 1976 г. Автор-составитель М.Наджафов.
16. Дехтярь А. Мастера Советского искусства “Тогрул Нариманбеков” . Живопись. Москва, “Советский художник”, 1984.
17. Искусство Советского Азербайджана. Живопись. Графика. Скульптура. Москва, “Советский художник”.
18. Лятиф Керимов. “Азербайджанский kовер”. Баку, Издательство Гянджлик. 1983, том 2.
19. Преттье М.К. и Капальдо А. “Творчество и выражение”, том 2. Москва, “Советский художник”, 1985.
20. Раздобреева И. В. “И.Левитан”. Серия “Русские художники” . Издательство “Аврора”, Ленинград, 1971.
21. Корзухин А. “Беюк Ага Мирзазаде». Москва, “Советский художник”, 1980.
22. Лавров А.М. “Школа. Учитель. Искусство” . Москва, “Просвещение”, 1981.
23. Белютин Э.М. “Основы изобразительной грамоты”. Издательство “Советская Россия”, Москва, 1961.
24. “Энциклопедический словарь юного художника”. Москва, “Педагогика”, 1983.
25. “Изобразительное искусство Азербайджанской ССР”. Москва, “Советский художник”, 1978.
26. “Изобразительное искусство для детей. Виды и жанры изобразительного искусства”. Сокольникова Н.М., Ломов С.П. Книга для семейного чтения и творческого досуга. АСТ. Астрель, Москва, 2009.
27. “Цвет и линия”. Ю.Аксенов, М.Левидова. Практическое руководство по рисунку и живописи. Москва, “Советский художник”, 1976.
28. Роджер Эрб, Стефан Зелевски. “Цвет и свет”. Энциклопедия. Издательство “Мир kниги”, 2007.
29. Кастерман Ж. “Живопись”. Рисуй и самовыражайся. Детское справочное бюро. Москва, Издательство АСТ. Астрель, 2002.
30. “Гуашь” (шаг за шагом). Мастер-kласс. Москва, Издательство АСТ. Астрель, 2005.
31. Элвин Крошо, “Акварель” kak рисовать, Москва, Издательство АСТ. Астрель, 2006.
32. “Rysowanie dla poczatkujacych” Mark i Mary Willenbrink. Wydawnictwo K.E.Liber, 2008.
33. “Moja pierwsza ksiazka o risowaniu” Jan Jager and Ica Bokforlaq. Wydawnictwo REA. Warszawa 2010.
34. PC CD-ROM / Самоучитель TeachPro . “Изобразительное искусство” (для младших школьников).ООО “1С-Паблишинг”, 2007.
35. PC CD-ROM / Студия лепки-животные (для младших школьников).ООО“1С-Паблишинг”, 2007.




LAYİHƏ

*BURAXILIŞ MƏLUMATLARI*

**Təsviri incəsənət – 3**
*Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün*
*Təsviri incəsənət fənni üzrə dərsliyin*
*metodik vəsaiti*

**Tərtibçi heyət:**

Müəlliflər: **Yeganə Qələndar qızı Cəlilova**
**Kəmalə Əhməd qızı Cəfərzadə**

Nəşriyyat redaktoru **Kəmalə Abbasova**
Texniki redaktor **Zeynal İsayev**
Dizayner **Taleh Məlikov**
Korrektor **Aqşin Məsimov**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi:*
________

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2022**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 7,3. Fiziki çap vərəqi 10. Səhifə sayı 80.
Kağız formatı 57x82 1/8. Tiraj 7528. Pulsuz. Bakı – 2022

“BAKI” nəşriyyatı
Bakı, AZ 1001, H.Seyidbəyli küç. 30

LAYİHƏ

Pulsuz



LAYİHƏ